RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 175 (9630) 17 avqust 2024-cü il ŞƏNBƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

# Azad Xocalıda zəfər seçkisi



## Xocalılılar doğma yurdlarında ilk dəfə parlament seçkilərində iştirak edəcəklər

32 illik ayrılıqdan sonra Xocalı sakinləri öz doğma şəhərlərində yaşamağa başlayıblar. İndiyədək Xocalı şəhərində 44 ailənin, yəni 169 nəfərin daimi məskunlaşması təmin edilib və bərpa işləri tamamlandıqca köç edən şəhər sakinlərinin sayı da artacaq.

Xocalıda söhbətləşdiyimiz şəhər sakinləri doğma yurda qayıtdıqlarına, dövlət qayğısı ilə əhatə olunduqlarına görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya minnətdarlıqlarını bildirdilər, şəhidlərimizə rəhmət dilədilər. Torpaqlarımızı işğaldan azad edən qəhrəman əsgər və zabitlərimizə təşəkkürlərini ifadə etdilər, Vətən müharibəsində və antiterror tədbirlərində canlarından keçən şəhidlərimizə rəhmət, qazilərə şəfa dilədilər.

Xocalılılar 1992-ci ilin fevral ayının qarlı qış günündə soyqırımına məruz qalaraq, yüzlərlə şəhid verərək bu şəhəri tərk etmişdilər. Lakin hər birinin taleyində vaxtilə ağır iz buraxmış bu şəhərə ləyaqətlə qayıdıblar. Çünki doğmalarına, yaxınlarına qarşı soyqırımı faciəsi törədən düşmən üzərində qələbə çalaraq evlərinə dönüblər. Və bu torpaqların əzəli sahibi kimi bundan sonra əbədi olaraq Qarabağda, Xocalıda yaşayacaqlar. Ona görə söhbət etdiyimiz hər bir Xocalı sakini həm də qürurlu idi.

→ 4

## ABŞ sülhə və sabitliyə böyük təhdid yaradır



Azərbaycan regionun lider dövləti olaraq prosesləri diqqətlə izləyir. Regionda yaranan hərbi-siyasi konfiqurasiyaya və əməliyyat şəraitinə tam şəkildə nəzarət edən dövlət kimi Azərbaycan bu bölgədə ssenarinin istənilən inkişaf tendensiyasına hazırdır. Bu özgüvən və qətiyyətli mövqenin kökündə isə Prezident İlham Əliyevin Müzəffər Ali Baş Komandanlığı altında qazanılan şanlı zəfərimizdən doğan güc və imkan, habelə dövlətimizin başçısının zamanında reallaşdırdığı layihələr, Vətən müharibəsi və antiterror tədbirləri ilə yaratdığı siyasi reallıq dayanır. Çoxsaylı maneələrə baxmayaraq, Azərbaycanın planlaşdırdığı nəqliyyat, kommunikasiya layihələrini reallaşdırması ölkəmizin qətiyyətini göstərməklə bərabər, həm də proseslərin düzgün proqnozlaşdırıldığını bir daha sübut edir.

Xüsusən Rusiya-Ukrayna münaqişəsi fonunda qütblərarası ziddiyyətin dərinləşdiyi zamanda Qərbin Azərbaycanın çoxsaylı maneələrə rəğmən reallaşdırdığı layihələrin önəmini daha dəqiq anladığına şahidlik edirik. Sirr deyil ki, Vaşinqton Mərkəzi Asiyanın resurslarını Azərbaycan marşrutu üzrə realizəsinə Rusiya və Çin vasitəsilə nəqlinin alternativi kimi baxır. Heç şübhəsiz ki, bu da Qafqazda sülh və sabitliyin Vaşinqton üçün önəmini artırmalıdır. Lakin ABŞ-nin Zəngəzur dəhlizində hərbi-siyasi mövcudluğa cəhd etməsi Vaşinqtonun proseslərdə xoş olmayan niyyətini gizlətməyə imkan vermir. Xüsusən regionda özünün hərbi mövcudiyyəti üçün sülh və sabitliyə təhdid kimi baxan ABŞ Bakı ilə İrəvan arasında dayanıqlı sülhdə maraqlı olmadığını konkret əməlləri ilə göstərir. Azərbaycan və Ermənistan arasında yekun sülh müqaviləsinin imzalanmasının geosiyasi əhəmiyyəti Azərbaycanın davamlı şəkildə gündəlikdə saxladığı məsələ olub.

→ 8

## Ermənistan Naxçıvanı atəşə tutmaqla sülhə qarşı çıxır

Azərbaycanla Ermənistan arasında sülh müqaviləsinin imzalanması məsələsi gündəmə gəldikcə və müddəaların dəqiqləşdirilməsi istiqamətində addımlar atıldıqca bunu istəməyən qüvvələr daha da fəallaşırlar. O qeyd edib ki, atəşkəsin pozulması sülhün qarşısını alan əsas addımlardan biridir. Əsas məsələ odur ki, burada yalnız Ermənistanın marağı deyil, həm də Qərbin məkrli məqsədləri var. Ümumiyyətlə, bəzi Qərb ölkələri Azərbaycanla Ermənistan arasındakı məsələlərlə bağlı qərəzsiz, şəffaf mövqe ortaya qoymurlar. Onlar Ermənistanı təxribatlara təhrik etmək üçün əllərindən gələni edirlər. ABŞ, Fransa kimi dövlətlər silah-sursat göndərib Ermənistanı silahlandırmaqla müxtəlif problemlər yaratmağa çalışırlar. Digər məqam isə odur ki, bəzi Avropa ölkələri ilə yanaşı, sülh müqaviləsinin imzalanmasını istəməyən qonşu İran da var.

Paşinyan hakimiyyəti həm daxili qüvvələr, həm də xarici havadarlarla oynamaqla, nəyin bahasına olursa-olsun, təklif olunan bir sıra müddəaları çıxartmaq şərtilə sülh müqaviləsinin imzalanmasına çalışır: "Amma ümumilikdə əsas məqsəd sülh müqaviləsinin imzalanmasını uzatmaqdır. Lakin Azərbaycanın güclü ordusu var və təcavüzkar Ermənistanın hər bir addımına hazırdır. Onun təxribatlarına qarşı adekvat addımlar atılır və bundan sonra da atılacaq. Bütün bunlar nəzərə alınıb.

→ 8

## Hayastanda sensasion iddia: Paşinyan Bakıya gedir

Son günlər erməni siyasi ekspertlərin verdiyi açıqlamalar göstərir ki, Hayastanın rifahı, ümumiyyətlə, dövlət olaraq varlığı Azərbaycanla normal münasibətlərdən keçir. Buna görə də düşdükləri ağır durumdan xilas olmağın yollarını axtarırlar. Çünki artıq xaricdəki diaspor da onların imdadına çata bilmir.

Erməni politoloq Xaçik Qalstyan deyib ki, Paşinyan Prezident İlham Əliyevin dəvətini qəbul edərək, COP29-da iştirak üçün Bakıya gedərsə, Azərbaycanın Minsk qrupunun ləğv edilməsi üçün birgə bəyanatın verilməsi ilə bağlı istəyini yerinə yetirəcək. O, Bakıya getməmişdən öncə bu haqda açıqlama verəcək.

Qalstyan bildirib ki, Bakının sülh sazişini imzalamaq üçün İrəvandan iki məsələni tələb etdiyi artıq məlumdur: "Bunlardan biri Hayastan konstitusiyasının dəyişdirilməsi, digəri isə Minsk qrupunun buraxılması ilə bağlıdır. Ermənistan yaxın vaxtlarda Bakının Minsk qrupu ilə bağlı tələbini icra edəcək və bu formatın de-yure ləğvi haqda ərizə verəcək. Xarici İşlər Nazirliyinin son açıqlaması da bunu deməyə əsas verir. Paşinyan noyabrda keçiriləcək COP29 tədbirində iştirak üçün Bakıya yola düşə bilər, ona qədər isə Əliyevin tələblərini icra edəcək".

→ 8

## Ekoloji tarazlıq bəşəriyyətin xilasıdır



Bəşəriyyətin həyat tərzinin normal saxlanılmasında başlıca amil havanın zəhərli birləşmələrin təsirindən mühafizəsi, Tanrının bəxş etdiyi mühitin saflığının, təmizliyinin qorunmasıdır. Sənayenin əksər sahələrinin sürətlə inkişafı nəticəsində ətrafa atqıların çoxalması nəticəsində biosferin daim çirklənməsi, bunun təhlükəli ekoloji problemə çevrilməsi və həlli yollarının elmi əsaslarla axtarılması və tapılması bu gün bütün alimləri ciddi düşünməyə vadar edir. Çünki ekoloji problemin həlli üçün birmənalı yekdil proqram və ya yanaşma hələlik öz yerini tutmayıb.

İnsanlar təbiətin sabit qanunlarına qarşı çıxaraq təbii sərvətlərdən şüurlu-şüursuz halda səmərəsiz istifadə etməklə ətraf mühitin çirklənməsinə gətirib cıxarırlar. Təbii sərvətlərin səmərəsiz istismarı nəticəsində təbiət üçün böyük bəla olan tullantıların gündən-günə artmasının şahidi oluruq.

→ 7

## Mehriban xanım hər zaman Prezident İlham Əliyevin ən böyük mənəvi, siyasi dəstəkçisi olub

### Özbəkistan mətbuatında birinci xanım Mehriban Əliyevaya həsr edilmiş məqalə dərc olunub







Azərbaycanın Özbəkistandakı səfirliyinin təşəbbüsü ilə Özbəkistan mətbuatında ölkəmizin Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevaya həsr edilmiş məqalə işıq üzü görüb.

Mədəniyyət Mərkəzindən AZƏRTAC-a bildirilib ki, müəllifi Azərbaycanın Xalq yazıçısı, tanınmış jurnalist Elmira Axundova olan məqalə özbək və rus dillərində ölkənin aparıcı "UzA" Milli İnformasiya Agentliyində, "aniq.uz", "uzdiplomat.uz", **www.kultura.uz** portallarında dərc edilib.

"Uki, kimgadir ortig'i bilan berilgay..." ("Ta, komu mnoqoe dano...") adlı məqalədə Birinci vitse-prezident Mehriban xanım Əliyeva haqqında ən səmimi fikirlər, ülvi hisslər yer alıb. Yazıda birinci xanım Mehriban Əliyevanın ölkəmizin sosial, mədəni, ictimai, siyasi həyatında oynadığı aparıcı roldan söz açılır. Bildirilir ki, Mehriban xanımın təşəbbüsü ilə Heydər Əliyev Fondu tərəfindən Azərbaycanda hər il onlarla uşaq bağçası, körpələr evi, internat məktəbi, xəstəxana və s. bərpa olunaraq istifadəyə verilir. Bundan əlavə, Azərbaycanda uşaq evlərinin və sığınacaqların institusionallaşdırılması, valideyn himayəsindən məhrum olmuş uşaqların tamhüquqlu ailələrə verilməsi hərəkatı başlayıb. Birinci xanım əhalinin ən həssas təbəqələrinə, ilk növbədə xəstə uşaqlara, eləcə də sosial müdafiədən, valideyn himayəsindən və qayğısından məhrum olan balaca uşaqlara kömək etməyi özünün vətəndaşlıq borcu hesab edir.

Məqalədə o da vurğulanıb ki, Heydər Əliyev Fondunun xeyriyyə təşəbbüslərinin əks-sədası Azərbaycanın hüdudlarından çox-çox uzaqlara da yayılır. Fondun müxtəlif ölkələrdə gördüyü xeyirxah işlər həmin ölkələrin tarixinə, vətəndaşlarının qəlbinə əbədi olaraq yazılacaq.

Yazıda həmçinin ölkəmizin mədəni-ictimai, idman həyatında Mehriban xanım Əliyevanın xidmətlərindən də söz açılır. Qeyd edilir ki, Mehriban xanım Əliyevanın fəaliyyəti təkcə regional deyil, həm də qlobal miqyas alıb. Məhz onun təşəbbüsü ilə Azərbaycan muğamı və dünyanın ən qədim tarixi-arxeoloji qoruğu olan Qobustan yaşayış məskəni, aşıq sənəti və Azərbaycan kəlağayısı, Novruz bayramı və milli atüstü oyun olan çövkən dünya qeyri-maddi mədəni irs siyahısına salınıb.

Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın ölkəmizdə idmanın inkişafındakı xidmətlərindən söz açılarkən qeyd olunub ki, Avropada idmanın inkişafında xüsusi xidmətlərindəki yüksək nailiyyətlərinə görə ona Avropa Olimpiya Komitələrinin ali mükafatı - Ali orden təqdim edilib. Oxucuların diqqətinə çatdırılıb ki, Azərbaycanda mədəniyyətin, təhsilin, səhiyyənin və idmanın inkişafında səmərəli fəaliyyət, xalqımızın mədəni irsinin beynəlxalq səviyyədə geniş təbliği və Birinci Avropa Oyunlarının təşkilindəki xidmətlərinə, yarışlarda əldə edilmiş böyük nailiyyətlərə görə isə Mehriban xanım Əliyeva "Heydər Əliyev" ordeni ilə təltif olunub.

Eyni zamanda bildirilib ki, Azərbaycan xalqının, dövlətinin, dövlətimizin başçısının ən çətin, gərgin günlərində Mehriban xanım hər zaman xalqla həmrəylik nümayiş etdirib, Prezident İlham Əliyevin ən böyük mənəvi, siyasi dəstəkçisi olub.

İşğaldan azad olunun torpaqlarımızda aparılan quruculuq işlərində də Mehriban xanımın böyük xidmətlərinin olduğu vurğulanan məqalədə diqqətə çatdırılıb ki, Qələbədən qısa müddət sonra həmin ərazilərdə Böyük qayıdış və genişmiqyaslı bərpa-quruculuq işləri başlayıb. Bu prosesə rəhbərliyi Prezident İlham Əliyevlə birlikdə birinci xanım Mehriban Əliyeva da edir. Qarabağın bərpa edilmiş hər bir abidəsində, hər bir məscid və ya muzey kompleksində birinci xanıma xas olan incə zövq və heyrətamiz zəriflik hissi sezilir.




# COP29 ilə əlaqədar Təşkilat Komitəsinin altıncı iclası keçirilib



























**Avqustun 16-da BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) keçirilməsi ilə əlaqədar Təşkilat Komitəsinin altıncı iclası keçirilib.**

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının rəhbəri, Təşkilat Komitəsinin sədri Samir Nuriyev Prezident İlham Əliyevin rəhbərliyi ilə COP29-a hazırlıq prosesinin bütün istiqamətlərdə davam etdiyini bildirib.

Təşkilat Komitəsinin sədri Prezident İlham Əliyevin iyulun 20-də 2-ci Şuşa Qlobal Media Forumunda COP29-la bağlı vacib tezislər səsləndirdiyini, dövlətimizin başçısının yanaşmasının inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr arasında körpülərin qurulmasından ibarət olduğunu vurğulayıb.

Prezident Administrasiyasının rəhbəri Prezident İlham Əliyevin COP29 gündəliyimizi proqnozlaşdırılabilən, aydın məqsədlərə və nəticələrə köklənmiş gündəlik kimi xarakterizə etməsinə diqqət çəkərək dövlət qurumlarının, COP29 heyətinin bundan sonra da var gücü ilə çalışmasının vacibliyini vurğulayıb.

Samir Nuriyev noyabrın 12-13-də keçiriləcək Liderlər Sammitinə BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının tərəflərinə dəvətlər ilə bağlı tam inklüzivliyin təmin edildiyini bildirib.

Təşkilat Komitəsinin sədri Azərbaycanın inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr arasında yeni maliyyə hədəfi üzrə mövcud fikir ayrılıqlarının aradan qaldırılması üçün səmimi səylər göstərdiyini və bu xüsusda iyulun 26-27-də müxtəlif ölkələrin nümayəndə heyətlərinin rəhbərləri səviyyəsində Şamaxıda qeyri-rəsmi məsləhətləşmələr kimi innovativ format təşkil etdiyini diqqətə çatdırıb.

Samir Nuriyev bildirib ki, Azərbaycan Hökuməti ilə BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Katibliyi arasında imzalanacaq "Ev Sahibi Ölkə" Sazişinin yekun mətni tam razılaşdırılıb.

Təşkilat Komitəsinin sədri Azərbaycanın COP29 təşəbbüslərinin geniş ictimaiyyətə açıqlandığını, COP atəşkəsi və İqlim Maliyyəsi üzrə Fəaliyyət Fondunun yaradılması təşəbbüslərinin beynəlxalq müstəvidə daha çox diqqət çəkdiyini bildirib.

Samir Nuriyev Azərbaycan tərəfindən inkişaf etməkdə kiçik ada ölkələri üçün Texniki Yardım Fondunun yaradılmasına, "Azərkosmos" tərəfindən kiçik ada ölkələrində iqlim dəyişmələri üzrə layihələrin həyata keçirilməsinə dair anlaşma memorandumlarının avqust ayının sonlarında Millətlər Birliyi (Commonwealth) təşkilatı ilə imzalanacağı barədə məlumat verib.

COP29 Beynəlxalq Məşvərət Komitəsinin və COP 29 Elm Şurasının iclaslarına toxunan Samir Nuriyev hər iki təsisatın imkanlarından maksimum dərəcədə faydalanmağın vacibliyini qeyd edib.

Ekologiya və təbii sərvətlər naziri, COP29-un müəyyən edilmiş prezidenti Muxtar Babayev COP29-la bağlı ümumi gedişat, müxtəlif ölkələrin nümayəndə heyətlərinin rəhbərləri səviyyəsində iyulun sonlarında Şamaxıda keçirilmiş qeyri-rəsmi məsləhətləşmələr, COP29 komandasının nəzərdə tutulan xarici səfərləri barədə məlumat verib.

Azərbaycan Respublikası Prezidentinin Protokol xidmətinin rəisi Arif Səmədov COP29 çərçivəsində Liderlər Sammitinə hazırlıq barədə çıxış edib.

Daxili işlər naziri Vilayət Eyvazov COP29 zamanı ictimai təhlükəsizliyin təmin edilməsi tədbirləri barədə danışıb və bütün zəruri tədbirlərin həyata keçirildiyini deyib.

Rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev COP29 zamanı nəqliyyatın təşkili, o cümlədən hava limanlarının qəbul imkanları barədə çıxış edib.

Sonra COP29-un iqlim üzrə yüksəksəviyyəli çempionu Nigar Arpadarainin COP29-un iqlim üzrə yüksəksəviyyəli çempionunun fəaliyyəti barədə çıxışı dinlənilib. Dövlət Sərhəd Xidmətinin rəisi Elçin Quliyev COP29-la əlaqədar dövlət sərhədindən buraxılış məntəqələrinin fəaliyyəti barədə məlumat verib.

COP29 Azərbaycan Əməliyyat Şirkətinin İdarə Heyətinin sədri Nərmin Carçalova təşkilati-logistika məsələləri, Bakı Olimpiya Stadionunda aparılan işlər, "Mavi" və "Yaşıl" zonalar və orada tədbirlərin, pavilyonların təşkili barədə danışıb.

Gənclərin Gender Bərabərliyi Mərkəzi "Gender Hub" İctimai Birliyinin sədri Məryəm Məcidova qeyri-hökumət təşkilatlarının COP29-la bağlı fəaliyyəti barədə məlumat verib.

İclasın sonunda COP29 Tədbirlər Planının icrası və digər aidiyyəti məsələlər üzrə tapşırıqlar verilib.

# Naxçıvanda "Ekoloji su hüquqpozmalarının iqlim dəyişikliyinə təkan verməsi" mövzusunda elmi-praktiki konfrans olub

**Avqustun 16-da Naxçıvan Dövlət Universitetinin Beynəlxalq Məktəbində "Ətraf mühitin gücləndirilməsi: Maarifləndirmə və hüquq-mühafizə tədbirlərinin rolu" ECOLEAD layihəsi çərçivəsində "Ekoloji su hüquqpozmalarının iqlim dəyişikliyinə təkan verməsi" mövzusunda elmi-praktiki konfrans keçirilib.**

Konfransda Azərbaycan Respublikasının baş prokuroru Kamran Əliyev və Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli və digər şəxslər iştirak ediblər.

Tədbir başlamazdan öncə Ulu Öndər Heydər Əliyev və vətənimizin azadlığı uğrunda canlarını qurban verən şəhidlərimizin əziz xatirəsi konfrans iştirakçıları tərəfindən birdəqiqəlik sükutla yad olunub, Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Konfrans iştirakçılarını salamlayan baş prokuror Kamran Əliyev qeyd edib ki, Ulu Öndər Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkəmiz beynəlxalq miqyasda nüfuzunu gücləndirir, eləcə də ölkəmizdə iri layihələrin sürətlə icrası davam etdirilir.

Qarabağ və digər ərazilərimizdə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi və Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın yaxından iştirakı ilə aparılan titanik layihələrə toxunan baş prokuror işğaldan azad olunan şəhər və kəndlərimizin yenidən qurulduğunu diqqətə çatdırıb.

Vurğulanıb ki, bu il BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası - COP29 kimi mötəbər bir tədbirin Azərbaycan Respublikasında keçirilməsi ölkəmizin tarixinə qızıl hərflərlə yazılacaq.




Ermənistanın ölkəmizə qarşı həyata keçirdiyi işğalçı siyasətin acı nəticələrindən birinin ölkəmizin su ehtiyatlarının yararsız vəziyyətə gətirilməsi olduğuna diqqət çəkən baş prokuror bunun nəticəsində Azərbaycan əhalisinin illərdir Qarabağda olan zəngin su ehtiyatlarından məhrum qaldığını vurğulayıb. Bundan başqa, "BMT-nin Transsərhəd kontekstində ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında 1991-ci il Konvensiyası (ESPO), "Sərhəddən keçən su axınlarının və beynəlxalq göllərin mühafizəsi və istifadəsi haqqında" BMT-nin 1992-ci il tarixli Konvensiyası, eləcə də həmin konvensiyanın "Su və sağlamlıq haqqında" 1999-cu il 17 iyun tarixli protokollarından irəli gələn öhdəliklərin Ermənistan tərəfindən kobud şəkildə pozulması xüsusi qeyd olunub.

Elmi-praktiki konfransda çıxış edən Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli Ermənistan tərəfindən metalların zəhərli tullantılarının həm Araz çayına, həm də "Şir arxı"na axıdılmasının burada olan yüzlərlə köçəri quş və balığın məhvilə nəticələndiyini, Araz çayının Ermənistan tərəfindən çirkləndirilməsinin bu gün də davam etdiyini və bunun Arazqırağı ərazilərdə fauna və floranın məhvinə səbəb olmasını qeyd edib.

Konfransda baş prokurorun müavini Heydər Məmmədov, Baş Prokurorluğun Cinayət təqibindən kənar icraatlar idarəsinin rəisi Elnur Musayev, Naxçıvan Muxtar Respublikasının prokuroru Sənan Paşayev, ekologiya və təbii sərvətlər nazirinin müavini Vüqar Kərimov, Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin Regional Su Meliorasiya Xidmətinin rəisi Zakir Quliyev, Azərbaycan Respublikası elm və təhsil nazirliyi aparatının rəhbəri Mətin Kərimli, Naxçıvan Muxtar Respublikasının ekologiya və təbii sərvətlər naziri Xanlar Mustafayev, Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev, Bakı Dövlət Universitetinin Elm və innovasiyalar üzrə prorektoru Hüseyn Məmmədov, Baş Prokurorluğun idarə prokuroru Elşad Ağayev tərəfindən çıxışlar edilib və mövzu ətrafında səmərəli müzakirələr aparılıb.

Daha sonra konfrans iştirakçıları tərəfindən "Azərbaycan Respublikasında ekoloji siyasətə dair" və "Azərbaycan Respublikasında ekoloji hüquqpozmalara qarşı mübarizə" mövzularında videoçarxlar izlənilib.

Sonda Baş Prokurorluq, Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Bakı Dövlət Universiteti arasında qarşılıqlı əməkdaşlıq barədə anlaşma memorandumuna uyğun olaraq təsis edilmiş "Maarifləndirmə və hüquq-mühafizə tədbirləri yolu ilə ətraf mühitin gücləndirilməsi" (ECOLEAD) layihəsinə Naxçıvan Dövlət Universitetinin tərəfdaş qismində qoşulmasına dair sənəd imzalanıb.



# MƏRKƏZİ SEÇKİ KOMİSSİYASINDA

# Mərkəzi Seçki Komissiyasının növbəti iclası keçirilib

Avqustun 16-da Məzahir Pənahovun sədrliyi ilə Mərkəzi Seçki Komissiyasının (MSK) növbəti iclası keçirilib.

AZƏRTAC xəbər verir ki, əvvəlcə komissiyanın avqustun 10-da və 12-də keçirilən iclaslarının protokolları təsdiq edilib.

Sonra 2024-cü il sentyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə "exit-poll" keçirmək niyyəti ilə daha bir qurumun - "Sosioloji Tədqiqatlar Mərkəzi"nin qanunvericiliklə müəyyənləşdirilmiş müddətdə və qaydada Mərkəzi Seçki Komissiyasına ünvanlanan müraciətinə baxılıb. Komissiya üzvlərinin



müzakirəsindən sonra sözügedən qurumun müraciəti təmin olunub və Milli Məclisə seçkilərdə "exit-poll" keçirmək üçün qeydə alınıb.

Daha sonra iclasda 36 saylı Xətai-Suraxanı seçki dairəsi dairə seçki komissiyasının tərkibində dəyişiklik edilib.

Beynəlxalq müşahidə missiyası təmsilçiləri, məşvərətçi səs hüquqlu komissiya üzvü, xüsusi icazə almış müşahidəçi, habelə media subyektləri nümayəndələrinin bilavasitə iştirakı ilə keçirilən iclasda, həmçinin Milli Məclisə seçkilərə hazırlıqların gedişi, intensiv şəkildə davam edən irimiqyaslı layihələr barədə ətraflı məlumat verilib və cari məsələlərə baxılıb.

## QƏRAR № 31/148

### Mərkəzi Seçki Komissiyasının 2024-cü il 10 avqust və 12 avqust tarixli iclas protokollarının təsdiq edilməsi barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci və 28.4-cü maddələrinə uyğun olaraq **qərara alır:**

Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının 2024-cü il 10 avqust və 12 avqust tarixli iclaslarının protokolları təsdiq edilsin.

**Sədr Məzahir Pənahov**
**Katib Arifə Muxtarova**
**Katib Mikayıl Rəhimov**

*16.08.2024*

## QƏRAR № 31/150

### Bəzi dairə seçki komissiyalarının tərkibində dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci, 28.4-cü və 30-cu maddələrinə uyğun olaraq **qərara alır:**

Vüsal Oktay oğlu Həsənov 36 saylı Xətai-Suraxanı seçki dairəsi dairə seçki komissiyasının həlledici səs hüquqlu üzvü təyin edilsin.

**Sədr Məzahir Pənahov**
**Katib Arifə Muxtarova**
**Katib Mikayıl Rəhimov**

*16.08.2024*

## QƏRAR № 31/149

### 2024-cü il sentyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə səsvermə günü "Sosioloji Tədqiqatlar Mərkəzi"nin "exit-poll" keçirəcək qurum kimi qeydə alınması barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

"Sosioloji Tədqiqatlar Mərkəzi" Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (bundan sonra - Mərkəzi Seçki Komissiyası) müraciət edərək, 2024-cü il sentyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə səsvermə günü "exit-poll" keçirmək niyyətində olduğunu bildirmiş və bu məqsədlə qeydə alınmasını xahiş etmişdir.

Müraciət akkreditasiya üçün zəruri olan sənədlərlə birlikdə Mərkəzi Seçki Komissiyasına təqdim edilmiş, komissiya "Azərbaycan Respublikasında seçkilərdə "exit-poll" keçirən təşkilatların akkreditasiyası Qaydaları"nda nəzərdə tutulmuş müddətdə və qaydada müvafiq araşdırma aparmış, həmin təşkilatın səsvermə günü "exit-poll" keçirəcək qurum kimi qeydə alınması üçün hüquqi əsasların olmasını müəyyən etmişdir.

Beləliklə, "Sosioloji Tədqiqatlar Mərkəzi"nin akkreditasiyadan keçmək barədə müraciəti təmin olunmalı, səsvermə günü "exit-poll" keçirəcək qurum kimi qeydə alınmalıdır.

Mərkəzi Seçki Komissiyası yuxarıda qeyd edilənləri əsas götürərək, Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 25.2.23-cü, 28.2-ci, 28.4-cü maddələrinə və "Azərbaycan Respublikasında seçkilərdə "exit-poll" keçirən təşkilatların akkreditasiyası Qaydaları"nın 2.3-cü bəndinə əsasən **qərara alır:**

1. "Sosioloji Tədqiqatlar Mərkəzi"nin müraciəti təmin edilsin və 2024-cü il sentyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə səsvermə günü "exit-poll" keçirəcək qurum kimi qeydə alınsın.
2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr Məzahir Pənahov**
**Katib Arifə Muxtarova**
**Katib Mikayıl Rəhimov**

*16.08.2024*

# Milli Məclisə növbədənkənar seçkilərlə əlaqədar Penitensiar xidmətdə seminar-müşavirə olub





Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərlə əlaqədar avqustun 16-da Ədliyyə Nazirliyinin Penitensiar xidmətində seminar-müşavirə keçirilib.

AZƏRTAC xəbər verir ki, Penitensiar xidmətin rəhbərliyinin, Mərkəzi Seçki Komissiyasının nümayəndələrinin, xidmətin Baş idarəsinin məsul əməkdaşlarının, cəzaçəkmə müəssisələrinin və istintaq təcridxanalarının rəislərinin, Mühafizə alayı və Konvoy taborunun komandirlərinin, habelə həmin qurumların yerləşdiyi ərazilər üzrə müvafiq seçki dairələri dairə seçki komissiyalarının sədrlərinin və media təmsilçilərinin iştirak etdikləri tədbir penitensiar müəssisələrdə seçkilərin təşkili və səsvermənin keçirilməsinə həsr olunub.

Seminar-müşavirəni açan ədliyyə nazirinin müavini, Penitensiar xidmətin rəisi ədliyyə general-mayoru Mirsaleh Seyidov Azərbaycanın seçki qanunvericiliyinin vətəndaşlarımızın konstitusion hüquqlarının azad şəkildə reallaşdırılmasına tam təminat verdiyini vurğulayıb. Nazir müavini xidmətin tabe qurumlarında səsvermənin yüksək səviyyədə təşkil olunması və şəffaf keçirilməsi istiqamətində ədliyyə naziri Fərid Əhmədovun tapşırıq və tövsiyələrini diqqətə çatdırıb, səsvermə yerlərinin qanunvericiliyin tələblərinə uyğun hazırlanması işlərinin həyata keçirildiyini bildirib. Xidmət rəisi qeyd edib ki, ölkə üzrə bütün digər seçki məntəqələrində olduğu kimi, tabe qurumlarda da əlverişli seçki mühiti yaradılıb.

Mərkəzi Seçki Komissiyasının katibi Arifə Muxtarova çıxışında Konstitusiyanın və Seçki Məcəlləsinin seçki hüququ ilə bağlı müvafiq müddəalarından bəhs edib, cəzaçəkmə müəssisələrində və istintaq təcridxanalarında olan seçicilərin qanunvericiliklə müəyyənləşdirilmiş səsvermə hüquqlarından danışıb. Həmçinin bildirib ki, bütün proseslər seçki qanunvericiliyinin tələbləri və Mərkəzi Seçki Komissiyası tərəfindən hazırlanıb təsdiqlənmiş təqvim planı əsasında müvəffəqiyyətlə davam edir.

Mərkəzi Seçki Komissiyası Katibliyinin şöbə müdiri Ramin Nurəliyev seçkilərin azad, ədalətli və şəffaf keçirilməsi istiqamətində atılan addımlar barədə məlumat verib, seçki məntəqələrinin səsverməyə hazırlanması, səsvermə prosesi, seçki günü müstəsna hallar, səslərin sayılması və səsvermənin nəticələri haqqında rəsmi protokolların doldurulması da daxil olmaqla, bütün prosedurları aydın və ətraflı izah edib.

Seminar-müşavirənin sonunda mövzular ətrafında fikir mübadiləsi və müzakirələr aparılıb, iştirakçıların sualları cavablandırılıb.

# Səsvermənin Azərbaycanın bütün suveren ərazilərində keçirilməsi əlamətdar hadisədir




"Növbədənkənar parlament seçkilərinin əsas xüsusiyyətlərindən biri odur ki, səsvermə prosesi ərazilərin işğaldan azad olmasından sonra keçirilir və suveren Azərbaycanın bütün ərazilərini əhatə edir".

Bunu "Seçki 2024" Müstəqil Media Mərkəzinə açıqlamasında Rusiya Federasiyasının Siyasi Tədqiqatlar İnsitutunun direktor müavini, politoloq Darya Grevtsova bildirib.

Ekspert qeyd edib ki, seçkilərin Azərbaycanın bütün suveren ərazisində keçirilməsi çox əlamətdar hadisədir: "Yeni parlamentdə bütün bölgələrdən deputatlar təmsil olunacaq. Bu cür tam təmsilçilik dövlətə ölkənin inkişafı ilə bağlı baxışını parlamentlə razılaşdırmağa və onun siyasətində zəruri prioritetləri müəyyən etməyə kömək edəcək. Seçkilərin yüksək səviyyədə, yaxşı təşkil olunmuş və Azərbaycan qanunvericiliyi çərçivəsində keçiriləcəyinə şübhəm yoxdur. Seçkilərdə müxtəlif partiyalar təmsil olunur, yerli və beynəlxalq müşahidəçilər isə seçki prosedurunun legitimliyini və şəffaflığını qiymətləndirəcək", - deyə Darya Grevtsova fikrini yekunlaşdırıb.

# 70 saylı Neftçala seçki dairəsində seçkilərə hazırlıq təqvim planına uyğun gedir

70 saylı Neftçala seçki dairəsi üzrə sentyabrın 1-də Milli Məclisə keçiriləcək növbədənkənar seçkilərə hazırlıq işləri təqvim planına uyğun olaraq aparılır.

Dairə 49 məntəqəni birləşdirir və seçicilərin bu seçkilərdə fəal, sərbəst, azad şəkildə iştirak etməsi, öz səsini istədiyi namizədə verməsi üçün məntəqələrin hər birində lazımi şərait yaradılmışdır. Dairənin bütün məntəqələri üzrə ilk dəfə səs verənlərin ümumi sayı 500 nəfərdən çoxdur. Ən yaşlı seçici isə 2 nəfərdir. Onlardan biri rayonun Həsənabad qəsəbəsində yaşayan İbrahim Əhmədov, digəri isə Şirvanlı kənd sakini Safura Axundovadır. Hər ikisinin 100 yaşı var.

Dairə üzrə 10 nəfərin namizədliyi qeydə alınmışdır. Onlardan 1 nəfəri Yeni Azərbaycan, 1 nəfəri Vətəndaş Həmrəyliyi, 1 nəfəri Klassik Xalq Cəbhəsi, 1 nəfəri Azərbaycan Xalq partiyaları tərəfindən namizəd göstərilənlər, qalan 6 nəfər isə namizədliklərini öz təşəbbüsləri ilə irəli sürənlərdir.





DSK-da avqustun 12-16-sı arasında məntəqələrin qurulması, məntəqə üzvlərinin vəzifələri, protokolların yazılması qaydası, müşahidəçilərlə iş mövzusunda monitorinqlər keçirilmişdir.

Seçkilərin gedişini izləmək üçün 5 məntəqədə veb-kamera quraşdırılıb. Hazırda təşviqat mərhələsidir. Bununla əlaqədar Neftçala Rayon İcra Hakimiyyəti başçısının müvafiq sərəncamı ilə 18-i qapalı, 16-sı açıq şəraitdə olan yerlər ayrılmışdır. Hər bir məntəqənin qarşısındakı xüsusi lövhədə namizədlərin şəkilləri, platformaları asılmışdır. Hazırlıq işlərinə daha yaxından bələd olmaq üçün bir neçə məntəqədə olduq. 3 saylı məntəqə Neftçala şəhərinin mərkəzindəki Azərbaycanın Milli Qəhrəmanı Xanoğlan Məmmədovun adını daşıyan Mədəniyyət sarayında yerləşir. Məntəqənin girişindən seçkilərə hazırlığın vəziyyəti barədə aydın təsəvvür yaranır. Binaya daxil oluruq. Məntəqənin sədri Cahangir Abdullayevlə görüşüb seçkilərə hazırlığın vəziyyəti ilə maraqlanırıq. C. Abdullayev görülən işlər haqqında məlumat verir. Giriş qapısından azca aralıda lövhələrdəki seçici siyahısını müşahidə edirik. Onun yanındakı kiçik masanın üstündə seçicilərin barmağının yoxlanılması, rəngsiz mürəkkəb vurulması üçün avadanlıqlar qoyulmuşdur. Sədr deyir ki, məntəqə üzvlərindən biri bu işi həyata keçirəcək. Bir az aralıda səsvermə kabinələridir. Məntəqəyə daşınmaz qutularla yanaşı, daşınan qutu da gətirilib ki, seçki günü hər hansı səbəbdən məntəqəyə gedə bilməyən seçicilərin səsverməsi təmin olunsun.

Sədr seçki günü heç bir texniki çətinliyin olmayacağını, bunun üçün bütün tədbirlərin görüldüyünü - telefon xəttinin çəkildiyini, məntəqənin alternativ işıq mənbəyi, seyf və digər ləvazimatlarla təchiz olunduğunu dedi, seçki gününə xeyli gün qalsa da, məntəqə üzvlərinin tərtib edilmiş növbətçilik cədvəlinə ciddi əməl etmələrini bildirdi. Məntəqədə namizədlər, KİV və QHT, habelə sərbəst müşahidəçilər üçün xüsusi yerlər ayrıldığını da deyən sədr əlavə etdi ki, seçkilərin azad, demokratik və şəffaf şəraitdə keçiriləcəyinə şübhə etmirlər.

***Seyran CAVADOV,***
***"Azərbaycan"***

# Qəbələdə məntəqə seçki komissiyalarının üzvləri üçün treninqlər başa çatıb

Sentyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərə hazırlıqla əlaqədar 116 saylı Qəbələ seçki dairəsində aşağı seçki komissiyalarının üzvləri üçün səsvermə günü prosedurları ilə bağlı maarifləndirici treninqlər başa çatıb.

Dairə seçki komissiyasının sədri Zülfüqar Cəfərov AZƏRTAC-a bildirib ki, avqustun 12-də başlayan və beş gün davam edən treninqlərə dairənin tərkibində olan 59 seçki məntəqəsinin sədr, katib və komissiya üzvləri olmaqla, ümumilikdə 354 nəfər cəlb olunub. Məşğələləri Mərkəzi Seçki Komissiyası (MSK) tərəfindən təşkil olunan təlim kursunda iştirak etmiş Aqil Kərimov və Xalidə Rəsulova aparıblar.

Təlim prosesində iştirakçılara MSK tərəfindən tərtib edilmiş xüsusi proqram və slaydların köməyi ilə məntəqə seçki komissiyası üzvlərinin rol və vəzifələri, seçki günü prosesləri və müstəsna hallar, səslərin hesablanmasına hazırlıq, seçki bülletenlərinin təsnifatı, səslərin hesablanması, yekun protokolun doldurulması və digər məsələlər barədə metodiki məlumatlar verilib. Diqqətə çatdırılıb ki, seçkilərin şəffaf keçirilməsi məntəqə seçki komissiyaları üzvlərinin peşəkarlıq səviyyəsindən çox asılıdır. Ona görə də komissiya üzvləri öz peşəkarlıq səviyyəsini, bilik və bacarıqlarını daha da artırmalı, seçki günü üzərilərinə düşən vəzifələri dəqiq bilməli və layiqincə yerinə yetirməlidirlər.

Dairə seçki komissiyası sədrinin məlumatına görə, bu dairə üzrə Milli Məclisə yeganə mandat uğrunda 10 namizəd mübarizə aparır. Onlardan ikisi müxtəlif siyasi partiyaları təmsil edir. Səkkiz nəfərin namizədliyi isə öz təşəbbüsləri ilə irəli sürülüb. Dairə üzrə indiyədək 650 nəfər yerli müşahidəçi qeydiyyatdan keçib. Seçicilərin ümumi sayı 54 mindən yuxarıdır. Onlardan 788 nəfəri 80-100 yaş arasındadır. 550 gənc isə bu seçkilərdə ilk dəfə səs verəcək.



# Milli Məclisə seçkilərə 14 gün qaldı

◆ Qarabağdan reportaj

**İşğaldan azad edilmiş ərazilərimiz sözün əsl mənasında böyük inşaat meydanını xatırladır. Bütün şəhər və rayonlarımız bərpa edilir, bir daha qurulur, onlara yeni həyat verilir və keçmiş məcburi köçkünlər tədricən doğma yurdlarına geri qayıdırlar. Böyük qayıdışın ünvanlarından biri də üzləşdiyi soyqırımı faciələri ilə tariximizdə dərin iz buraxmış Xocalı rayonudur.**





# Azad Xocalıda zəfər seçkisi

## Xocalılılar doğma yurdlarında ilk dəfə parlament seçkilərində iştirak edəcəklər

### Abad küçələr, yaraşıqlı evlər...

Növbədənkənar parlament seçkilərinə hazırlığın gedişatı ilə yaxından tanışlıq üçün 118 saylı Ağdam-Xocalı seçki dairəsinin Xocalı rayonunu əhatə edən seçki məntəqələrinə baş çəkərkən Xocalı şəhərinin özünü də görmək imkanı əldə etdik.

Ermənistan tərəfindən xalqımıza qarşı ən böyük soyqırımı cinayətinin törədildiyi, şəhidlərin qanı ilə müqəddəsləşən bu şəhər indi özünün yeni həyatını yaşayır. Torpaqlarımızda erməni separatizminə son qoyulmasından sonra Prezident İlham Əliyevin göstərişi ilə yenidən qurulan şəhərdə qısa müddətdə xeyli iş görülüb və bu il may ayının 28-də ilk 20 ailə Xocalıya qayıdıb. Həmin gün Prezident İlham Əliyevin, birinci xanım Mehriban Əliyevanın və qızları Arzu Əliyevanın Xocalı şəhərinə köçən sakinlərlə görüşü Böyük qayıdışın yaddaqalan hadisələrindən birinə çevrildi.

Xocalı şəhərinə ilk qayıdış köçünün Azərbaycanın Müstəqillik Günündə baş tutmasının da rəmzi mənası var. Bu qayıdışla həm də Xocalı şəhidlərinin, soyqırımı qurbanı olmuş bütün soydaşlarımızın qisası alındı. İndi onların ruhu rahatdır.

Qeyd edək ki, 32 ilə yaxın işğal dövründə ermənilər digər şəhər və kəndlərimiz kimi, Xocalı şəhərində də barbarlıq etmişdilər. Antiterror tədbirlərindən sonra Prezident İlham Əliyevin göstərişi ilə bərpa olunan şəhər təkcə Qarabağın deyil, respublikamızın ən gözəl yaşayış ünvanlarından birinə çevrilir. İndi Xocalının abad küçələrini, üzərində üçrəngli bayrağımız dalğalanan inzibati binalarını və yaraşıqlı yaşayış evlərini görmək həqiqətən qürurvericidir.

### Şəhərə 44 ailə qayıdıb

Xocalının yenidən qurulması üzrə birinci mərhələ 167 hektar və 18 hektar əraziləri əhatə etməklə iki hissədən ibarətdir. Birinci mərhələdə 167 hektar ərazidə 140 fərdi ev, 48 kottec tipli ev və 9 binadan ibarət 110 evdə tikinti, təmir-bərpa və abadlıq işləri görülür. Bütün kommunikasiya xətləri yerin altına salınıb, şəhər üzrə bu işlərin böyük hissəsi icra edilib. Həmçinin 18 hektar ərazidə yerləşən fin tipli 92 evdə tikinti, təmir-bərpa və abadlıq işləri həyata keçirilir. Bunlardan əlavə, Xocalı şəhərinin girişində - çay kənarında bulvarın salınması işləri davam edir. Bulvar ilə üzbəüz isə çarşı-bazar qurulur, iaşə obyektləri tikilir. Şəhərdə orta təhsil müəssisəsi və uşaq bağçası da inşa olunub. Məktəbin qarşısında park, onun yanında isə sənətkarlar məhəlləsi salınıb. Bu il fevralın 26-da isə Prezident İlham Əliyevin iştirakı ilə Xocalı şəhərində Xocalı Soyqırımı Memorialının təməli qoyulub.

32 illik ayrılıqdan sonra Xocalı sakinləri öz doğma şəhərlərində yaşamağa başlayıblar. İndiyədək Xocalı şəhərində 44 ailənin, yəni 169 nəfərin daimi məskunlaşması təmin edilib və bərpa işləri tamamlandıqca köç edən şəhər sakinlərinin sayı da artacaq.

Xocalıda söhbətləşdiyimiz şəhər sakinləri doğma yurda qayıtdıqlarına, dövlət qayğısı ilə əhatə olunduqlarına görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya minnətdarlıqlarını bildirdilər, şəhidlərimizə rəhmət dilədilər. Torpaqlarımızı işğaldan azad edən qəhrəman əsgər və zabitlərimizə təşəkkürlərini ifadə etdilər, Vətən müharibəsində və antiterror tədbirlərində canlarından keçən şəhidlərimizə rəhmət, qazilərə şəfa dilədilər.

Xocalılılar 1992-ci ilin fevral ayının qarlı qış günündə soyqırımına məruz qalaraq, yüzlərlə şəhid verərək bu şəhəri tərk etmişdilər. Lakin hər birinin taleyində vaxtilə ağır iz buraxmış bu şəhərə ləyaqətlə qayıdıblar. Çünki doğmalarına, yaxınlarına qarşı soyqırımı faciəsi törədən düşmən üzərində qələbə çalaraq evlərinə dönüblər. Və bu torpaqların əzəli sahibi kimi bundan sonra əbədi olaraq Qarabağda, Xocalıda yaşayacaqlar. Ona görə söhbət etdiyimiz hər bir Xocalı sakini həm də qürurlu idi.






























### 73 saylı MnSK-nın ilk sınağı

Xocalı sakinləri üçün əlamətdar hadisələrdən biri də odur ki, onlar müstəqillik dövründə ilk dəfə olaraq doğma şəhərlərində parlament seçkisində iştirak edəcəklər. Ümumiyyətlə, növbədənkənar parlament seçkiləri Xocalı şəhər sakinlərinin doğma yurdlarında səs verəcəkləri ilk seçki olacaq. Şəhərdəki 73 saylı seçki məntəqəsinin ilk seçki sınağı da məhz parlament seçkiləridir.

Şəhərlə tanışlıqdan sonra yolumuzu 1 nömrəli tam orta məktəbin inzibati binasında yerləşən 73 saylı məntəqə seçki komissiyasından (MnSK) saldıq. MnSK-nin sədri Ceyhun Əbdülovun sözlərinə görə, Xocalı sakinlərinin ilk dəfə öz doğma şəhərlərində səs verə bilmələri, bütövlükdə isə seçkilərin Qarabağ və Şərqi Zəngəzurda təşkil olunması olduqca mühüm siyasi hadisədir. MnSK sədri qeyd etdi ki, 73 saylı seçki məntəqəsi Xocalı şəhərini əhatə edir və burada qısa müddətdə seçicilərə öz səsvermə hüquqlarından azad şəkildə istifadə etmələri üçün lazımi şərait yaradılıb. Bu seçki məntəqəsinin formalaşması həm də Xocalıda lazımi infrastrukturların yaradılmasından xəbər verir.

Parlament seçkilərinə hazırlığa gəldikdə Ceyhun Əbdülov dedi ki, bütün hazırlıq prosesi Mərkəzi Seçki Komissiyasının təsdiq etdiyi Təqvim Planına uyğun aparılıb. Seçicilərlə görüş üçün yerlər isə şəhərdəki 1 nömrəli məktəbin qarşısı və idman zalı müəyyənləşdirilib.

Onu da öyrənirik ki, bu seçki məntəqəsi üzrə ən yaşlı seçicinin 72 yaşı var. İki nəfər gənc isə həyatlarında ilk dəfə səs verəcəklər.

73 saylı MnSK-nın üzvlərinin siyasi mənsubiyyəti isə respublikamızda seçki komissiyalarının demokratik əsaslarla formalaşdırılmasının bariz nümunəsidir. Belə ki, bu MnSK-nın üzvlərindən 2 nəfər Yeni Azərbaycan Partiyasını, 1 nəfər Böyük Quruluş Partiyasını, 1 nəfər Vətəndaş Həmrəyliyi Partiyasını təmsil edir. Həmçinin 2 üzv bitərəfdir.

### Seçkilərin şəffaf və demokratik keçirilməsi üçün lazımi şərait yaradılıb

Xocalı rayonu üzrə daha iki seçki məntəqəsi fəaliyyət göstərir. Onlardan 71 saylı MnSK rayonun Təzəbinə kəndində yerləşir. Orta məktəbin binasında yerləşən seçki məntəqəsi MSK tərəfindən lazımi texniki avadanlıqla təmin edilib. Komissiyanın sədri Sovet Allahverdiyevin sözlərinə görə, parlament seçkilərinə hazırlıq öz axarı ilə davam edir, həmçninin MnSK üzvləri aşağı seçki komissiyaları üçün təşkil edilən treninqlərdə iştirak edirlər.

Xocalı rayonundakı 72 saylı seçki məntəqəsi isə Əsgəran qəsəbəsindəki uşaq bağçasının inzibati binasında fəaliyyət göstərir. Komissiyanın sədri Əliniyaz Nəcəfov dedi ki, seçki məntəqəsi üzrə seçkilərin ədalətli və şəffaf keçirilməsi üçün bütün lazımi şərait mövcuddur və demokratik standartlara uyğun seçki şəraiti tam təmin edilib. Bu seçki məntəqəsi üzrə iki gənc həyatında ilk dəfə səsvermədə iştirak edəcək, ən yaşlı seçicinin yaşı isə 60-dan yuxarıdır.

71 və 72 saylı MnSK-lar üzrə müşahidələrimiz onların tamamilə demokratik əsaslarla formalaşdırıldığını göstərdi. Belə ki, hər iki komissiyada 2 üzv Yeni Azərbaycan Partiyasını, 1 üzv Böyük Quruluş Partiyasını, 1 üzv isə Vətəndaş Həmrəyliyi Partiyasını təmsil edir. Hər məntəqənin 2 üzvü bitərəfdir.

Xocalı rayonundan yüksək təəssüratlarla ayrıldıq. Xüsusilə qeyd etməliyik ki, Böyük qayıdışın ünvanlarından biri olan Xocalı şəhəri burada müstəqillik illərində keçiriləcək ilk parlament seçkisinə tam hazırdır.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

*Bakı-Xocalı-Bakı*

# Baş prokuror Naxçıvanda vətəndaşlarla görüşüb

Azərbaycan Respublikasının baş prokuroru Kamran Əliyev Naxçıvan Muxtar Respublikası Prokurorluğunun inzibati binasında Naxçıvan şəhər, Babək, Culfa, Kəngərli, Ordubad, Sədərək, Şahbuz və Şərur rayonlarından olan vətəndaşların müraciətlərini dinləyib.



Görüşdə iştirak edən 41 nəfər vətəndaşın müraciətində konkret cinayət işlərinin istintaqı və törədilmiş cinayətlər barədə məlumatların araşdırılması zamanı yol verilmiş qanun pozuntuları, məhkəmədə baxılan cinayət işləri üzrə dövlət ittihamının müdafiəsi, habelə mülki xarakterli mübahisələr və sosial problemlərə dair qeyd olunan məsələlərin bilavasitə prokurorluqda və ya aidiyyəti icra orqanlarında operativ həlli üçün müvafiq göstərişlər verilib.

Prokurorluq əməkdaşları ilə görüş keçirən Kamran Əliyev onlara konkret tapşırıqlar verib, vətəndaşların müraciətlərinə obyektiv baxılması və qəbulu işinin düzgün təşkilinə görə tabe prokurorların fərdi məsuliyyət daşıdığını diqqətə çatdırıb, eləcə də prokurorluq orqanlarının fəaliyyətində müasir informasiya-kommunikasiya texnologiyalarının tətbiqini təmin edən "Elektron prokurorluq" informasiya sisteminin fəaliyyətilə yerində tanış olaraq işin daha da təkmilləşdirilməsi və səmərəliliyin artırılmasına dair təklifləri dinləyib.

# Çağırışçıların yekun tibbi müayinəsinin aparıldığı mərkəzə baxış keçirilib

Əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev və Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi Mürsəl İbrahimov həqiqi hərbi xidmətə çağırılanlarla bağlı yekun tibbi müayinənin aparıldığı Tibbi Qiymətləndirmə Mərkəzinə baxış keçiriblər.





Nazirliyin tabeliyindəki Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin Tibbi Qiymətləndirmə Mərkəzi çağırışçıların əyani müayinəsinin aparılması üçün müasir tibbi avadanlıqlarla təchiz edilib.

Nazirliyin İctimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, S.Babayev və M.İbrahimov mərkəzdə yaradılmış şəraiti, aparılan müayinə prosesini nəzərdən keçiriblər.

Qeyd olunub ki, Mərkəzi Hərbi-Həkim Komissiyasının çağırışçıya dair rəyi təsdiq edildikdən sonra çağırışçının yekun tibbi müayinəsinin aparılması üçün nazirliyin "Tibbi şəhadətləndirmə" altsisteminə göndəriş daxil edilir. Göndərişə əsasən çağırışçılar təyin edilmiş e-növbəlilik əsasında mərkəzdə əyani müayinələrdən keçirilir.

Məlumat üçün bildirək ki, Prezident İlham Əliyevin fərmanına əsasən, bu il iyulun 1-dən müddətli həqiqi hərbi xidmətə çağırılan vətəndaşların tibbi şəhadətləndirilməsi zamanı yekun tibbi müayinəni Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi həyata keçirir.

Həmin dövrədək müvafiq qanunvericilik təkmilləşdirilməklə, yekun tibbi müayinənin aparılması qaydası Nazirlər Kabineti tərəfindən təsdiqlənib.

"Tibbi şəhadətləndirmə" altsistemi yaradılmaqla, onun Səhiyyə Nazirliyi, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi, Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti və digər müvafiq qurumların informasiya bazaları ilə inteqrasiyası təmin olunub.

Yekun tibbi müayinələrin aidiyyəti qurumlar, o cümlədən Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti ilə birgə iş şəraitində şəffaf, çevik və obyektiv şəkildə keçirildiyi vurğulanıb.

# Ali Məclisin növbədənkənar sessiyası başa çatıb



Avqustun 16-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin növbədənkənar sessiyası başa çatıb.

Ali Məclisin Mətbuat xidmətindən verilən məlumata görə, iclasın gündəliyinə "Naxçıvan Muxtar Respublikasının 2024-cü il büdcəsi haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" və "İşsizlikdən sığorta fondunun 2024-cü il büdcəsi haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Naxçıvan Muxtar Respublikasının qanun layihələri daxil edilib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müavini Anar İbrahimov gündəlikdə duran birinci məsələ ilə bağlı qeyd edib ki, qanun layihəsi 14 avqust 2024-cü il tarixdə birinci oxunuşda müzakirə olunub, söylənilmiş təklif nəzərə alınmaqla birinci oxunuşda qəbul edilib. Layihənin birinci oxunuşunda verilmiş təklifə İqtisadi siyasət komitəsi tərəfindən baxılıb, müzakirənin nəticəsi olaraq layihənin yenilənmiş variantda sonrakı oxunuşlar üçün Ali Məclisin iclasına təqdim olunması qərara alınıb.

Ali Məclisin İqtisadi siyasət komitəsinin sədri İsa İsayev qanun layihəsinin müzakirəsi ilə əlaqədar məlumat verərək təmsil etdiyi komitənin rəyini diqqətə çatdırıb. "Naxçıvan Muxtar Respublikasının 2024-cü il büdcəsi haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Naxçıvan Muxtar Respublikasının Qanunu səsə qoyularaq qəbul edilib.

Gündəlikdə duran növbəti məsələ - "İşsizlikdən sığorta fondunun 2024-cü il büdcəsi haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Naxçıvan Muxtar Respublikasının Qanun layihəsi də səsə qoyularaq qəbul olunub.

Sonda Anar İbrahimov iclas iştirakçılarına gələcək fəaliyyətlərində uğurlar arzulayaraq bildirib ki, Ali Məclisdə çalışmaq qürurvericidir, çünki bu məclisdə Ulu Öndər Heydər Əliyev müasir müstəqil Azərbaycanın təməl daşlarını atıb.

Bununla da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin növbədənkənar sessiyası öz işini başa çatdırıb.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

# Ötən ilin yanvar-iyul ayları ilə müqayisədə narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə bağlı faktların sayı azalıb

Yanvar-iyul ayları ərzində narkomanlığa və narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə qarşı mübarizənin nəticələri Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi qrupu tərəfindən müqayisəli şəkildə təhlil edilərək ümumiləşdirilib.

Azərbaycan Respublikası Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasından AZƏRTAC-a verilən məlumata görə, hüquq-mühafizə orqanları tərəfindən narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə sahəsində həyata keçirilmiş kompleks əməliyyat-axtarış tədbirləri nəticəsində ümumilikdə 6458 cinayət faktı aşkarlanıb. Onlardan 1974-ü narkotik vasitələrin qanunsuz satışı, 4313-ü narkotik vasitələrin qanunsuz əldə edilib saxlanılması, 168-i narkotik tərkibli bitkilərin qanunsuz əkilib-becərilməsi, 3-ü isə digər cinayətlərlə bağlı olub.

Aşkarlanmış faktlar üzrə qanunsuz dövriyyədən ümumilikdə müsadirə olunmuş 4 ton 299 kiloqram 831,849 qram narkotik vasitələrin və psixotrop maddələrin 443 kiloqram 879,659 qramını heroin, 3 ton 477 kiloqram 782,82 qramını marixuana, 103 kiloqram 273,041 qramını tiryək, 29 kiloqram 400,501 qramını həşiş, 137 kiloqram 768,528 qramını psixotrop maddələr, 107 kiloqram 727,3 qramını digər narkotik vasitələr təşkil edib. Həmçinin göstərilən dövr ərzində 13 min 568 ədəd metadon, 7902 ədəd çətənə kolu, 637 qram və 1472 ədəd güclü təsir edən və 2 kiloqram 174,5 qram zəhərli maddə qanunsuz dövriyyədən götürülüb.

Hesabat dövründə Daxili İşlər Nazirliyinin təşkilatçılığı ilə Ekologiya və Təbii Sərvətlər Nazirliyinin, Kənd Təsərrüfatı Nazirliyinin, Dövlət Sərhəd Xidmətinin və digər aidiyyəti qurumların nümayəndələrinin iştirakı ilə 1043,7 hektar sahədən 2 689 257 ədəd yabanı halda bitmiş narkotik tərkibli bitkilər müəyyən olunaraq müvafiq qaydada məhv edilib.

Qanunsuz dövriyyədən çıxarılmış 4 ton 299 kiloqram 831,849 qram narkotik vasitələrin və psixotrop maddələrin ümumilikdə dəyəri 115 milyon 733 min AZN kimi qiymətləndirilir.

Narkotiklərin qanunsuz dövriyyəsi ilə bağlı cinayət məsuliyyətinə 4400 nəfər cəlb edilib, onlardan 16-18 yaşadək 1 nəfər, 18-25 yaşadək 332 nəfər, 26-29 yaşadək 707 nəfər, 30 yaş və ondan yuxarı isə 3360 nəfər təşkil edir. Həmin şəxslərdən 4265-i kişi, 135-i qadın olub. Cinayət məsuliyyətinə cəlb edilmiş şəxslərdən 43 nəfəri xarici ölkə vətəndaşıdır.

Məsuliyyətə cəlb edilmiş 43 nəfər xarici ölkə vətəndaşından ümumilikdə 110 kiloqram 15 qram müxtəlif növ narkotik vasitə və psixotrop maddə götürülüb.

Hüquq-mühafizə orqanları narkotik vasitələrin və psixotrop maddələrin qaçaqmalçılıq yolu ilə ölkə ərazisinə gətirilməsi ilə bağlı 157 fakt aşkar edib, həmin faktlar üzrə qanunsuz dövriyyədən ümumi çəkisi 1 ton 524 kiloqram 132,349 qram narkotik vasitə və psixotrop maddə, 13 min 568 ədəd metadon həbi, 1470 ədəd güclü təsir edən maddə çıxarıblar.

Ümumiyyətlə, aşkar edilmiş cinayətlərin 199-u qrup halında törədilib və həmin faktlar üzrə qanunsuz dövriyyədən çəkisi 1 ton 303 kiloqram 877,511 qram narkotik vasitə, psixotrop maddə və 85 qram güclü təsir edən maddə müsadirə edilib. 1780 cinayət faktı əvvəllər məhkum olunmuş şəxslər tərəfindən törədilmiş və onlardan 1 ton 344 kiloqram 818,1 qram müxtəlif növ narkotik vasitə və psixotrop maddə müsadirə edilib.

Təhlil göstərir ki, ötən ilin yanvar-iyul ayları ilə müqayisədə 2024-cü ilin müvafiq dövrü ərzində narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə bağlı hüquq-mühafizə orqanları tərəfindən aşkar edilən faktların sayı 238, narkotiklərin qanunsuz satışı ilə bağlı faktların sayı 361, narkotik xassəli bitkilərin qanunsuz kultivasiya edilməsi ilə bağlı faktların sayı 51, digər növ cinayət faktlarının sayı 27, qaçaqmalçılıqla bağlı cinayətlərin sayı 8 fakt, qanunsuz dövriyyədən çıxarılmış narkotik vasitələrin çəkisi 842 kiloqram 086,85 qram, məsuliyyətə cəlb edilmiş şəxslərin sayı isə 595 nəfər azalıb.

Bununla yanaşı, narkotiklərin satış məqsədi olmadan qanunsuz əldə edilib saxlanılması ilə əlaqədar faktların sayı 201 fakt, qrup halında olan cinayətlərin sayı isə 31 fakt artıb.

2023-cü ilin 7 ayı ilə müqayisədə 2024-cü ilin müvafiq dövrü ərzində qanunsuz dövriyyədən çıxarılmış güclü təsirə malik narkotik vasitələrin, o cümlədən heroinin çəkisi 1 ton 154 kiloqram 736,72 qram (72,2 faiz), tiryəkin çəkisi 118 kiloqram 590,92 qram (53,4 faiz), həşişin çəkisi 21 kiloqram 585,601 qram (42,3 faiz), psixotrop maddələrin çəkisi 166 kiloqram 922,111 qram (60,8 faiz) azalıb.

Dövlət Komissiyasının İşçi qrupunun təşkilatçılığı ilə bu il aprelin 16-17-də müsadirə edilmiş narkotik vasitələr, psixotrop maddələr və onların prekursorları Məhvetmə Komissiyası tərəfindən 1741 məhkəmə hökmü ilə barəsində məhvetmə qərarı qəbul edilmiş 3 ton 430 kiloqram müxtəlif növ narkotik vasitə və psixotrop maddə, 60 min 189 ədəd həb metadon, 58 min 773 ədəd narkotik xassəli çətənə bitkisi, həmçinin 3477 ədəd həb, 19 min 341 ədəd kapsul, 24 flakon, 4 ampula, 81,446 qram güclü təsiredici maddə, eyni zamanda bu il iyulun 22-də Dövlət Sərhəd və Dövlət Təhlükəsizliyi xidmətlərində saxlanılan 17 cinayət işi üzrə barəsində məhvetmə qərarı qəbul edilmiş 248 kiloqram 293,151 qram müxtəlif növ narkotik vasitələr yandırılma üsulu ilə məhv edilib.

Həmçinin 36 şəhər və rayonda qanunvericiliyə uyğun olaraq az və xeyli miqdarda müsadirə edilmiş 1316 məhkəmə hökmü ilə barəsində məhvetmə qərarı çıxarılmış 29 kiloqram 430,512 qram müxtəlif növ narkotik vasitələr və psixotrop maddələr, o cümlədən 226 ədəd çətənə bitkisi şəhər və rayon komissiyaları tərəfindən yandırma yolu ilə məhv edilib. Göstərilən dövr ərzində prosesə nəzarətin gücləndirilməsi nəticəsində bəzi şəhər və rayonlarda məhkəmə hökmü olmadan 17 cinayət işi üzrə maddi sübutların məhv edilməsinin, eyni zamanda 9 hökm üzrə külli miqdarda müxtəlif növ narkotik vasitələrin məhv olunması hallarının qarşısı alınıb.

Daxili İşlər Nazirliyi tərəfindən bütün növ sərxoşluq hallarının müəyyənləşdirilməsi üçün Səhiyyə Nazirliyinin Respublika Narkoloji Mərkəzinə 49 min 154 nəfər istiqamətləndirilib. Onlardan narkotiklərdən istifadənin təyin edilməsi məqsədilə tibbi müayinədən keçirilmiş 1609 nəfərdən 1063 nəfərin istifadəçi olması müəyyən edilib və bununla bağlı zəruri tədbirlər görülüb.

Respublika QİÇS-lə Mübarizə Mərkəzinin verdiyi məlumata əsasən, ölkədə narkomanların İnsanın İmmunçatışmazlığı Virusuna yeni yoluxma hadisələrinin sayında azalma müşahidə olunur. Ötən 7 ay ərzində İİV-ə 799 nəfər yoluxub. Onlardan 786 nəfəri Azərbaycan vətəndaşı, 13 nəfəri isə əcnəbi olub. Azərbaycan vətəndaşları arasında 43 nəfərini (5,4 faiz) inyekson narkotik istifadəçiləri təşkil edib.

Cari ilin yanvar-iyul ayları ərzində "802" qaynar xətt telefon zəng xidmətinə 1016 vətəndaş müraciəti daxil olub ki, onların 84-ü narkotik vasitələrin qanunsuz dövriyyəsi, 83-ü narkotik asılılıqdan müalicə, 849-u isə digər məsələlərlə (təkrar müraciət, qanunvericiliyin müddəalarının izah edilməsi, məcburi müalicəyə dair prosedurlar və s.) bağlı olub. Qeyd olunan müraciətlər üzrə müvafiq tədbirlərin görülməsi üçün aidiyyəti orqanlara 167 məktub ünvanlanıb.

Belə ki, "802" qaynar xətt zəng xidməti vasitəsilə narkotik vasitələrin və narkomanlığın yayılmasının qarşısını almaq məqsədilə aidiyyəti təşkilatlarla və vətəndaşlarla operativ qaydada əlaqələndirilmə təmin edilərək, narkotik vasitələrin qanunsuz dövriyyəsinə dair verilən məlumatlar əsasında müvafiq cinayət işləri qaldırılıb və qanunsuz dövriyyədən külli miqdarda narkotik vasitələr götürülüb, narkotik istifadəçiləri könüllü müraciətləri əsasında ixtisaslaşmış tibb müəssisələrində müalicəyə yönləndirilib, narkotik asılılıqdan əziyyət çəkən ailələrə psixoloji dəstək və mövcud qanunvericiliyin müddəaları izah edilərək zəruri tövsiyələr verilib.

Hesabat dövrü ərzində Dövlət Komissiyasının İşçi qrupunun təşkilatçılığı ilə aidiyyəti dövlət qurumlarını cəlb etməklə ümumilikdə 89 tədbir (55 maarifləndirici və təşkilati tədbir, 24 təlim, 6 sosial layihə, 1 marafon və televiziya kanalında 3 verilişdə iştirak) təşkil edilib.

# Laçında Minalardan və partlamamış hərbi sursatlardan təmizləmə üzrə İşçi qrupun iclası olub



Azərbaycanın işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həlli ilə bağlı yaradılmış Əlaqələndirmə Qərargahının İdarələrarası Mərkəzinin nəzdində fəaliyyət göstərən Minalardan və partlamamış hərbi sursatlardan təmizləmə üzrə İşçi qrupunun növbəti səyyar iclası Laçın rayonunda keçirilib.

AZƏRTAC xəbər verir ki, səfərdə Azərbaycan Respublikası Minatəmizləmə Agentliyi (ANAMA) və işçi qrupda təmsil olunan müvafiq dövlət qurumlarının səlahiyyətli nümayəndələri iştirak ediblər.

İclasda açılış nitqi ilə çıxış edən ANAMA-nın İdarə Heyətinin sədri, işçi qrupun rəhbəri Vüqar Süleymanov işğaldan azad edilmiş ərazilərin inkişaf planına uyğun olaraq həmin ərazilərdə Azərbaycan Respublikası Minatəmizləmə Agentliyi və cəlb olunmuş digər qurumlar, eləcə də yerli şirkətlər tərəfindən genişmiqyaslı humanitar minatəmizləmə fəaliyyətinin icra olunduğunu qeyd edib. Bildirib ki, Qarabağ və Şərqi Zəngəzurda minatəmizləmə layihələri əsasən yaşayış infrastrukturunun yaradılması, nəqliyyat, energetika, kənd təsərrüfatı sahələri, sənaye parkları və digər prioritet istiqamətlərdə aparılır. Qeyd edilib ki, işğaldan azad edilmiş ərazilərdə 2020-ci ilin 10 noyabr tarixdən bu günədək ümumilikdə 155 447 ha ərazi mina və partlamamış hərbi sursatlardan təmizlənib. İşğaldan azad edilmiş ərazilərə geri qayıdan əhali, habelə bu ərazilərdə çalışan insanların təhlükəsizliyinin təmin edilməsi məqsədilə ANAMA tərəfindən mütəmadi olaraq keçirilən maarifləndirmə təlimlərinin vacibliyini vurğulayan Vüqar Süleymanov Laçın şəhərinin, Sus və Zabux kəndlərinin əhalisinə də bu istiqamətdə təlimlərin keçirildiyini qeyd edib.

Sonra işçi qrupun digər üzvləri tərəfindən təmsil etdikləri qurumların bu sahədə gördüyü işlər barədə məlumat verilib və təqdim olunan hesabatlar müzakirə edilib. Səfər çərçivəsində işçi qrup üzvləri Cəbrayıl rayonu ərazisində ANAMA tərəfindən Cocuq Mərcanlı kəndində, eləcə də yerli şirkət tərəfindən Sarıcallı kəndində həyata keçirilən minalardan təmizlənmə əməliyyatları ilə tanış olublar, aşkar edilən mina və partlamamış hərbi sursatların partlayış yolu ilə zərərsizləşdirilməsi prosesini müşahidə ediblər.

# Azərbaycan nümayəndə heyəti Həştərxanda keçirilən IX Xəzər Media Forumunda iştirak edib

Azərbaycan nümayəndə heyəti Rusiya Federasiyasının Həştərxan şəhərində keçirilən IX Xəzər Media Forumunda iştirak edib.





AZƏRTAC xəbər verir ki, bu barədə Medianın İnkişafı Agentliyi məlumat yayıb.

Səfər çərçivəsində nümayəndə heyəti Ümummilli Lider Heydər Əliyevin adını daşıyan parkda Ulu Öndərin abidəsini, həmçinin Qardaşlıq bağında "Əbədi Şöhrət Məşəli" abidəsini ziyarət edərək önlərinə gül dəstələri düzüb.

"Mədəniyyətlərin dialoqu Xəzər regionunun inkişafının əsası kimi" mövzusunda baş tutan tədbirin əsas məqsədi Xəzəryanı ölkələr arasında vahid media mühiti yaratmaq, informasiyanın saxtalaşdırılmasının aradan qaldırılmasına kömək etmək və konstruktiv dialoq platformasını inkişaf etdirərək regionda mövcud olan müxtəlif mədəniyyətlər arasında qarşılıqlı anlaşma və əməkdaşlığı təşviq etməkdir. IX Xəzər Media Forumu çərçivəsində keçirilən nümayəndə heyətləri rəhbərlərinin görüşündə Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin icraçı direktorunun müavini Natiq Məmmədli çıxış edərək xalqlar arasında mədəni körpülərin yaradılmasında və media sahəsində gələcək əməkdaşlıq perspektivlərinin müzakirə edilməsində bu kimi platformaların vacib rol oynadığını vurğulayıb, eyni zamanda rəqəmsal əsrdə dezinformasiyanın yayılmasında süni intellektin təsirindən bəhs edərək, ölkəmizin ev sahibliyi etdiyi "Yalan məlumatların ifşası: Dezinformasiyaya qarşı mübarizə" mövzusunda 2-ci Şuşa Qlobal Media Forumunun müvafiq sahədə mübarizənin effektiv üsullarını müzakirə etmək və beynəlxalq əməkdaşlığı gücləndirmək baxımından əhəmiyyətini diqqətə çatdırıb.

Qeyd edək ki, IX Xəzər Media Forumu öz işini növbəti gün plenar iclaslarla davam etdirəcək.




# AZERBAIJAN COP29

## Yaşıl dünya naminə həmrəylik ili 2024





# Mavi Xəzərin ağ bulvarı

## Bakı COP29-a hazırlaşır

**Bakı şəhəri tarixi zənginliyin və müasir gözəlliyin harmoniyasıdır. Avropa və Şərq memarlığının gözəl inciləri sırasında olan yaraşıqlı binaları, ecazkar dəniz panoraması, füsunkar təbiəti ilə könülləri oxşayan Bakı hər zaman ona qonaq olan səyyahları, turistləri gözəlliyi ilə təəccübləndirməyi bacarıb, könülləri fəth edib.**

**Bakını ilk dəfə görənlər bu şəhəri əsl möcüzələr adasına bənzədirlər. Bu şəhəri təkrar görənlər isə onun hər gün dəyişən, gözəlləşən simasını möcüzə kimi dəyərləndirirlər. Bakı sözün bütün mənalarında abadlıq və quruculuğun mərkəzinə çevrilib.**

Son illər möhtəşəm beynəlxalq tədbirlərə, idman yarışlarına evsahibliyi edən Bakı ən mötəbər beynəlxalq tədbirlərdən olan COP29-a hazırlaşır. Səmimiyyət və sevgi şəhəri bu tədbirlə əlaqədar on minlərlə qonağı qəbul edəcək. Sözsüz ki, onların üz tutacağı məkanlardan biri də Ağ Şəhər bulvarı olacaq.

Xatırladaq ki, təməli 2013-cü il mayın 25-də qoyulan Bakı Ağ Şəhər bulvarı ekoloji şəhərsalma layihəsi kimi tanınan "Ağ Şəhər" layihəsi əsasında inşa olunub. Dünyadakı ən qabaqcıl təcrübə əsasında yaradılan bulvarda işlər 2015-ci ildə I Avropa Oyunları ərəfəsində başa çatıb. Həmin il iyunun 1-də Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva bu möhtəşəm istirahət və sağlamlıq mərkəzinin açılışında iştirak ediblər.

Ağ Şəhər bulvarının uzunluğu 2,7 kilometr, sahəsi 34,6 hektardır. Ecazkar gözəlliyi ilə adamı heyran edən bulvar Ağ Şəhərdən Xəzərə açılan mənzərəni daha da cazibədar edir.

### Ağ Şəhər bulvarı həm də sağlamlıq mərkəzidir

Bir vaxtlar Bakının sənaye müəssisələrinin yerləşdiyi, neft tullantılarının cəmləşdiyi Qara Şəhər kimi tanınan ərazi artıq qara günlərini geridə qoyaraq yerini Ağ Şəhər adlı modern inkişaf məkanına verib. Ağ Şəhərin davamı sayılan bu bulvar da öz təkrarolunmaz cazibədarlığı ilə regionun ən gözəl paytaxt şəhəri olan Bakının yeni istirahət mərkəzinə çevrilib.

Bu gözəl məkanda hər gün minlərlə insan asudə vaxt keçirir. Burada ən müasir oturacaqlar, işıq dirəkləri quraşdırılıb, qeyri-adi görünüşlü dibçəklər yerləşdirilib, minlərlə ağac və bəzək kolu əkilib. Ərazidə insanların istirahəti üçün hər cür şərait yaradılıb. Xüsusən də idmansevərlər vaxtını daha səmərəli keçirmək üçün buraya gəlirlər, sahil boyunca qaçışla yanaşı, müasir idman qurğularından da istifadə edirlər.

Bulvarda velosiped sürmək üçün xüsusi zolaqlar yaradılıb, basketbol, voleybol və iki futbol meydançası inşa edilib. Dənizlə daha yaxından təmas qurmaq üçün estakadalar tikilib. Mövsüm zamanı balıq həvəskarları burada rahatlqla ov edə bilirlər.

Hazırda 1650 hektar ərazini əhatə edən, 10 kvartalı birləşdirən, 240 min sakinin yaşaması, 120 min yaşayış və xidmət obyektinin inşası nəzərdə tutulduğu Ağ Şəhərdə sakinlərin bulvara rahat və təhlükəsiz gedib-gəlmələri üçün 8 Noyabr prospekti üzərindən enri 14 metr, uzunluğu 237 metr olan körpü tikintisi üzərində intensiv iş gedir.

### İnsanların sevimli istirahət məkanı

İnsanlar günün bütün saatlarında istirahətlərini maraqlı keçirmək üçün bu məkana üz tuturlar. Burada körpə uşaqdan tutmuş ahıl insana kimi hər kəsə rast gəlmək mümkündür. Biz bulvarda olanda Günəşin şəfəqləri mavi sulara düşüb muncuq kimi parıldayırdı. Sahildə isə qayğısız və şən uşaqların səsi eşidilirdi. Əlindəki şarı bizə tərəfə atan dəcəl qız sanki bizi söhbətə cəlb etmək istəyir.

Yaxınlaşıb gənc ana ilə söhbət edirik. Bakı şəhər sakini Türkay Rəhimova həvəslə təəssüratlarını bölüşür: "Ağ Şəhər bulvarı bizim ailənin sevimli məkanıdır. Vaxtaşırı qızlarım İradə ilə İncini bulvara gətirirəm. Burada həm hava təmizdir, həm də sakitlikdir. Uşaqların əylənməsi üçün ödənişsiz attraksionlar da var. Şəhərin bu hissəsindən baxanda Bakı bütün əzəməti ilə görünür. Bizə bu gözəlliyi bəxş edən dövlətimizə, insanların qayğısına qalan Prezidentimizə minnətdarlığımı bildirmək istəyirəm.

Cəmi bir neçə il əvvəlki Qara Şəhərlə bugünkü Ağ Şəhəri müqayisə edəndə düşünürsən ki, burada möcüzə baş verib. Bəzən bu gözəlliyi görəndə özüm də təəccüblənirəm. Mənə elə gəlir ki, gördüklərim gerçəklik deyil, bir yuxudur. Vətənini sevən hər bir kəs bu gözəlliklə qürur duymalı, bizə bu şəraiti yaradanlara minnətdar olmalıdır. Bakıda yaşadığım, azərbaycanlı olduğum üçün qürur duyuram".

Digər həmsöhbətimiz isə Rəmzi Soltanlı oldu. Rəmzi deyir ki, bura gələndə ruhu rahatlıq tapır: "Ağ Şəhər mənim üçün quruculuğun, abadlığın, həm də düşmən üzərində qazandığımız qələbənin rəmzidir. Qənimətlər Parkını ziyarətdən sonra burada istirahət etməyin ayrı ləzzəti var. Dənizi çox sevirəm. Balıq tutmaq mənə zövq verir... Axşamlar dənizə düşən işıqlar buranı daha da gözəlləşdirir. Bura möcüzələr aləminə bənzəyir. Özümüz Sulutəpədə yaşasaq da, körpə qızım Fatmanuru da götürüb tez-tez bura gəlirik. Həkim uşağa dəniz havasının faydalı olduğunu deyib. Buranın havası çox gözəldir. Dənizin səsi qızımıza sanki lay-lay çalır. Dövlətimlə, bu gözəlliyi bizlərə ərməğan edən Prezident İlham Əliyevlə qürur duyuram. Var olsun dövlətimiz, sağ olsun Prezidentimiz".

### Göydə uçan çərpələng yox, arzularımdır

Bulvarda çərpələng uçuran bir ailə diqqətimizi çəkir. Ailə başçısı Emin Mahmudovla söhbət edirik: "Yasamal rayonunda yaşasaq da, Ağ Şəhəri çox sevirik. Qismət olsa, evimizi də bura dəyişəcəyik. Ağ Şəhər əsrin möcüzəsidir. Dünyanın çox ölkəsini gəzmişik. Lakin bu gözəlliyi, doğmalığı heç yerdə görməmişik. Burada insanların ürəyi də, üzü də gülür. Bu möhtəşəm gözəllikləri görmək insana zövq verir. Uşaq vaxtı "Sehirli xalat" filminə baxanda "gələcəyə uçan" Rəşidə qibtə edirdim. Deyirdim, kaş mən də gələcəyə uça biləydim. Bura gələndə, bu gözəllikləri görəndə mənə elə gəlir ki, dövlətimiz bizi gələcəyə aparıb.

Qızım Günay, oğlum Elvin çərpələng uçurmağı çox sevirlər. Onlar çərpələng uçuranda mənim də arzularım göylərdə qanad açır. Bura mənim, ailəmin rahatlıq tapdığı ən gözəl məkandır".

Söhbətimizi təqaüdçü Əlivahid Şıxəliyevlə davam etdiririk: "Mən buranın əvvəlki günlərini də görmüşəm, ağ günlərinə də şahidlik edirəm. Bir zamanlar burada nəfəs almaq mümkün deyildi. Borulardan çıxan qara tüstülər havanı zəhərləməklə yanaşı, Günəşin də qarşısını kəsirdi. İndi dəniz durulub, su aynaya bənzəyir, hava da tərtəmizdir. Düzünü desəm, evdə oturanda darıxıram. Bundan sonrakı ömrümü belə gözəlliklər içində keçirmək istəyirəm. Var olsun dövlətimizi ki, bu cür imkan yaradıb", - deyə o bildirir.

Bakı sakini Hüseyn Qurbanov isə bunu xatırlatdı: "Cənnət görmək istəyən Azərbaycana gəlsin. Bakının gözəlliyi, Ağ Şəhər bulvarının yaradılması iqtisadi gücümüzü, qüdrətimizi dünyaya nümayiş etdirir. Qısa bir zamanda belə bir gözəllik yaratmaq asan iş deyil. Atalar gözəl deyib: "Tikdim ki, izim qala". Torpaqlarımızı düşmən işğalından azad edən, Bakını ekoloji cəhətdən təmiz "yaşıl şəhər"ə çevirən, bizə bu dünyada cənnət yaradan Prezidentimizə minnətdaram".

Günəş yavaş-yavaş görünməz olur, göydə ulduzlar parlamağa başlayırdı. Bu əsrarəngsiz mənzərə isə Ağ Şəhər bulvarı ilə möhtəşəm bir harmoniya təşkil edirdi. Mavi Xəzər isə bu gözəlliyə ayrı bir rəng qatırdı.

Bəli, Bakının inkişafı ilə onun simvolları da çoxalıb. Əminliklə deyə bilərik ki, Ağ Şəhər bulvarı da paytaxtımızın simvoluna çevrilən ünvanlardan biridir. Azərbaycanın yüksəlişinin və paytaxtımızın baş planının həyata keçirilməsi nəticəsində bundan sonra da belə cazibədar ünvanlar yaranacaq.

*Elşən QƏNİYEV,*
*İlham BABAYEV (foto),*
*"Azərbaycan"*




























# Qazaxda "Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində növbəti təmizlik aksiyası təşkil olunub



"Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində Qazax rayonunun Cəfərli kəndi ərazisində Ağstafaçay su anbarının ətrafında növbəti təmizlik aksiyası təşkil edilib.

AZƏRTAC xəbər verir ki, aksiyada Qazax Rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşov və icra aparatının məsul əməkdaşları da iştirak ediblər. Bildirib ki, aksiyanın əsas məqsədi ətraf mühitin sağlamlaşdırılması, təmizliyə riayət olunmasını təbliğ etmək, məişət tullantıları ilə zibillənmənin qarşısını almaq və bütün gəncləri ətraf mühitin mühafizəsi uğrunda mübarizəyə cəlb etməkdir. Eyni zamanda cəmiyyətdə təbiətə qayğını təbliğ etmək, yaşıllıqların çoxaldılmasını təşviq edərək ətraf mühitin qorunmasında, ən əsası da ölkədə keçirilən ekoloji tədbirlərdə yaxından iştirak etmək və ekoloji maarifləndirmə işlərinə töhfə verməkdir.

Zəruri sanitar ləvazimatlarla təchiz olunmuş aksiya iştirakçıları tərəfindən ərazi plastik və digər məişət tullantılarından təmizlənib, toplanmış tullantılar aidiyyəti üzrə təhvil verilib.



# Azərbaycanda "yaşıl binalar" niyə tikilmir?

Dünyada artıq "yaşıl evlər" adlanan ekoloji binalar ortaya çıxıb. Belə binalar bu sektorda yeni bir istiqamət və bir sahə yaradıb. Bu müəyyən standartlarla təsdiqlənməlidir. Binanın "yaşıl" sayılması üçün aşağıdakı xüsusiyyətləri olmalıdır:

- Enerji, su və digər mənbələrdən səmərəli istifadə;
- Günəş enerjisi kimi bərpaolunan enerjidən istifadə;
- Çirklənmə və tullantıların azaldılması tədbirləri və təkrar istifadənin təmin edilməsi;
- Daxili hava keyfiyyəti yaxşı olmalıdır;
- Zəhərli olmayan, etik və davamlı materialların istifadəsi;
- Dizayn, tikinti və istismarda ətraf mühit nəzərə alınmaqla;
- Dizayn, tikinti və istismarda sakinlərin həyat keyfiyyətini nəzərə alaraq;
- Dəyişən mühitə uyğunlaşan bir dizayn.

Lakin bütün ölkələrin və bölgələrin fərqli iqlim şəraiti olduğuna görə "yaşıl binalar"ın hamısı eyni deyil.

Bəs ölkəmizdə tikilən hündürmərtəbəli binalarda "yaşıl enerji" tətbiq edilir?

Məsələ ilə bağlı Trend-in suallarını cavablayan daşınmaz əmlak və inşaat üzrə ekspert Elnur Azadov bildirib ki, bu texnologiyalar çox bahalıdır.

"Bu səbəbdən də çoxmənzilli binaların tikintisi ilə məşğul olan şirkətlər belə texnologiyaları tətbiq etmir. Tikinti normativlərimizdə də ekoloji bina anlayışı hələ ki, yoxdur. Hətta günəş panelləri binanın elektrik enerjisini ödəsə belə fərqi yoxdur. Lakin Bakıda "yaşıl enerji"nin tətbiqi üçün kifayət qədər şərait var", - o deyib.

Onun sözlərinə görə, son illər Avropada ekoloji binaların tikintisi artıb.

"Belə binaların qiyməti də bahadır. Lakin idarə olunması çox rahatdır. Həyət evlərində isə günəş panelləri tətbiq olunur. Bunun üçün heç bir xüsusi icazəyə ehtiyac yoxdur", - deyə ekspert qeyd edib.






# Dayanıqlı gələcək üçün irəliləyiş təşəbbüsləri: beynəlxalq təşkilatlar COP-u necə dəstəkləyir

COP iqlim dəyişikliyi məsələlərinə həsr olunmuş və BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyası (UNFCCC) çərçivəsində keçirilən mühüm beynəlxalq tədbirdir.



İlk COP 1995-ci ildə Berlində keçirildi və o vaxtdan bəri hər il keçirilən görüşlər bütün dünyadan hökumət nümayəndələrini, beynəlxalq təşkilatları və vətəndaş cəmiyyəti nümayəndələrini bir araya gətirir.

Son illərdə iqlim dəyişikliyi mövzusu ərzaq təhlükəsizliyi məsələləri ilə daha sıx əlaqələndirilir ki, bu da COP və BMT-nin Dünya Ərzaq Proqramı (WFP) arasındakı əməkdaşlığı xüsusilə əhəmiyyətli edir. Bu təşkilatların birgə səyləri aclıqla mübarizəyə və xüsusilə iqlim dəyişikliyinin təsirlərindən əziyyət çəkən həssas regionlarda milyonlarla insanın həyat şəraitini yaxşılaşdırmağa yönəlib.

Uğurlu əməkdaşlığın parlaq nümunələrindən biri "Aktivlər üçün Ərzaq Yardımı" (FFA) proqramıdır. Bu təşəbbüs çərçivəsində WFP və COP iqlim risklərinə məruz qalan icmalarda dayanıqlı gəlir mənbələrinin yaradılması və ərzaq təhlükəsizliyinin yaxşılaşdırılması üçün qüvvələri birləşdiriblər. FFA layihələri arasında deqradasiyaya uğramış torpaqların bərpası, suvarma sistemlərinin yaradılması və dayanıqlı kənd təsərrüfatı təcrübələrinin tətbiqi yer alır.

Uğurlu təşəbbüslərdən biri də "Ərzaq Təhlükəsizliyi üçün İqlim Adaptasiyası və Dayanıqlılığı" (CARFS) proqramıdır. Bu proqram çərçivəsində WFP və COP iqlim dəyişikliyinə ən həssas olan ölkələrdə ərzaq sistemlərinin dayanıqlığını artıran adaptasiya tədbirlərini hazırlayır və həyata keçirir. Məsələn, Malavidə kənd təsərrüfatının uyğunlaşdırılması layihəsi çərçivəsində dayanıqlı kənd təsərrüfatı üsullarının tətbiqi və su təminatının yaxşılaşdırılması sayəsində məhsuldarlığı xeyli artırmaq və quraqlıq səbəbindən məhsul itkisi riskini azaltmaq mümkün olub.

COP-un əməkdaşlığı yalnız WFP ilə məhdudlaşmır. Belə ki, COP və BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı (FAO) arasında əməkdaşlıq dayanıqlı kənd təsərrüfatının təşviqi və iqlim dəyişikliyi şəraitində ərzaq təhlükəsizliyinin təmin edilməsində mühüm rol oynayır.

COP və FAO arasında əməkdaşlığın ən mühüm nümunələrindən biri iqlim dəyişikliklərini nəzərə alan dayanıqlı kənd təsərrüfatını təşviq edən "İqlimə Dayanıqlı Kənd Təsərrüfatı" (CSA) təşəbbüsüdür. Proqram ekstremal hava şəraitinə qarşı dayanıqlığı artıran, su resurslarının idarə edilməsini yaxşılaşdıran və biomüxtəlifliyi qoruyan metodların tətbiqini əhatə edir. Nepalda bu təşəbbüs sayəsində fermerlər təsərrüfatlarını dəyişən iqlim şəraitinə uyğunlaşdıraraq məhsuldarlığı artırmağa və təbii fəlakətlərdən itkiləri azaltmağa müvəffəq olublar.

Bundan əlavə, "Qlobal Torpaq Tərəfdaşlığı" (GSP) COP və FAO-nun birgə səylərini birləşdirdiyi daha bir uğurlu təşəbbüsdür. Bu layihə ərzaq təhlükəsizliyini təmin edən torpaq resurslarının mühafizəsi və bərpasına yönəlib. GSP çərçivəsində torpaqların eroziyasının qarşısının alınması, onların məhsuldarlığının artırılması və torpaqlarda karbonun saxlanması kimi tədbirlər həyata keçirilmişdir ki, bu da iqlim dəyişikliyinin təsirlərinin yumşalmasına kömək edir. Uğurlu tədbirlərin nümunələrini Latın Amerikasının ölkələrində görmək olar, burada torpaq idarəçiliyinin yaxşılaşdırılması məhsuldarlığın artmasına və istixana qazı emissiyalarının azalmasına gətirib çıxarıb.

Öz növbəsində COP-un Beynəlxalq Kənd Təsərrüfatının İnkişafı Fondu (IFAD) ilə əməkdaşlığı iqlim dəyişikliyinin təsirlərinə ən çox məruz qalan kənd icmalarının yaşayış şəraitinin yaxşılaşdırılmasına yönəlib.

Bu baxımdan ən uğurlu təşəbbüslərdən biri IFAD tərəfindən COP-un dəstəyi ilə hazırlanmış "Kiçik Fermer Təsərrüfatları üçün Adaptasiya Proqramı"dır (ASAP). Bu proqram kiçik fermerlərə dəyişən iqlim şəraitinə uyğunlaşmağa kömək etmək məqsədi daşıyır. Məsələn, Nigerdə ASAP fermerlərə aqromeşəçilik üsullarını və suya qənaət sistemlərini tətbiq etməyə kömək etmişdir ki, bu da kənd təsərrüfatının quraqlığa davamlılığını xeyli yaxşılaşdırmış və məhsuldarlığı artırmışdır.

Daha bir layihə - "Kənd Yerləri Üçün Bərpa Olunan Enerji" (RERL) IFAD tərəfindən COP ilə birgə həyata keçirilir və kənd ərazilərində bərpaolunan enerji mənbələrinin inkişafına yönəlib. Nepalda bu təşəbbüs günəş panelləri və mini hidroelektrik stansiyaların tətbiqini təmin etmiş, bu da uzaq kəndləri enerji ilə təmin etmiş və kənd təsərrüfatının inkişafına kömək etmişdir. Bərpaolunan enerji mənbələrindən istifadə həmçinin istixana qazı emissiyalarını azaltmağa və yerli sakinlərin yaşayış şəraitini yaxşılaşdırmağa imkan verib.

Həmçinin bu günə qədər qəbul edilmiş və həyata keçirilmiş kollektiv öhdəliklər və birgə əməkdaşlıq nəticəsində görülən tədbirlər haqqında da demək olar ki, keçən dövr ərzində COP konfranslarında bir çox mühüm qərar qəbul edilmiş və iqlim sahəsində beynəlxalq əməkdaşlıq və öhdəliklər sahəsində əhəmiyyətli uğurlar əldə edilmişdir.

Bəzi əsas kollektiv öhdəliklər və konfranslarda qəbul edilmiş birgə tədbirlər:

Çeviklik mexanizmi (COP3, 1997): COP3-də qəbul edilmiş Kioto protokolu çərçivəsində ölkələr 2008-2012-ci illər arasında istixana qazı emissiyalarını 1990-cı ilin səviyyəsindən 5 faiz azaltmağı öhdələrinə götürdülər. Bu saziş UNFCCC-nin emissiyaların azaldılması ilə bağlı ilk qlobal öhdəliklərindən biri oldu.

Nayrobi Adaptasiya Proqramı (COP12, 2006): Nayrobidə keçirilmiş COP12-də inkişaf etməkdə olan ölkələrin iqlim dəyişikliyinə uyğunlaşma qabiliyyətlərini artırmaq üçün Nayrobi Adaptasiya Proqramı işə salınıb.

Kopenhagen Sazişi (COP15, 2009): COP15-də Kopenhagendə ölkələr qlobal istiləşmə səviyyəsini 2°C-dən aşağı səviyyədə saxlamağa razılaşdılar.

Yaşıl İqlim Fondu (COP16, 2010): COP16-da Kankunda inkişaf etməkdə olan ölkələrin iqlim dəyişikliyinin nəticələrinin yumşaldılmasına və onlara uyğunlaşmalarına kömək etmək üçün Yaşıl İqlim Fondu (Green Climate Fund, GCF) təsis edildi.

Durban Platforması (COP17, 2011): Durbanda keçirilmiş COP17-də bütün ölkələri əhatə edəcək yeni qlobal iqlim sazişinin hazırlanması üçün Durban Platforması qəbul edildi. Sonradan bu, 2015-ci ildə Paris Sazişinin qəbuluna səbəb oldu.

İqlim təşəbbüslərinin maliyyələşdirilməsi üçün qlobal hədəf: COP konfranslarında iştirakçı ölkələr inkişaf etməkdə olan ölkələrin iqlim dəyişikliyi ilə mübarizə səylərini dəstəkləmək üçün hər il 100 milyard dollar toplamağa razılaşdılar. Qeyd edək ki, COP29 çərçivəsində maliyyələşmənin 150 milyard dollara qədər artırılması məsələsi müzakirə ediləcək.

# Ekoloji tarazlıq bəşəriyyətin xilasıdır

Ümumbəşəri təhlükəsinə, bununla da həllinin təxirəsalınmaz vacibliyinə görə ekoloji gərginlik probleminin aradan qaldırılması öncül məsələlərdəndir. Ətraf mühitin mühafizəsi təkcə bir şəhər, ölkə üçün deyil, bəşəriyyət üçün problem olaraq təcili həllini gözləyir. Fəxrlə qeyd edək ki, ölkəmiz ətraf mühitin sağlamlaşdırılması sahəsində səylərini fəallaşdırmaqla bu il COP29-a evsahibliyi edəcək.



COP29-un Azərbaycanda keçirilməsi ekoloji tarazlığın qorunub saxlanılması istiqamətində görülən həlledici tədbirlərdəndir. İndiyədək bütün dünyada bu istiqamətdə müəyyən irəliləyiş olsa da, effektli həll üçün qənaətbəxşlik istənilən səviyyədə deyil. Bu baxımdan cari ilin ölkəmizdə "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi müstəsna əhəmiyyət daşıyır.

Karbon oksidi qazlarının atmosferdə artması ilə iqlim dəyişikliyinin əmələ gəlməsi, okean və dənizlərin alt qatında buzlaqların əriməsi ilə suyun səviyyəsinin qalxması bəşəriyyətin həyat tərzində qeyri-normal şəraitin yaranmasına səbəb olur. Cəmiyyətlə təbiətin arasında ziddiyyətli, ögey münasibət ekoloji gərginliyi artırır. Təbiətdə baş verən ciddi iqlim dəyişiklikləri bir tərəfdən təbii fəlakətlərin, digər tərəfdən antropogen amillərin artmasının təsirindən ekoloji tarazlığın pozulması ilə ətraf mühitin çirklənməsinə gətirib çıxarır. Nəticədə qlobal ekoloji problem yaratmaqla canlı aləmə təsir göstərir. Bəşəriyyət üçün təhlükə olan "Tac" ("Korona") və digər viruslar məhz ekoloji tarazlığın pozulması, insanların normal həyat tərzinə ciddi mənfi təsir göstərən ətraf mühitin çirkləndirilməsindən meydana gəlir və planetin normal həyat səviyyəsinin aşağı düşməsinə səbəb olur.

Bəşəriyyətin həyat tərzinin normal saxlanılmasında başlıca amil havanın zəhərli birləşmələrin təsirindən mühafizəsi, Tanrının bəxş etdiyi mühitin saflığının, təmizliyinin qorunmasıdır. Sənayenin əksər sahələrinin sürətlə inkişafı nəticəsində ətrafa atqıların çoxalması nəticəsində biosferin daim çirklənməsi, bunun təhlükəli ekoloji problemə çevrilməsi və həlli yollarının elmi əsaslarla axtarılması və tapılması bu gün bütün alimləri ciddi düşünməyə vadar edir. Çünki ekoloji problemin həlli üçün birmənalı yekdil proqram və ya yanaşma hələlik öz yerini tutmayıb.

İnsanlar təbiətin sabit qanunlarına qarşı çıxaraq təbii sərvətlərdən şüurlu-şüursuz halda səmərəsiz istifadə etməklə ətraf mühitin çirklənməsinə gətirib çıxarırlar. Təbii sərvətlərin səmərəsiz istismarı nəticəsində təbiət üçün böyük bəla olan tullantıların gündən-günə artmasının şahidi oluruq. Elmi-texniki tərəqqinin sürətli inkişafı ilə əlaqədar məqsədli son məhsulların alınması ilə yanaşı, külli miqdarda "yan məhsul"lar və tullantılar da əmələ gəlir. Bununla da ekoloji tarazlıq pozulur, nəticədə insanların sağlamlığına ciddi xələl gəlir.

Təbiətin saf saxlanılmasına insanların laqeyd münasibətinin nəticəsidir ki, bu gün Yer kürəsi ekoloji böhran içindədir. Dözülməz haldır ki, bu problemi biz insanlar özümüz yaratmışıq və bu təhlükəli faciəni daha da kəskinləşdirməkdə davam edirik. Sağlam ətraf mühit yaratmaq təbiətlə mehriban dostluq etmədən mümkün deyil. İnsanların təbiətlə münasibətlərində ekoloji bilik, ekoloji mədəniyyət, ekoloji tərbiyə əsas amildir və bu, mütləqdir.

Bu gün ekoloji tarazlığın saxlanılması üçün tullantısız və ya az tullantılı qapalı texnoloji proseslərin, innovasiyayönümlü texnologiyaların istehsalata tətbiqi vacib məsələ olmaqla həyata keçirilməlidir. Yaşıllaşdırma gərəkdir. Bununla da ətraf mühiti mühafizə etməklə təbii sərvətlərimizin qənaətlə, səmərəli istifadəsinə nail olmuş olarıq. Son illərdə dünyada müxtəlif təhlükəli yoluxucu xəstəliklər çoxalmaqdadır. Bunun başlıca səbəbi ekoloji tarazlığın pozulması, sənaye və məişət tullantılarının şüursuz, məsuliyyətsiz halda ətraf mühitə atılmasıdır.

Ətraf mühitin çirklənməsinin səbəbini müəyyənləşdirmək məqsədilə inkişaf etmiş ölkələrdə ətraf mühitin mühafizə agentlikləri sorğu keçirmiş və aşağıda qeyd olunan müxtəlif səbəbləri göstərmişlər: ətraf mühitin kimyəvi maddələrlə çirkləndirilməsi; meşələrin qırılması; okean, dəniz və su hövzələrinin neftlə çirkləndirilməsi; atmosferdə karbon oksidləri qazlarının çoxalması; vəhşi heyvanların məhv olması; torpağın eroziyası.

Bir çox alim təbiəti qorumaq üçün "geriyə, təbiətə doğru" prinsipi irəli sürürlər. Bir çoxu isə sənayenin inkişafını ətraf mühitin qorunması istiqamətinə yönəltməyi təklif edirlər.

Təbiətin flora və faunasını qorumaq məqsədilə atmosferin mühafizəsi probleminin həlli ətrafa atılan zəhərli atqıların tamamilə ləğv edilməsi, yaxud yüksək qatılıqda toksiki maddələrin minimum həddə endirilməsi ilə bağlıdır. Atmosferin çirklənməsinin qarşısının alınması istiqamətində aşağıdakı texnoloji tədbirlərin həyata keçirilməsi məqsədəuyğun hesab olunur: tullantısız yeni qapalı texnoloji proseslərin yaradılması; atmosferə atılan toksiki maddələrin ləğv edilməsi və ya onların azaldılması üçün texnoloji proseslərin təkmilləşdirilməsi; innovasiyayönümlü texnologiyalara yiyələnmək, ətraf mühitə atılan sənaye tullantılarının tərkibindən zəhərli birləşmələrin çıxarılaraq onların zərərsizləşdirilməsi və ya istifadəsi məqsədilə təkrar emal üsullarının yaradılması.

Əksər nəqliyyat sistemlərində qəbul olunmuş "standart"a uyğun normal istismar proseslərinə ciddi nəzarət edilməsi, atmosferə atılan qaz halındakı atqıların zərərsizləşdirilməsində əsasən onların udulması, kimyəvi çevrilmələrin aparılması, o cümlədən kondensləşmə və oksidləşmə termiki və katalitik üsullarından istifadə edilməsi gündəmə gəlir. Bu üsullar bir çox halda ya ayrılıqda və ya bir-biri ilə vəhdətdə olduqda daha səmərəli nəticələr verir. Qeyd olunan problemin geniş miqyasda həlli üçün universal texnoloji proses hələlik məlum deyil. Hər bir halda müvafiq konkret üsuldan istifadə edilməsi tələb olunur.

Məlumdur ki, ətraf mühitin çirklənməsində qaz və maye halında olan tullantılarla yanaşı, bərk halda olan tullantılar da ciddi ekoloji problem yaradır. Nəticədə ətraf mühitə külli miqdarda atılan bərk aqreqat halında sənaye və məişət tullantılarının da miqdarı gündən-günə çoxalır. Belə tullantılardan ən çox ətrafa atılan plastik kütlə-polimer tullantılarıdır. Lakin plastik kütlə-polimer materiallarına böyük ehtiyac duyulduğundan və bunun müqabilində plastik kütlə-polimer istehsalı daim artdığından, onların tullantıları da müvafiq olaraq artır. Polimer və ya plastik kütlə materialları təbiətdə öz-özünə uzun müddət çürümədiyindən, həll olmadığından, utilləşdirilmədiyindən ətrafda qalmaqla ciddi ekoloji gərginlik yaranır və tarazlıq pozulur.

Problemin həlli istiqamətində bir çox üsul mövcuddur. Onlardan termiki zərərsizləşdirmə yolu ilə ayrılan istilikdən istifadə etmək, termiki parçalanma yolu ilə məqsədli məhsullar almaq, tullantıların təkrar emalı yolu ilə yüksək istismar göstəricilərinə malik müxtəlif kompozit materialları almaq kimi üsulları göstərmək olar. Qeyd olunan üsulların hər birinin həm üstün, həm də çatışmayan cəhətləri məlumdur. Uzun illər aparılan tədqiqatların nəticəsində plastik kütlə-polimer tullantılarının utilləşdirilməsində (və ya zərərsizləşdirilməsində) təkrar emal üsulu daha münasib üsul sayılır. Bu baxımdan yüksək fiziki-mexaniki xassəyə malik polimer kompozisiya materiallarının (PKM) alınması sahəsində elmi-tədqiqat işləri aparılır. Sözügedən üsul ekoloji və iqtisadi cəhətdən daha əlverişli sayılır.

Alınan materiallar texnikanın müxtəlif sahələrində tətbiq imkanlarına malikdir. Belə ki, onlardan texniki məqsədlər üçün müxtəlif örtüklər, borular, qutular, taralar, kanistrlər, dibçəklər və s. alınmasında istifadə edilməsi tövsiyə olunur.

Beləliklə, ətraf mühitdə mövcud polimer tullantılarının utilləşdirilməsində təkrar emal üsulu hələlik əlverişli üsul sayılmaqla burada əsasən bahalı ilkin xammala qənaət olunduğundan iqtisadi səmərə alınır, eləcə də sadə və "tullantısız" texnologiya olduğundan ekoloji cəhətdən də böyük əhəmiyyət kəsb edir.

Ümidverici dəlillərə - elmi texniki tədqiqatlara əsaslanaraq demək mümkündür ki, bu gün tullantı sayılan məhsullar yaxın zamanda gərəkli xammala çevriləcək və onlardan təkrar emal yolu ilə qiymətli məqsədli məhsullar alınacağına heç şübhə yoxdur.

Müstəqil respublikamızın hərtərəfli inkişafı naminə bütün sənaye hədəflərini ekoloji təmiz, başqa sözlə, "tullantısız" və ya "az tullantılı", innovasiyayönümlü texnologiyalara keçirmək və istehsalata tətbiq etməklə ekoloji faciənin baş verməməsi istiqamətində daim dərin elmi tədqiqatlar-işləmələr aparmaq, ekoloji tarazlığı qoruyub sabit saxlamaq təxirəsalınmaz məsələdir. Bu da nəticədə bəşəriyyətin sağlamlığıdır, rəhnidir. Yoxsa bəşəriyyət daha ciddi təhlükəyə məruz qalar.

***Valeh CƏFƏROV,***
***AMEA-nın müxbir üzvü,***
***kimya elmləri doktoru, professor***

# COP29 könüllüləri "Təkrar emal fəalları" adlı təmizlik aksiyası keçiriblər

COP29 könüllüləri Bakının Sabunçu rayonunun Bakıxanov qəsəbəsində yerləşən parklardan birində "Təkrar emal fəalları" adı altında növbəti təmizlik aksiyası keçiriblər. Aksiya zamanı könüllülər park ərazisini təmizləyərək toplanmış məişət tullantılarını təkrar emal üçün "Təmiz Şəhər" ASC-yə təhvil veriblər. Ekoloji aksiya çərçivəsində könüllülər parkda istirahət edən sakinlərlə ictimai təmizliyə riayət olunması və şəhər parklarının ekoloji durumunun sağlamlaşdırılmasının əhəmiyyəti barədə maarifləndirici söhbət aparıblar. Könüllülər həmçinin bu ilin noyabr ayında Bakıda keçiriləcək COP29 konfransı barədə sakinləri məlumatlandırıb, onları maraqlandıran sualları cavablandırıblar.



Ekoloji tədbir "Təmiz Şəhər" ASC-nin tullantılarının idarə edilməsi fəaliyyəti ilə tanışlıqla davam edib. Aksiya çərçivəsində toplanan 230 kilodan çox həcmdə müxtəlif növ bərk məişət tullantıları könüllülər tərəfindən Bərk Məişət Tullantılarının Çeşidlənməsi Zavoduna növbəti təkrar emal üçün təhvil verilib. Müəssisəyə baş çəkən könüllülər tullantıların düzgün idarə edilməsi təcrübələri, müasir emal sistemləri və tendensiyalar haqqında faydalı məlumatlar əldə edib, tullantıların çeşidlənməsi, yerləşdirilməsi və zərərsizləşdirilməsi proseslərini əyani izləyə biliblər.

Qeyd edək ki, bu təşəbbüs COP29 könüllüləri tərəfindən iqlim dəyişmələri problemləri və onların həlli yolları, həmçinin bu istiqamətdə kollektiv və birgə fəaliyyətin rolu haqda ictimaiyyətin məlumatlılığının artırılmasına yönəlmiş davamlı fəaliyyətin bir hissəsidir.

# COP29 Radiospektrin idarə edilməsi portalı fəaliyyətə başlayıb

Bakıda keçiriləcək COP29 (BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası) konfransı üçün COP29 Radiospektrin idarə edilməsi portalı fəaliyyətə başlayıb.

Bu barədə COP29-un sosial şəbəkə hesablarında məlumat verilib.

"Dünyanın hər yerindən akkreditə olunmuş iştirakçılar indi bu portal vasitəsilə öz radioelektron avadanlıqlarını qeydiyyatdan keçirə və müvəqqəti radiospektrin ayrılması üçün müraciətlərini təqdim edə bilərlər", - paylaşımda vurğulanıb.

Xatırladaq ki, COP29 noyabrın 11-dən 22-dək Bakı şəhərində keçiriləcək.



# Antiazərbaycançı şəbəkənin məkrli planı iflasa məhkumdur

## ABŞ sülhə və sabitliyə böyük təhdid yaradır

### Vaşinqtonun Cənubi Qafqaza hazırkı gəlişi regiona yaxşı heç nə vəd etmir



"Azərbaycan Respublikası ümumbəşəri dəyərlərə sadiq olaraq dünya xalqları ilə dostluq, sülh və əmin-amanlıq şəraitində yaşamaq və bu məqsədlə qarşılıqlı fəaliyyət göstərməyi özünün 6 ali konstitusion niyyətindən biri kimi bəyan edib. Lakin istənilən əməkdaşlıq və fəaliyyət hər şeydən əvvəl Azərbaycan dövlətinin müstəqilliyi, suverenliyi və ərazi bütövlüyünün qorunmasının prioritetliyi səviyyəsində bərqərar ola bilər".

Bu fikirləri "Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin deputatı Bəhruz Məhərrəmov deyib. O qeyd edib ki, ötən dövr ərzində Prezident İlham Əliyevin rəhbərliyi altında ölkəmiz özünü hərbi-siyasi güc kimi təsdiq etdiyi yeni reallıqda da başqa dövlətlərlə münasibətlərini hamılıqla qəbul edilmiş beynəlxalq hüquq normalarında nəzərdə tutulan prinsiplər əsasında qurmaqda israrlıdır. O cümlədən ABŞ ilə münasibətlərə xüsusi həssaslıqla yanaşır və xalqlarımızın rifahı, dövlətlərimizin ədalətli mənafeləri naminə əlaqələrimizin inkişafına prioritet məsələ kimi baxılır.

Bu çərçivədə yaxın bir neçə ay ərzində ABŞ və Azərbaycan arasında ən ali səviyyədə kommunikasiyalar baş tutub.

ABŞ Prezidenti dövlətimizin başçısı İlham Əliyevə iki dəfə məktubla müraciət edib, Azərbaycanın enerji təhlükəsizliyi və terrorizmlə mübarizədə rolunu xüsusi vurğulayaraq ölkələrimiz arasında əlaqələrin perspektivlərinə inandığını bildirib. "Dildə eyni niyyətləri dəfələrlə ifadə etsə də, təəssüf doğurur ki, BMT idarəçiliyində yer tutan və beynəlxalq hüququn aliliyinin təmin olunmasına görə birbaşa məsuliyyət daşıyan aparıcı dövlət ABŞ reallıqda Azərbaycanın ərazi bütövlüyünü təmin etməsinə, 30 ildən artıq davam etmiş işğal, təcavüz, çoxsaylı müharibə cinayətləri və separatizmə son qoymasına qeyri-adekvat yanaşmalar nümayiş etdirməyə başlayıb. Belə ki, Azərbaycanın Vətən müharibəsi və antiterror tədbirlərində zəfərləri ilə işğala, təcavüzə son qoymasına, beynəlxalq hüququn təmin olunmasına ABŞ öz maraqlarına təhdid kimi yanaşaraq Konqresdə, o cümlədən xarici siyasət idarəsində ölkəmiz əleyhinə ciddi kampaniyalara start verdi. İstər Konqresin Nümayəndələr Palatası, istərsə də Senatda dəfələrlə Azərbaycanın haqq işinə münasibətdə qərəz və böhtan dolu, reallıqları əks etdirməyən davamlı bəyanatlar qəbul olunduğuna şahidlik etdik. Habelə ABŞ Dövlət Departamentinə və birbaşa Ağ Evə bağlı olan çoxsaylı media strukturları, o cümlədən "qeyri-hökumət" təşkilatları özlərinin saxta hesabatlarında Azərbaycanı az qala işğalçı və təcavüzkar kimi dünyaya təqdim etməyə çalışan yanaşma ortaya qoydular. Əslində, bu yanaşma bizi təəccübləndirmədi, çünki Azərbaycanın beynəlxalq hüquqla tanınan ərazilərinin 20 faizinin Ermənistan tərəfindən 30 illik işğalı dönəmində ABŞ vasitəçilik missiyası altında işğal və təcavüzün, o cümlədən münaqişənin dayanıqlılığı üçün faktiki olaraq bütün səylərini səfərbər etmişdi. Hazırkı Ermənistan ərazisi olan tarixi Azərbaycan torpaqlarından etnik azərbaycanlıların, o cümlədən Qarabağ və Şərqi Zəngəzurdan Azərbaycan vətəndaşlarının didərgin salınmasına, bir milyondan artıq insanın misli görünməmiş vəhşiliklərə, müharibə cinayətlərinə, etnik təmizləməyə, ayrı-seçkiliyə və digər qəbuledilməz məhrumiyyətlərlə üzləşməsinə baxmayaraq, Amerika Ermənistanı işğalçı və təcavüzkar adlandırmaqdan nəinki çəkinmiş, üstəlik, "Azadlığa Dəstək Akt"ına 907-ci düzəlişi qəbul etməklə faktiki olaraq işğal və təcavüzə çox ədalətsiz formada dəstək vermişdi", - deyə Bəhruz Məhərrəmov əlavə edib.

Deputat vurğulayıb ki, ABŞ ötən dövrdə Ermənistana davamlı hərbi-siyasi yardımları ilə vasitəçi kimi bitərəf olmadığını göstərərək işğalçı dövləti hərbi və siyasi cəhətdən gücləndirməklə Cənubi Qafqazda təcavüz meyillərinin davamlılığının iştirakçısı kimi çıxış edib. Azərbaycanın səyləri ilə BMT-nin Təhlükəsizlik Şurasının 4 qətnaməsinin qəbul edilməsinə baxmayaraq, onun daimi üzvü və faktiki olaraq təşkilatın idarəçiliyində əsas mövqe tutan ABŞ bu sənədlərin icrası istiqamətində tamamilə fəaliyyətsiz qalıb, beynəlxalq hüququn aliliyinin bu ölkə üçün ikinci, yaxud üçüncü dərəcəli məsələ olduğunu nümayiş etdirib. Təbii ki, Azərbaycan regionda sülh və sabitlik arzu edir. Biz regionda Vaşinqtonun mövcudluğundan yalnız bir halda narahat deyilik ki, ABŞ yalnız bərabərhüquqlu tərəfdaşlıq zəminində sülh və sabitliyə gətirib çıxaran mövqedə çıxış etməlidir.

Vaşinqtonun Cənubi Qafqaza hazırkı tempdə gəlişinin regiona yaxşı heç nə vəd etmədiyini deyən B.Məhərrəmov vurğulayıb ki, Ermənistan başa düşməlidir ki, bu ölkə ABŞ-yə hazırkı formada qucaq açmaqla özünü Qərb və Şərq qütbləri arasında hərbi plasdarma çevirir: "Bu da Ermənistan üçün son deməkdir. Lakin cənab İlham Əliyevin regionda yaratdığı geosiyasi reallıq, o cümlədən Azərbaycanın siyasi və iqtisadi cəhətdən tam müstəqil olması, çoxsaylı dövlətlərin enerji təhlükəsizliyində aparıcı mövqe tutması Vaşinqtonun regionda dağıdıcı təsirlərini minimuma endirdi. Digər tərəfdən Rusiya və Ukrayna arasında münaqişənin başlaması ilə Moskvanın Cənubi Qafqazda zəifləyəcəyini düşünən ABŞ Ermənistanı özünün forpostuna çevirməklə regionda dayaq nöqtəsi yaratmağı hədəfləyən siyasi kursa start verməkdədir. Məhz bu çərçivədə Ermənistan tərəfi ilə əməkdaşlığın genişləndirilməsi, Rusiyanın bölgədən sıxışdırılıb çıxarılması, o cümlədən Azərbaycanın qələbəsində ehtiva olunan status-kvonun Ermənistanın xeyrinə dəyişdirilməsi istiqamətində konkret tədbirlər planı tutulmasına başlanıldı. Bu gün əminliklə demək olar ki, 30 illik münaqişə dövründə ABŞ bölgədə sülh və sabitlik qarşısında necə əngəl kimi çıxış edibsə, Azərbaycan və Ermənistan arasında postmünaqişə dövründə yekun sülh müqaviləsinin imzalanması yolunda da əsas əngəllərdən biridir".

Müsahibimiz qeyd edib ki, Azərbaycan regionun lider dövləti olaraq prosesləri diqqətlə izləyir. Regionda yaranan hərbi-siyasi konfiqurasiyaya və əməliyyat şəraitinə tam şəkildə nəzarət edən dövlət kimi Azərbaycan bu bölgədə ssenarinin istənilən inkişaf tendensiyasına hazırdır. Bu özgüvən və qətiyyətli mövqenin kökündə isə Prezident İlham Əliyevin Müzəffər Ali Baş Komandanlığı altında qazanılan şanlı zəfərimizdən doğan güc və imkan, habelə dövlətimizin başçısının zamanında reallaşdırdığı layihələr, Vətən müharibəsi və antiterror tədbirləri ilə yaratdığı siyasi reallıq dayanır. Çoxsaylı maneələrə baxmayaraq, Azərbaycanın planlaşdırdığı nəqliyyat, kommunikasiya layihələrini reallaşdırması ölkəmizin qətiyyətini göstərməklə bərabər, həm də proseslərin düzgün proqnozlaşdırıldığını bir daha sübut edir.

Xüsusən Rusiya-Ukrayna münaqişəsi fonunda qütblərarası ziddiyyətin dərinləşdiyi zamanda Qərbin Azərbaycanın çoxsaylı maneələrə rəğmən reallaşdırdığı layihələrin önəmini daha dəqiq anladığına şahidlik edirik. "Sirr deyil ki, Vaşinqton Mərkəzi Asiyanın resurslarının Azərbaycan marşrutu üzrə realizəsinə Rusiya və Çin vasitəsilə nəqlinin alternativi kimi baxır. Heç şübhəsiz ki, bu da Qafqazda sülh və sabitliyin Vaşinqton üçün önəmini artırmalıdır. Lakin ABŞ-nin Zəngəzur dəhlizində hərbi-siyasi mövcudluğa cəhd etməsi Vaşinqtonun proseslərdə xoş olmayan niyyətini gizlətməyə imkan vermir. Xüsusən regionda özünün hərbi mövcudiyyəti üçün sülh və sabitliyə təhdid kimi baxan ABŞ Bakı ilə İrəvan arasında dayanıqlı sülhdə maraqlı olmadığını konkret əməlləri ilə göstərir. Azərbaycan və Ermənistan arasında yekun sülh müqaviləsinin imzalanmasının geosiyasi əhəmiyyəti Azərbaycanın davamlı şəkildə gündəlikdə saxladığı məsələ olub. Prezident də öz çıxışlarında dəfələrlə bəyan edib ki, regionda sülh və əməkdaşlıq mühiti bütövlükdə dünyanın geosiyasi konfiqurasiyasına təsirini göstərəcək. Lakin təəssüflər olsun ki, məhz ABŞ-nin patronajlığında Qərb qütbünün Azərbaycanla Ermənistan arasında yekun sülhün əldə olunması prosesində mövqeyi birmənalı olmayıb, indi də ikili standartlara əsaslanmaqda davam edir", - deyə deputat bildirib.




B.Məhərrəmov qeyd edib ki, Ulu Öndər Heydər Əliyevin Azərbaycanın siyasi müstəqilliyinə nail olması, Prezident İlham Əliyevin isə siyasi müstəqilliyimizi daha da möhkəmləndirməsi, tam iqtisadi müstəqilliyi təmin etməsi, həyata keçirdiyi ordu quruculuğu, xalq-dövlət-ordu birliyinə tam şəkildə nail olması regionda ABŞ daxil olmaqla Qərb imperializminin arzuladığı və qorumağa çalışdığı status-kvonu əsaslı formada dəyişib. Yaxın və Orta Şərqdə, Asiyada, Şimali Afrikada milyonlarla insanın məhvinə səbəb olan ABŞ-dən fərqli olaraq Azərbaycan öz torpaqlarını işğaldan, təcavüzdən və separatizmin təsirlərindən azad edərkən beynəlxalq humanitar hüququ rəhbər tutub, mülki əhalini heç bir formada hədəfə almamaqla dünyaya, o cümlədən ABŞ-yə insanlıq dərsi keçib.

Deputat bildirib ki, ərazi bütövlüyünü, suverenliyini öz gücü hesabına bərqərar etmiş Azərbaycan qüdrətli və diktə edən beynəlxalq subyekt kimi regionda qeyri-adekvat niyyətlər üçün alət ola bilməz. Əgər hər hansı güc bölgədə maraqlarını müdafiə etmək niyyətindədirsə, Azərbaycanın yaratdığı status-kvo ilə hesablaşmağa məcburdur. Bu mənada Ermənistanın yenidən silahlandırılması, yaxud Zəngəzura Qərb ölkələrinin, ən əsası ABŞ hərbi qüvvələrinin cəmləşdirilməsi, revanşizm naminə bu ölkəyə yeni texnologiyalar vəd edilməsi özlüyündə bölgədə heç nəyi dəyişə bilməz, əksinə, Ermənistanı yenidən münaqişəyə təşviq etməklə bu ölkədə dövlət böhranının daha da dərinləşməsinə səbəb olar. Heç kim unutmamalıdır ki, yeni dövr üzrə Azərbaycanın xarici siyasət kursunda Ermənistanla münasibətlər prioritet deyil.

B.Məhərrəmovun sözlərinə görə, Fransanın ardınca ABŞ-nin də Cənubi Qafqazda dayanıqlı sülhün, davamlı sabitlik perspektivlərinin, xalqların birgəyaşayış və qarşılıqlı etimad mühitinin formalaşmasının qarşısında əsas əngəl kimi çıxış etməsi yalnız Azərbaycanın deyil, bütövlükdə regionun problemidir: "Lakin ABŞ-nin qeyri-adekvat davranışlarına region dövlətlərinin lazımi reaksiya verməməsi ciddi narazılıq doğurur. Şimal qonşumuz və regionun təhlükəsizlik konfiqurasiyasının aparıcı həlqələrindən biri olan Rusiyanın ABŞ-nin Ermənistanda möhkəmlənməsini görməzdən gələn yersiz arxayınlıqla ehtiva olunan mövqeyi təəssüf doğurur. Bu, regiona yaxşı heç nə vəd etmir. Əlbəttə, proseslərin istənilən istiqamətdə inkişafı suveren və müstəqil siyasi kursa malik, tam şəkildə əməliyyat şəraitinə nəzarət edən Azərbaycan üçün heç bir təhdid doğurmur. Lakin bölgədə qüvvələr balansının dəyişməsi bölgənin aparıcı dövlətlərindən biri kimi Rusiyanın maraqları üçün çox ciddi təhdid deməkdir. Ermənistan sərhədlərinin mühafizəsinin hələ də Rusiya təhlükəsizlik qüvvələri tərəfindən təmin olunduğu bir dövrdə ABŞ-nin ordu hissələrinin Ermənistana gəlməsini, xüsusən Zəngəzur dəhlizi istiqamətində mövqelərin qurulması ilə bağlı məlumatların yayılmasını Kreml ciddi şəkildə araşdırmalıdır. O cümlədən qardaş Türkiyə bu məsələlərlə bağlı daha aktiv səylərdə bulunmalıdır. Türkiyə rəsmilərinin özlərinin də ifadə etdiyi kimi, İraqın və Suriyanın şimalındakı terrorçulara dəstək verilməsindən tutmuş Türkiyə daxilində FETO əli ilə çevrilişlərə can atılmasına yol açan situasiyanın təməlində məhz Vaşinqton dayanır. Eyni zamanda Yunanıstanla Türkiyə arasında ritorikanın gərginləşdiyi dönəmdə ABŞ-nin Türkiyənin qərb qonşusuna verdiyi açıq dəstək görməzdən gəlinə bilməz. Belə bir situasiyada Amerikanın Ermənistanda möhkəmlənməsi Rusiyaya olduğu qədər Türkiyənin maraqlarına da təhdid yaradır".

Proseslərin gedişatında ən qəribə və təəssüf doğuran mövqenin isə İranın sərgilədiyini vurğulayan deputat deyib ki, özünün hərbi-siyasi doktrinasında ABŞ-ni əzəli düşmən elan edən, regiona üçüncü qüvvələrin gəlməsini təhdid sayan, o cümlədən Ermənistanın sərhədlərinin "dəyişməsini" özünün qırmızı cizgisi elan edən İran bu gün şimal sərhədində - Ermənistan ərazisində, İran-Ermənistan magistralının tam şəkildə ABŞ-nin hərbçilərinin nəzarətinə keçməsinə susqunluqla yanaşır. Heç şübhəsiz ki, Tehran Zəngəzur dəhlizində yerləşən ABŞ ordusunun ilk hədəfinin məhz İran olduğunu bilməmiş deyil, bununla belə cənub qonşumuzun aidiyyəti adekvat reaksiya göstərməməsi təəccüb doğurur.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

## Ermənistan Naxçıvanı atəşə tutmaqla sülhə qarşı çıxır



Son vaxtlar Ermənistanın Azərbaycanla şərti sərhəddə təxribatları genişləndirmə səyləri müşahidə olunur. Sülh prosesi istiqamətində müəyyən müsbət irəliləyişlərin əldə olunduğu bir vaxtda havadarlarına arxalanan Ermənistanın vəziyyəti gərginləşdirməyə çalışması prosesi ləngitmək istəyindən bir daha xəbər verir.

Naxçıvan istiqamətində mövqelərimizin Ermənistan silahlı qüvvələrinin bölmələri tərəfindən ardıcıl olaraq atıcı silahlardan atəşə tutulması bunu bir daha göstərir.

Milli Məclisin deputatı Arzu Nağıyev mövzu ilə əlaqədar qəzetimizə açıqlamasında bildirib ki, Azərbaycanla Ermənistan arasında sülh müqaviləsinin imzalanması məsələsi gündəmə gəldikcə və müddəaların dəqiqləşdirilməsi istiqamətində addımlar atıldıqca bunu istəməyən qüvvələr daha da fəallaşırlar. O qeyd edib ki, atəşkəsin pozulması sülhün qarşısını alan əsas addımlardan biridir. "Əsas məsələ odur ki, burada yalnız Ermənistanın marağı deyil, həm də Qərbin məkrli məqsədləri var. Ümumiyyətlə, bəzi Qərb ölkələri Azərbaycanla Ermənistan arasındakı məsələlərlə bağlı qərəzsiz, şəffaf mövqe ortaya qoymurlar. Onlar Ermənistanı təxribatlara təhrik etmək üçün əllərindən gələni edirlər. ABŞ, Fransa kimi dövlətlər silah-sursat göndərib Ermənistanı silahlandırmaqla müxtəlif problemlər yaratmağa çalışırlar. Digər məqam isə odur ki, bəzi Avropa ölkələri ilə yanaşı, sülh müqaviləsinin imzalanmasını istəməyən qonşu İran da var", - deyə o bildirib.

Deputatın sözlərinə görə, Paşinyan hakimiyyəti həm daxili qüvvələr, həm də xarici havadarlarla oynamaqla, nəyin bahasına olursa-olsun, təklif olunan bir sıra müddəaları çıxartmaq şərtilə sülh müqaviləsinin imzalanmasına çalışır: "Amma ümumilikdə əsas məqsəd sülh müqaviləsinin imzalanmasını uzatmaqdır. Lakin Azərbaycanın güclü ordusu var və təcavüzkar Ermənistanın hər bir addımına hazırdır. Onun təxribatlarına qarşı adekvat addımlar atılır və bundan sonra da atılacaq. Bütün bunlar nəzərə alınıb".

Ermənistanın belə hərəkətlərlə özünə müsbət imic qazana bilməyəcəyini vurğulayan A.Nağıyev əlavə edib ki, Qərb regionda yaranan hər hansı münaqişənin böyük müharibəyə çevrilə biləcəyini anlamalıdır. Yeni münaqişə ocaqları sülhün qarşısını almaqla, ümumilikdə regionda vəziyyətin gərginləşməsinə, sabitliyin pozulmasına gətirib çıxara bilər.

***Ə.QARDAŞXANOVA,***
***"Azərbaycan"***

## Ermənistan Qərb dairələrinin təsiri altında bölgədə təxribatlar törədir



"Ermənistan heç bir halda müstəqil bir ölkə deyil. O, Qərbin, Avropa İttifaqı ölkələrinin təsiri altında bölgədə təxribatlar törədir".

Bunu Trend BİA-nın direktor müavini, siyasi şərhçi Sahil Kərimli deyib. O qeyd edib ki, Ermənistanın silahlandırılması bu günün və ya dünənin işi deyil.

"Uzun müddətdir ki, yenidən Avropa İttifaqı ölkələri, Qərb dairələri Ermənistanın kütləvi şəkildə silahlandırılmasını həyata keçirir. Burada əsas məqsəd Cənubi Qafqazda sülhə və təhlükəsizliyə təhdid yaratmaqdır. Azərbaycanın İkinci Qarabağ müharibəsindən sonra yaratdığı reallıqlar var və Azərbaycan bu reallıqları özü diktə edir. Bir sıra Qərb dairələrinin əsas məqsədi Cənubi Qafqazda gərginlik yaratmaq və bundan faydalanaraq öz varlıqlarını qoruyub saxlamaq istəyidir. Ermənistan da bu cür təxribatçı oyunların bir parçası olur.

Bu gün Azərbaycan regionda dayanıqlı sülhə nail olmaq istəyir. Bizim məqsədimiz odur ki, Ermənistanla dayanıqlı sülh əldə edək", - deyə S.Kərimli əlavə edib.

## *Hayastanda sensasion iddia:* Paşinyan Bakıya gedir

Hayastanla Azərbaycan arasında 30 il davam edən Qarabağ münaqişəsinə son qoyulsa da, sülh müqaviləsinin imzalanmaması regionda sabitliyə təhdid yaradır.



Bunun da yeganə səbəbi cəmi 44 günə Azərbaycan qarşısında çöküb savaşın dayandırılmasını xahiş edən İrəvanın destruktiv mövqeyi və təxribatlarıdır.

Son günlər erməni siyasi ekspertlərin verdiyi açıqlamalar göstərir ki, Hayastanın rifahı, ümumiyyətlə, dövlət olaraq varlığı Azərbaycanla normal münasibətlərdən keçir. Buna görə də düşdükləri ağır durumdan xilas olmağın yollarını axtarırlar. Çünki artıq xaricdəki diaspor da onların imdadına çata bilmir.

Erməni politoloq Xaçik Qalstyan deyib ki, Paşinyan Prezident İlham Əliyevin dəvətini qəbul edərək, COP29-da iştirak üçün Bakıya gedərsə, Azərbaycanın Minsk qrupunun ləğv edilməsi üçün birgə bəyanatın verilməsi ilə bağlı istəyini yerinə yetirəcək. O, Bakıya getməmişdən öncə bu haqda açıqlama verəcək.

Qalstyan bildirib ki, Bakının sülh sazişini imzalamaq üçün İrəvandan iki məsələni tələb etdiyi artıq məlumdur: "Bunlardan biri Hayastan konstitusiyasının dəyişdirilməsi, digəri isə Minsk qrupunun buraxılması ilə bağlıdır. Ermənistan yaxın vaxtlarda Bakının Minsk qrupu ilə bağlı tələbini icra edəcək və bu formatın depoziture ləğvi haqda ərizə verəcək. Xarici İşlər Nazirliyinin son açıqlaması da bunu deməyə əsas verir. Paşinyan noyabrda keçiriləcək COP29 tədbirində iştirak üçün Bakıya yola düşə bilər, ona qədər isə Əliyevin tələblərini icra edəcək".

Erməni politoloq iddia edir ki, Paşinyan Əliyevin tələblərinə müqavimət göstərə bilmir: "Onlar Zəngəzur dəhlizindən danışırlar, həm də bu məsələni sülh sazişi mətnindən çıxarırlar. Bu, istədiklərini etmək üçün lazımdır. Hayastan tərəfi də prosesin içindədir. İndiyə qədər azərbaycanlıların Sünikə (Zəngəzurred) qayıdışı ilə bağlı heç bir rəsmi qadağa səslənməyib, bu o deməkdir ki, arxada razılaşmalar var".

Göründüyü kimi, Hayastanın siyasi isteblişmenti də başa düşür ki, İrəvanın təcrid vəziyyətdə qalaraq inkişaf etməsi mümkünsüzdür və ötən zaman bunu çox aydın göstərib. Azərbaycan Hayastana vəziyyətdən çıxmaq naminə sülh müqaviləsinin imzalanması üçün şans verib. Proseslərin gedişi göstərir ki, Paşinyan hakimiyyətinin sülh sazişinə "hə" deməkdən başqa yolu yoxdur.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

**«AZƏRBAYCAN» qəzetinin 1919-cu il 10 aprel (Cümə axşamı günü) tarixli 154-cü nömrəsinin ADA Universitetinin dəstəyi ilə transliterasiyası**



# AZƏRBAYCAN

Pəncşənbə, 9 rəcəbül-mürəccəb sənə 1337. 10 nisan 1919 sənə.

Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir

Məhəlli-idarə:
Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi.

Telefon nömrə: 39-60.

Tək nüsxəsi 1 manat.

Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır.

Dərc olunmayan övraq iadə edilməz.

Dərc edilən məqalatın mükafatını idarə təyin edir.

Abunə şəraiti:
Bakı üçün 1 aylığı 20 rublə,
2 aylığı 35 rublə, 3 aylığı 50 rublə.
Qeyri şəhərlər üçün 1 aylığı 25 rublə,
2 aylığı 45 rublə, 3 aylığı 60 rublədir.

Elan fiatı: birinci səhifədə sətri 4 rublə,
axırıncı səhifədə sətri 3 rublə,
itən şeylər və yer axtaranlar üçün 2 rublə.

## İNNA LİLLAHİ VƏ İNNA İLEYHİ RACİUN

İsmayıl bəy və Tağı bəy Səfərəliyevlər öz sevgili qardaşı oğlu **Həsən bəy Səfərəliyevin** aprelin 8-də Tiflisdə bivaxt vəfat etdiyini kamali-hüzn və təhəssürlə [böyük bir hüzn və kədərlə] öz qövm-əqrəba və dost-aşnalarına məlum edirlər.

Mərhumun cənazəsi bu gün aprelin 10-da Şaxski küçədə öz 25 nömrəli evlərindən Təzəpir məscidinə aparılacaqdır.

## İNNA LİLLAHİ VƏ İNNA İLEYHİ RACİUN

Ağa bəy, Əliisgəndər bəy Səfərəliyevlər öz sevgili əmisi oğlanları **Həsən bəy Səfərəliyevin** aprelin 8-də Tiflisdə bivaxt vəfat etdiyini kamali-hüzn və təhəssürlə öz qövm-əqrəba və dost-aşnalarına məlum edirlər.

Mərhumun cənazəsi bu gün aprelin 10-da Şaxski küçədə öz 25 nömrəli evlərindən Təzəpir məscidinə aparılacaqdır.

## İNNA LİLLAHİ VƏ İNNA İLEYHİ RACİUN

Paşa və Həsən Dadaşovlar öz sevgili əmisi nəvəsi Həsən bəy Səfərəliyevin aprelin 8-də Tiflisdə bivaxt vəfat etdiyini kamali-hüzn və təhəssürlə öz qövm-əqrəba və dost-aşnalarına məlum edirlər.

Mərhumun cənazəsi bu gün aprelin 10-da Şaxski küçədə öz 25 nömrəli evlərindən Təzəpir məscidinə aparılacaqdır.

## İNNA LİLLAHİ VƏ İNNA İLEYHİ RACİUN

Əhmədəli, Həsən, Əsəd Hacıyevlər öz sevgili arxadaşları **Həsən bəy Səfərəliyevin** aprelin 8-də Tiflisdə bivaxt vəfat etdiyini kamali-hüzn və təhəssürlə öz qövm-əqrəba və dost-aşnalarına məlum edirlər.

Mərhumun cənazəsi bu gün aprelin 10-da Şaxski küçədə öz 25 nömrəli evlərindən Təzəpir məscidinə aparılacaqdır.

## İNNA LİLLAHİ VƏ İNNA İLEYHİ RACİUN

Məhəmməd bəy, Əli bəy, Hüseyn bəy Səfərəliyevlər öz sevgili qardaşları **Həsən bəy Səfərəliyevin** aprelin 8-də Tiflisdə bivaxt vəfat etdiyini kamali-hüzn və təhəssürlə öz qövm-əqrəba və dost-aşnalarına məlum edirlər.

Mərhumun cənazəsi bu gün aprelin 10-da Şaxski küçədə öz 25 nömrəli evlərindən Təzəpir məscidinə aparılacaqdır.

## İNNA LİLLAHİ VƏ İNNA İLEYHİ RACİUN

Hacızadə İsmayıl Haqqı bəy öz sevgili arxadaşının **Səfərəliyev Həsən bəyin** nisan səkkizində vəfat etdiyini kamali-hüzn və təəssüf ilə öz qövm-əqrəba və dost-aşnalarına məlum edirlər.

**Ey qara torpaq**

Yetişir, vah, yetişir, çəkdirdiyin ahlar
Ey alçaq, aləmə cəlladmı gəldin
Mərhəmətsiz, bir metro münbit toprağında yatıyor
yüz minlərlə aslanlar
Bax, səni şəkva [şikayət] edərəm Xudayi-ləmyəzələ
[əbədi olan Allaha]
Mən qıymaz idim Həsənin
birçəyinin bir telinə
Ah, sən necə qıydın bu gənc vətənin cavan övladının
canına
Lazım olmazmıydı bu vətənə
Həsən bəy kimi gənclər
Ah, xain torpaq, mən der idim
Həsən başəriyyət suyunda
dal-budaq [qol-budaq] atacaq
Ah, nə çarə, qədərdə böylə imiş,
o cavan canını sənin kimi
alçaq qara torpaq yutacaq
Axırı Həsənə tabut ilə
kəfəni yoldaş olacaq
Aç, vətən, sinəni ilahına aç
De ki, ey alçaq qara topraq,
aləmə cəlladmı gəldin
Ey kafir, tez çıxar,
çıxar bu kimi gəncləri ortaya saç
Mənim qardaşım,
Allah sənə çox rəhmət eyləsin
Cənnət cəmalıyla sevindirsin
Mən səndən razıyam,
Allah da səndən razı olsun
Allah rəhmət eyləsin
Amin

*İsmayıl Haqqı*

## İNNA LİLLAHİ VƏ İNNA İLEYHİ RACİUN

Əliəsgər Hüseynov öz sevgili bacısı oğlu **Həsən bəy Səfərəliyevin** aprelin 8-də Tiflisdə bivaxt vəfat etdiyini kamali-hüzn və təhəssürlə öz qövm-əqrəba və dost-aşnalarına məlum edirlər.

Mərhumun cənazəsi bu gün aprelin 10-da Şaxski küçədə öz 25 nömrəli evlərindən Təzəpir məscidinə aparılacaqdır.

## İNNA LİLLAHİ VƏ İNNA İLEYHİ RACİUN

Kamil bəy, Xosrov bəy və Sadiq bəy Səfərəliyevlər öz sevgili əmisi oğlanları **Həsən bəy Səfərəliyevin** aprelin 8-də Tiflisdə bivaxt vəfat etdiyini kamali-hüzn və təhəssürlə öz qövm-əqrəba və dost-aşnalarına məlum edirlər.

Mərhumun cənazəsi bu gün aprelin 10-da Şaxski küçədə öz 25 nömrəli evlərindən Təzəpir məscidinə aparılacaqdır.

## İNNA LİLLAHİ VƏ İNNA İLEYHİ RACİUN

Məhəmməd Məhəmmədov, İbrahim Əsədullayev, Əlisəttar Babayev və Bəhman Əliyev öz sevgili arxadaşları **Həsən bəy Səfərəliyevin** aprelin 8-də Tiflisdə bivaxt vəfat etdiyini kamali-hüzn və təhəssürlə öz qövm-əqrəba və dost-aşnalarına məlum edirlər.

Mərhumun cənazəsi bu gün aprelin 10-da Şaxski küçədə öz 25 nömrəli evlərindən Təzəpir məscidinə aparılacaqdır.

## ELAN

1919 sənəsi aprel ayının 10-da pənc-şənbə [cümə axşamı] günü gündüz saat 11-də Azərbaycan Məclisi-Məbusanının iclası olacağı elan edilir.

*T-96*

## OPERA

Hökumət Teatrosunda
Axşam tamaşası
Zülfüqar bəy və Üzeyir bəy Hacıbəyli Qardaşları
Müdiriyyəti
Cümə günü rəcəbül-mürəccəb [mübarək rəcəb] ayının 10-da 1337 sənəsi (aprelin 11-də 1919-cu ildə) təntənəli bir surətdə mövqeyi-tamaşaya qoyulacaq Üzeyir Hacıbəylinin yazmış olduğu məşhur
**"Şah Abbas və Xurşidbanu"** operası.
Böyük musiqi dəstəsi, qızlar və oğlanlar xoru və balet.
Biletlər indidən teatrın kassasında satılmaqdadır. Tamaşa başlanacaq axşam saat 8-in yarısında.

## ELAN

Bakı Şəhər İdarəsi bununla elan edir ki, aprelin 11-də saat 12-də Təsərrüfat şöbəsinin dəftərxanasında Bulvarda Kazyonnı pristan ilə rubəru [üzbəüz] olan şəhər budkasının icarəyə verilməyi üçün torq [hərrac] olacaqdır. Müzayidə şəraitini [hərrac şərtlərini] şöbənin dəftərxanasında saat 9-dan 3-ə qədər oxumaq olar.

*T-95*

Aprel (nisan) ayının onunda Bakıda "İttihad" firqəsinin ümumi deleqat iclası vaqe olacaqdır. Azərbaycanda mövcud olan firqənin ümum şöbələri tərəfindən şu iclasa nümayəndələr intixab edib [seçib] göndərməlidirlər. Hər şöbə əzasının [üzvlərinin] miqdarına nisbətən hər iyirmi kişiyə [nəfərə] bir nümayəndə göndərməlidir. İclasda müzakirə ediləcək məsələlər: 1) Mərkəzi-ümumi intixabı; 2) Proqram məsələsi; 3) Başqa məsələlər.

*5792*

## QİSMİ-RƏSMİ

**Ərzaq Nəzarətindən**
Əmrnamə nömrə 124
6 aprel 1919

Ərzaq naziri müvəkkili Yusifəli Əliyev Azərbaycan Məclisi-Məbusanına xalq nümayəndəsi seçildiyindən 1919 sənəsi fevralının 21-də istefası haqqında ərizə vermişdir.

Təhti-idarəmdə bulunan Nəzarətin [idarəm altındakı Nazirliyin] bu sədaqətli, yorulmaz və hər cəhətdən eyibsiz xidmətçisi ilə kədərlə ayrılaraq, xidmət namından ona bəyani-təşəkkür etməyi bir vəzifeyi-məhzuzədd edərək [məmnuniyyət verən bir iş hesab edərək] yeni, ali və məsuliyyətli xalq nümayəndəliyi vəzifəsində də ona səmimi-qəlb ilə müvəffəqiyyət diləröm.

Yusifəli Əliyevin istidasını [xahişini] qəbulla, bu il fevral ayının 21-dən etibarən onu xidmətindən azad edir.

*Ərzaq naziri Lizqar*

## ƏYRİ YOL

Gəncə Türk Müəllimləri İttifaqı tərəfindən Maarif Nəzarətinə qarşı şikayət və tətili təmdid [uzatmaq] məzmunlu bir teleqram alındığını qəzetələrdə oxuduq.

Müəllimlər İttifaqı Maarif Nəzarətindən şikayət edirlər ki, "sair Nəzarətlər öz məmurlarının maaşını art[ır]dığı halda, Maarif Nəzarəti bu xüsusda heç bir iş görməyib", müəllimlərin halına yanmır. Buna görə Gəncə Türk Müəllimlər İttifaqı Nəzarətin bu tövr "müamiləsinə" [rəftarına] qarşı protesto olmaq üzrə üç günlük tətil elan edibdirlər.

Müəllimlərin, baxüsus [xüsusilə] xalq müəllimlərinin məvacib azlığı xüsusunda iki rəy ola bilməz. Müəllimlər məvacibi indiki məişət şəraitinə görə o qədər azdır ki, o az pul ilə güzəran etmək dedikcə çətin bir əmrdir [işdir]. Məsələn, xalq müəllimlərinin məvacibi olan dörd yüz otuz beş manata nəinki külfətdar [külfət sahibi] və ailə sahibi olan bir müəllim, hətta subay adamlar da dolana bilməzlər. Halbuki təlim və tərbiyə kimi olduqca ağır və məsuliyyətli bir vəzifə ilə mükəlləf olan [vəzifə daşıyan] müəllim bu vəzifəsini layiqincə ifa edə bilmək üçün məişət qayğısı kimi əngəl və mümaniətlərdən [maneçiliklərdən] bilkülliyyə [tamamilə] asudə olmalıdır. Asudə olmazsa, şübhəsiz, ifayi-vəzifə yolunda yoxsulluq qayğılarına düçar olub da hər dəfə dayanmaq və bu qayğıları rəf etmək [aradan qaldırmaq] üçün vəzifə xaricində işlər görmək məcburiyyətində olar. Bu isə bir gündə gedilə bilən yolu on gün təxirə salar.

Çox az müəllim tapılar ki, özünün və ailəsinin ac və ənvai [müxtəlif] ehtiyac içində olduğu əmrə göz yumub da bütün diqqətini məhz ifayi-vəzifə üçün münhəsir [həsr] edə. Zatən öylə bir müəllim olsa da, onun bu hərəkəti ailə sahibliyi nöqteyi-nəzərindən şayani-təhsin ədd edilə bilməz [təqdirəlayiq sayıla bilməz]. Çünki hər kəs özünün və baxüsus ailəsinin mürəffəhülhal [rifah içində] dolanması xüsusunda çalışıb qeydkeş olmalıdır.

Müəllim məvacibinin azlığı bir çox müəllimləri və hətta müqtədirlərini [güclülərini, təcrübəlilərini] öz vəzifəsindən əl çəkib də başqa "kəsb" [qazanc] dalınca getməyə vadar etdiyindən, müəllimə möhtac olduğumuz bu zamanda müəllim azlığı çəkirik. Vaqiən [doğrudan da] əgər işlər böylə gedərsə, bir az çəkməz ki, böyük müharibənin cürbəcür tühəf [qəribə] nəticələri qəbilindən ədd edilən [sayılan] və hər yerə yayıldığı kimi bizim aramızda dəxi "hakimiyyət" edən "alver", daha doğrusu, "ispekulyas" həvəsi ümum müəllimlərə də sirayət etmək üçün müsaid bir şərt bulunub müəllimlərimizi bilkülliyyə əlimizdən alar.

Lakin müəllimlərimizin məvacib azlığını iqrar [təsdiq] və maaşlarının artırılmaq lüzumunu etiraf etməklə bərabər, Gəncə Müəllimlər İttifaqının maaş artırmaq haqqında ibraz etdikləri [nümayiş etdirdikləri] hərəkəti, yəni protest və tətil təmdidi əməllərini heç də xoşlaya bilmərik.

Zənnimizcə, zabastovka işi müəllimlər sinfinə yaraşan hərəkətlərdən deyildir.

Müəllim ilə Maarif Nəzarətinin münasibatı, fəhlə ilə sahibkar münasibatı kimi ola bilməz və müəllimlik işi dəxi çarx işlətmək deyildir. Müəllimlər dövlətimizin maarifi yolunda çalışmaq vəzifəsini mükəlləf olan Maarif Nəzarətinin əzalarıdırlar [orqanlarıdır]. Burada "zəhmət və kapital" mübarizəsi yoxdur. Ola bilsin ki, bu gün Maarif Nəzarətində nəinki yalnız bir müəllimlərin, bəlkə nazirin özündən tutmuş başqa məmurların dəxi məvacibi azlıq edir. Bu nöqteyi-nəzərdən müəllimlər tətili, fəhlə tətilinin sahibkarın cibinə verdiyi zərər və hissiyyatına vurduğu əsər qüvvətində olmayıb, ancaq bir siyasi və bir də pedaqoji cəhətcə istiqlalımıza qarşı sui [mənfi] təsirlər buraxa bilər ki, bunu da müəllimlərimiz başa düşmək istəmədiyi halda, kim istər?

Siyasi cəhətinə gəlincə, bunu deməliyik ki, fəhlə sinfi iqtisadi tətil və zabastovka elan edərkən, bu tətil həman iqtisadi rəngdə baqi qalır. Halbuki Türk Müəllimlərimiz İttifaqı bu gunə [bu növ] iqtisadi tətilə mübaşir olarlarsa [başlasalar], bunun nəticəsi başqa olar. Tətil işi iqtisadi rəngdən dönüb, siyasi rəngdə nəticələr törədə bilər. Bu gün Türk Müəllimlər İttifaqı, yarın Türk Məmurlar İttifaqı və o biri gün başqa bir türk təşkilatı iqtisadi də olsa tətillər yapmağa başlarsa, axırda məmləkətimizdə intizamsızlıq və "demoralizatsiya" əmələ gəlib anarşi halına qədər sürünərik. Və bir də Azərbaycana qarşı bədxah olanların cürbəcür iqtisadi və siyasi tətil və zabastovkaları bizi o qədər təciz edibdir [incidibdir] ki, ruhumuz belə inciyibdir. Odur ki, türk müəllimlərinin tətil etməyi, əminik ki, yalnız bədxahlarımız tərəfindən məmnuniyyətlə və razılıqla qarşılana bilər.

Pedaqoji cəhətincə dəxi bu tətilin heç bir müəllimin istəməməyi lazım gələn sui təsirlər bəxş edəcəyi aşkardır. Müəllimlərin tətili mütəallimlərə [şagirdlərə] fəna surətdə əsər [təsir] edər, şagirdanın [şagirdlərin] əxlaqını pozar. Mütəallim öz müəllimini adi şəxslər cümləsindən hesab etməyir, ona ruhani [mənəvi] və müqəddəs bir ata nəzərilə baxır. Əgər bu ata məvacib azlığına görə "küsüb" məktəbi boşlarsa, o halda onun ruhanilik nüfuz və heysiyyəti mütəallimin nəzərindən düşər, müqəddəs ehtiram aradan götürülər. Əlavə, müəllim məvacibi azlığında hər kəsin günahı varsa, hər halda hamıdan günahsız şagirdlərdirlər. Öylə olan surətdə tətil əməlinin sui təsiri nədən ötrü bilavasitə bu günahsızlar üzərində olsun! Təlim işi onsuz da bu il intizamsız bir surətdə icra edilir. Əgər bu intizamsızlıq bir də müəllimlər tətili ilə bərkiyərsə, o halda deməli, bu ilin təlim işi heç!

Bunlar hamısı keçəndən sonra Gəncə Türk Müəllimlər İttifaqının Maarif Nəzarətimizi ətalət və qeydsizlikdə ittiham etməsi haqsızdır. Orası doğru deyildir ki, "sair nəzarətlər öz məmurlarının maaş artırılması əmri haqqında çalışarkən Maarif Məzarəti çalışmır". Bizə məlum olduğu üzrə Maarif Nəzarəti, maarif müfəttişləri yığıncağı günündən bəridir ki, müəllimlər maaşı artırılması xüsusunda böyük bir qanun layihəsi hazırlamaqdadır ki, o qanun layihəsi əgər Nazirlər Şurasından və Parlamandan keçərsə, müəllimlər halının yaxşı olmasına çox təfavüt edib, məişətlərini yüngülləşdirər. Zənn edirəm Maarif Nəzarətində bu xüsusda qanun layihəsi hazırlandığı fəqərəsi [məsələsi, hadisəsi] Gəncə müəllimlərinə dəxi məlumdur. Çünki bu xüsusda onlara deyilibdir. Böylə olan surətdə, birdən-birə tətil elanının və Maarif Nəzarətinə qarşı şiddətli bir lisanla protesto yapmağın başqa mənasını anlaya bilmirik. Hər halda Müəllimlər İttifaqı maaş artırmaq tələblərini zabastovkalarla keçirmək istəyəcəksə, istiqlaliyyətimiz nöqteyi-nəzərindən əyri yollarla getmək qəsdində olduğunu bildirəcəkdir. Bu isə arzu edilməyən hallardandır.

Maarif Nəzarətinin yalnız bir işinə heyfislənmək gəlir ki, bu layihəni tezliklə düzəldə bilməyibdir ki, müəllimlər vaxtında maaşları artırılmaqla şikayət etməyə məcbur olmasınlar. Lakin Maarif Nəzarəti işlərindən dürüst xəbərimiz olduğuna görə, biz ona heyfislənməyirik ki, Nəzarətin işləri ətalətlə keçir. Bəlkə heyfislənməyimiz işin çoxluğuna və vaxtın azlığınadır.

*Hacıbəyli Üzeyir*

## AZƏRBAYCAN MƏCLİSİ-MƏBUSANINDA

**19-cu iclas**

*(keçən nömrədən mabəd)*

**Sədr** - Söz Parlaman üzvü Malxazyanındır.

**Malxazyan** - Azərbaycan Parlamanının möhtərəm üzvləri! Mövqeyi-müzakirəyə qoyulmuş olan Daxiliyyə Nəzarəti layihəsinin iki cəhəti vardır. Birisi rəsmi cəhətdir ki, layihənin dürüst və qanuni olduğunu təhqiq etmək, digəri isə daxili qismidir.

Rəsmi cəhətdən bəlkə etiraz olmaya da bilər, fəqət daxili cəhətinə, daha doğrusu layihənin təqib etdiyi məqsədlərə erişmək üçün yürüdülən xətti-hərəkətə etiraz edilər. Hər məmləkətdə Daxiliyyə Nəzarəti bir köşə daşıdır ki, dövlət ideyasının təhkim və təsisi işləri, nizam və asayiş bərpası, qanun, səlaməti-şəxsiyyə və mülkiyyə [şəxsiyyət və mülkiyyət toxunulmazlığı] əsasları həp onun üzərində icra olunur. Daxiliyyə Nəzarəti bir hökumət qəbul və təsdiqi ideyasını yaradıb möhkəmləşdirə də bilər, onu dağıda da bilər. Parlamana təqdim edilmiş olan layihənin müəllifləri bunu yaxşı bilirlər və məmurların miqdarı və məvaciblərin artırılmasının qəbul və təsdiqinə səbəb olmaq üzrə bunu göstərirlər ki, Daxiliyyə Nəzarəti xidmətçiləri, ümumiyyətlə çox çətin və ağır vəzifə ilə müvəzzəfdirlər [vəzifə daşıyırlar] və hərc-mərc vaxtı bütün Nəzarətlərin məmurları işsiz olduqları halda, Daxiliyyə Nəzarəti xidmətçiləri bilaaram [fasiləsiz] daha da artıq zəhmətlə işləmişlərdir. Mən buna əlavə edirəm ki, nəinki "işləmişlərdir", hətta işləyəcəklər də. Cümhuriyyətin təşkilat işləri sair Nəzarətlərin həpsindən ziyadə Daxiliyyə Nəzarətinin öhdəsindədir. Fəqət, madam ki, qanunun qəbulu üçün "ciddi və ağır iş"dən bəhs olunur, bu işlərə bir qədər dərindən baxmağa cəsarət edirəm. Tənqid iki cür olar: birisi dağıtmaq, yıxmaq üçün; digəri tikmək və dövlət həyatını qeyri-mümkün edən şəraitin izaləsinə [aradan qaldırılmasına] çalışmaq. Şimdi mən Nəzarətin fəaliyyətini tənqidə keçərkən rica edirəm inanasınız ki, məqsədim cavan cümhuriyyətin təşkilat işlərinə, təsdiqinə və müxtəlif millətlərin münasibatının yaxşılaşmasına mane olan şərait və əngəlləri zail olmuş [yox olmuş, aradan qalxmış] görməkdir.

Mənə etiraz edə bilərlər ki, əski istibdad və anarşidən öylə irs qalmışdır ki, onu düzəltmək, nizam və asayiş bərpa etmək az bir zamanda mümkün olan şeylərdən deyildir. Fəqət, bir dövlətin gücü[nün], nizam və asayiş[in] bərpasının çarəsi üçün bir şərt var: Cümhuriyyətin ümum vətəndaşlarının şəxsini və əmlakını təmin etmək.

Vətəndaşlar hüququ, şəxsin məsuniyyəti [toxunulmazlığı] və millətlərin təyini-müqəddərat ixtiyarını birinci sıraya çıxarmış olan Rusiya inqilabının yaradıcı fəaliyyəti Rusiyada siniflərin, Zaqafqaziyada isə millətlərin yekdigərini [bir-birini] dağıtmalarına mübəddəl oldu [çevrildi]. Nəticədə üç cümhuriyyət əmələ gəldi: Azərbaycan, Gürcüstan və Ermənistan. O mübarizə yanğınından bir fəna nəticə qaldı: milli təhəmmülsüzlük [dözümsüzlük] hissi, Azərbaycan əhalisinin böyük bir qisminin həyat və məişət haqqının qəbul edilməməsi. Mən inanıram ki, hökumət başında duraraq məmləkət gəmisini idarə edənlər bu fikirdə deyildirlər. Camaat içində böylə fikrin olmasına da yol verməməlidir, çünki hər bir özbaşına hərəkət məhəllində [yerində] möhkəm hökumətin yoxluğunu göstərir ki, bununla da məmləkət yaşaya bilməz. Əgər böylə özbaşına hərəkətlər hökumətin aşağı dərəcə qulluqçularından sadir olsa [meydana gəlsə], burası bir anarşi əlamətidir ki, böylə şərait altında dövlət məsələsindən heç danışmaq olmaz. Əgər camaat, xüsusən hökumət qulluqçuları, hökumətin əmrlərinə əməl etməyirsələr yəqin ki, onlar hökuməti hiss etməyirlər. Və ona görə hiss etməyirlər ki, fəna əməlləri tənbeh və cəzasız qalır.

Böylə şeylər əhali arasında hökumətə etimadsızlıq və bu hökumətə qarşı deyil, əqəliyyət [azlıq] təşkil edən millətlərin hüququnu tanımamaq əsası ilə qurulmuş bütün məmləkəti [dövləti] qəbul etməmək uğrunda mübarizə törədir.

Boş söz olmasın deyə, cənab məbuslar, administrasiya acentlərinin cinayət işlərində iştirak və xudsəranə [özbaşına] hərəkət etmələri haqqında mənim söylədiyim fikrimi təsdiqedici bir neçə həqiqətlər söyləyəcəyəm.

Yanvarın 18-də Ələt stasyonunda 5 nəfər erməni, iki kişi, iki arvad və bir qız uşağı vəhşiyanə bir surətdə hamının gözü qabağında və qaroqolların yanında qətl edilmişdir. Bu qətl edilənlər 21 nömrəli qatarın sərnişinlərindəndir. Bu münasibətlə, hərçənd müqəssirlərin hərbi məhkəməyə verilməsi haqqında əmr sadir olmuşsa da [əmr verilmişsə də], lakin bu vaxta qədər nə məhkəmə və nə də cəza barəsində heç bir şey məlum deyildir.

Yanvarın 29-da Yevlax stasyonu yaxınlığında, stasyona gedən sərnişinlər müsəlləh [silahlı] adamlar tərəfindən qarət edilmişlərdir. Müqəssirlər tapılmamışlar. Fevralın ikinci gecəsi Ağstafada polis üzvləri Tiflisə gedən 23 nəfər ermənini döyüb incitmişlər. Bir nəfər Əsəd ağanın işə müdaxilə etməsinə görə ermənilər salamat qalmışlardır.

Fevralın 1-də Kürdəmir stasyonunda Şamaxı rayonundakı kəndlərə gedən 30 nəfər erməni 4 nəfər milisiya tərəfindən tuman-köynəklərinə qədər soyulmuşlar. Sonra stasyondan bir verst məsafədə onlar təzədən əsgərlər və milisionerlər tərəfindən mühasirə edilmişlər. Ermənilərdən 20 nəfəri qətl edilib, 10 nəfər salamat xilas olmuşdur.

Fevralın 4-də Ağstafada polisə məmurları uryadnik başda olmaq üzrə 40 nəfər ermənini poçta stasyonuna salıb, döyüb söymüşlər. Erməniləri üç gün həbsdə saxlayıb, onları ən alçaq və ədna [rəzil] işlər görməyə məcbur etmişlərdir.

Fevralın 21, 23 və 24-də Hacıqabuldan Bakıya gələn erməni sərnişinləri milisionerlər tərəfindən qarət edilmişlərdir. Ermənilər vaqondan çıxarılıb güllələnmək qorxusundan var-yoxlarını milisələrə vermişlərdir.

Gəncə rayonunda fevral ayında erməniləri tələf etmək təşviqatı ilə intibahnamələr nəşr edən [vərəqələr yayan] naməlum adamların fəaliyyəti ilə qarətgərlik şiddət etmişdir.

Gəncə şəhərində şəhərin müsəlman hissəsində bir neçə nəfər yox olmuşdur. Ən mötəbər bir müsəlmanın dediyinə görə, Kür boyu kəndlərində hal-hazıra qədər erməni kişi və arvadları əsir saxlanırlar. Orada həbsxanalarda və uçastoklarda bilafərqi-millət [millət fərqi olmadan] məhbusları incidirlər. Nuxa rayonunda indiyə qədər hələ yüzlərcə erməni kişi və arvadları əhalinin yanında əsirdir. Ermənilərdən ötrü azad hərəkət yoxdur. Yollar ermənilərin üzərinə bağlıdır. Gəncə quberniyasının 3-cü uçastokunda quldur dəstələri hökmfərmadırlar [hökm sürməkdədirlər]. Mülkədar Məhəmmədbəyov aşkara bir surətdə öz evində öldürülmüşdür. Bundan əlavə, müsəlman rayonunda olan bir çox ermənilər qətl edilmişlərdir. Bunun nəticəsi olaraq erməni əhalisi Gorana, pristavın yanına getməkdən qorxurlar.

Fevralın 28-də və martın 8-də Kürdəmir və Poylu stasyonlarında yenə təzədən qarətgərlik olmuşdur. Hər gün yollarda qarətgərlik olub, arvadlar əsir edilirlər. Belə ki, martın 10-da Yevlax-Nuxa yolunda 16 yaşında bir qız uşağını təhqir etdikdən sonra əsir etmişlər ki, bu da müsəlman sərnişinlərinin narazılığına bais olmuşdur. Ən axır burda, Bakıda bir nəfər şamaxılının göstərdiyinə görə, martın 22-də iki nəfər erməni, təhərri [axtarış] polisəsi tərəfindən həbs edilmişdir. Bunlardan biri 55 yaşında bir qocadır. Bu tutulanlar niyə isə Şamaxıya göndərilmişlər. Bu barədə Daxiliyyə naziri cənablarına xəbər verilmişsə də, indiyə qədər o tutulanların müqəddəratı məlum deyildir.

Bunlar o həqiqətlərdir ki, məlumdur. Bunlardan əlavə Ərəş və Nuxa uyezdlərində onlarca kəndlər vardır ki, əhali qayıda bilməyir. Orada onların əmvalı [malları] və yerləri qonşuları tərəfindən zəbt edilmişlər. Belə görünür ki, onlar bu qaydanı adi bir şey hesab edirlər.

Gəncə uyezdində Qaradağlı, Sarov və qeyri bir çox kəndlər var ki, indiyə qədər onlar beynəlmiləl məsələlərində həmişə bitərəf qalmışdılar. Onlar da ümumi bəladan xilas ola bilmədilər. Onların yerləri zəbt edilib, bağları xarab edilmişdir. Onlar öz yerlərinə qayıda bilməyirlər.

Daxiliyyə Nəzarətinin vəzifəsi layihədə denildiyi kimi "xeyli ciddi və böyük işdir". Buna görə, bu hadisələri ciddi surətdə rəf etməlidir [aradan qaldırmalıdır] ki, müqəssirlər hökumət tərəfindən bir cəza olduğunu düşünsünlər. Hər bir yapılan cinayət cəzasız qala bilməz.

Möhtərəm məbusar! Hər kəs öz fəaliyyətinə qarşı məsul olmaq prinsipini mövqeyi-icraya qoymalıdır. Ancaq bu yol ilə Azərbaycan Cümhuriyyəti yolunda duran Ssilla və Xaribdanı götürmək olar. Axirüləmr [nəhayət], camaat bilməlidir ki, hökumət vardır, hökumət müdafiə edicidir. Hərgah, camaat bunu düşünərsə, o zaman dövlət təşkilatı adi halına düşə bilər. Bu münasibətlə iki nöqteyi-nəzəri bir-birinə qarşı qoymaq lazım gəlir – Hərbiyyə və Daxiliyyə Nəzarətlərinin nöqteyi-nəzərini. Hacıqabul mövqifində [stansiyasında] vaqe olan hadisədən dolayı Parlaman fraksiyası həm Daxiliyyə, həmi də Hərbiyyə Nəzarətinə məlumat vermişdi. Hərbiyyə Nəzarətinə onun üçün bildirilmişdi ki, bu qarətdə əsgərlər də iştirak etmişdi. Bundan əlavə, Daxiliyyə nazirinə bildirilmişdi ki, Gəncə dairəsində ermənilərə qarşı fitnəkarlıq gedir. Bu barədə qəzetələrdə məlumat verildiyi kimi, ümuma da əhval məlum idi. Hərbiyyə naziri artıq diqqətlə bu məsələyə yanaşdı. Onun cavabından anlaşılır ki, Hərbiyyə naziri cavab gözləmədən, qəzetələrdən bu hadisəni bilib, müqəssirləri tutmaq üçün ciddi tədbirlər ittixaz edilmişdir [tədbirlər görülmüşdür].

Daxiliyyə naziri nə cavab verdi? Qarət barəsində olan suala cavab verir ki, bu əhval onun təhti-idarəsində [idarəsi altında] olmayan yerdə vaqe olduğundan, məsələnin ona dəxli yoxdur. İkinci məsələ barəsində cavab verir ki, Gəncə barəsində heç bir məlumatı olmadığı üçün bu xüsusda Gəncə qubernatorundan cavab istəmişdir. Bundan görünür ki, Hərbiyyə naziri işə əhəmiyyət verir, dövləti nöqteyi-nəzərlə hərəkətdə bulunur, amma Daxiliyyə Nəzarəti bu mühüm məsələdə irsal-mərsula başlayıb [işi get-gələ salıb], bu ana qədər kafi cavab verməmişdir.

Köhnə rejim üçün belə mühlik [məhvedici] olan irsal-mərsul sistemi ləğv edilməlidir. Dövlət kişisi böylə əhəmiyyətli və iş tələb edilən bir zamanda irsal-mərsul ilə uğraşmamalıdır. Təəssüf olsun ki, biz bunun əksini görürüz. Buna görə, əfəndilər, Daxiliyyə Nəzarətinin bu qanun layihəsinə biz səs verməkdən çəkiniriz. Nə zaman ki, Daxiliyyə Nəzarətinin fəaliyyətində xeyirli bir nəticələr gördük, o zaman ancaq qanun layihəsinə səs verə biləriz. Mən inanmaq istərdim ki, o vaxt da gələcəkdir.

**Sədr** - Natiqlərin sırası bitib. Danışan varsa, yazıb versin. Danışan yoxsa, söz hökumət üzvü Xəlil bəy Xasməmmədovundur.

**Xasməmmədov** - Möhtərəm məbuslar! Burada bir neçə söz söyləndi. O sözlər barəsində mən fikrimi demək istəyirəm. Əlbəttə ki, hər bir dövlətdə, cümhuriyyətdə hökumət işləri gərək elə olsun ki, hamıya bir nəzərlə baxılsın. Az millətlərin də hüquqları müdafiə edilsin. Bu barədə söz ola bilməz. Siz özünüz görürsünüz ki, bizim məmləkətdə olan başqa millətlərin hər vaxtda hüququ müdafiə olunub və haqları verilibdir. Doğrudur, yeni təşəkkül edilmiş dövlətlərdə çox şeylər olur. Natiqlərin biri, Ələtdə, Hacıqabulda olan hadisələri söylədi. Doğrudur, böylə şeylər olub, Parlaman də bilir. Bilirsiniz ki, hər dəfə məmurlar göndərilmişdir və müqəssirlər məhkəməyə verilib və məhkəmənin qərarını gözləyirik. Bilirsiniz ki, bu iş məhkəmə ixtiyarındadır. Əlbəttə ki, hər məmləkətdə, hətta Fransada, İngiltərədə cinayət olur. Şübhəsiz ki, 6-7 aylıq tarixi olan təzə bir məmləkətdə də böylə şeylərin olması mümkünatdandır. Bəni-insan arasında həmişə cinayət olacaqdır. Bizim də borcumuzdur ki, bu cinayət yapanları tutaq verək məhkəməyə, o da axırıncı sözünü desin. Cinayət hər yerdə olur, fəqət çalışmaq, əhalini canilərdən müdafiə etmək lazımdır. Hökumət və Daxiliyyə Nəzarəti bu yol ilə gedib, gedir də. Ancaq hamı işləri birdən düzəltmək mümkün deyildir. Cinayət bir yerdə deyil, cürbəcür yerlərdə olur. Bunların hamısını birdən-birə tapmaq çətindir. Böylə işlər yalnız bizdə deyil, özgə yerlərdə də olur. Biz cəmi fikrimizi ona veririk ki, canilər tutulub cəzaya giriftar olsunlar. Bu bir fikirdir ki, Daxiliyyə Nəzarəti və hökumət bunu gərək aparsın və bu fikirdən kənar durmasın. Yoxsa ola bilməz ki, Nəzarət öz vəzifəsini yerinə yetirməsin. Mən yenə sizə ərz edirəm ki, bu qanun layihəsinə gərək bu nöqteyi-nəzərlə baxılmasın. Əvvəl sözümdə söylədiyim kimi baxmalıdır. Daxiliyyə Nəzarəti xidmətçilərinin məvacibləri az olduğundan, bu layihə yanvarın əvvəllərində Daxiliyyə Nəzarətində düzəlmişdir. Əski hökumət təzə hökumət ixtiyarına keçdikdən sonra hökumət gördü ki, məvaciblər o qədər azdır ki, məmurlar dolana bilmirlər. Məmurlar yaxşı dolanıb və yaxşı qulluq etsinlər deyə hökumət onların maaşlarının artmasını təhtiqərara aldı. Çünki ac qulluq olmaz. İkincisi, qanunda anlatdıq, ərz etdik ki, bir neçə məmuriyyət də var ki, bizə lazımdır. Biz bunu layihədə yazdıq. Bu barədə bəhs ola bilər ki, bu məmuriyyətlər bizə lazımdır və ya lazım deyil. Siz qəbul edərsiniz – edərsiniz, etməzsiniz dəxi bəhs olmaz. Burada deyildi ki, indiki hökumət Nikolaydan da o yana getmişdir. Mən deyərdim bu söz gözəl sözdür. Bu barədə qanunlar vardır. Məlumdur ki, hökumətdə iki şey olanda – biri zemstvo [yerli özünüidarə qurumu], digəri bələdiyyə işləri düzələndə Daxiliyyə Nəzarətinin işləri yaxşı gedir. Nəzarət [nazirlik] məmurlarının bir çoxu onların ixtiyarına keçir. Və bu da açıq bir məsələdir ki, camaat öz işini özü aparıb, özü idarə edərsə yaxşı olar. Bu o qədər açıq məsələdir ki, bu barədə söz ola bilməz. Zemstvo və bələdiyyələr gərək düzəlsin, camaat özünü idarə etsin. Lakin indilik zemstvo yox, bələdiyyə idarələri nizamsız. Bunlar da nə vaxt olsun? Beş gündə, on gündə, iki ayda qurulası deyildir. Burada işləmək, düzəltmək lazımdır. Mən əvvəl sözümdə dedim ki, bu işdən ötrü bizə ən əvvəl administrativni idarə [inzibati idarə] lazımdır. Biz gərək məmləkətimizi vilayətlərə bölək, ondan sonra zemstvo və qeyri idarələr düzəldək. Şimdiki vaxtda pul məsələsi çətin və birinci şərtdir. Siz bilirsiniz ki, bundan əvvəl müntəzəm və mütəşəkkil bələdiyyə idarələri var idi. Məsələn, Bakı Bələdiyyə İdarəsi Qafqaziyada ən gözəl idarələrdən biri idi. Gözəl xəstəxanaları, məktəbləri və qeyri müəssisələri var idi ki, böyük zəhmətlərlə düzəlmişdi. İndi Bələdiyyə İdarəsi o haldadır ki, özünün də parası yoxdur. Niyə yoxdur? Orası uzun mətləbdir. Zemstvo da belə. Bunlar elə bir şey deyil ki, bir dəqiqədə iki qanun yazmaqla düzəlsin. Mən heç fikir etmirdim ki, bu balaca qanundan ötrü bu qədər bəhs olunub və çox söz danışılsın. Əlbət ki, 5 mindən artıq məmur arasında ola bilər ki, bir neçə məmur xain olsun.

# «AZƏRBAYCAN» qəzetinin 1919-cu il 10 aprel (Cümə axşamı günü) tarixli 154-cü nömrəsinin ADA Universitetinin dəstəyi ilə transliterasiyası

Lakin aralarında canını qurban edənlər də az deyildir. *(Soldan: Doğrudur!)* Məsələn, bugünlərdə canilər pristavımızı və qaradavoyu yaralayıblar. 5 mindən ziyadə məmurlar arasında məvacib deyil, millətpərəstlik, vətənpərəstlik üçün, 400 manat məvacib ala-ala vətəni üçün canlarını fəda edənlər vardır. Çox məmurlar üstünə sözlər atırlar. Bu sözlər onların hissini, qüvvəsini azaldır. Ona görə hər dəfə Daxiliyyə Nəzarəti məmurlarına ümumən oğrudur, demək olmaz. Kim ki, oğrudur, fənadır, cinayət yapır, Parlaman üzvlərinə lazımdır ki, həman məmurun adını desin, cinayəti haqqında sənədlər, sübutlar gətirsin. Hökumət də, Daxiliyyə Nəzarəti də onları məhkəməyə verər. Böylə işlər də məmləkətə, millətə xidmət və kömək olar. Yoxsa, ümumi administrasiya böylə oldu, öylə oldu deyə tənqid etmək eyi nəticə verməz.

Mən sizdən rica edirəm ki, həmin qanun layihəsini təsdiq edəsiniz, maaşlar azdır. Bir də burada çox deyirlər ki, Nikolayın vaxtından çox məmurlar artırırsınız, buna lüzum yoxdur. Fəqət onu bilməlisiniz ki, halımız öylədir ki, bu saat hər bir iş Daxiliyyə Nəzarəti öhdəsinə salınmışdır. Məsələn, xətti-hüdudu [sərhəd xəttini] polis məmurları saxlayırlar. Kontrabanda [qaçaqmalçılıq] işinə baxmaq administrasiya üstünə düşübdür. İşləri o qədər çoxdur ki, onları saxlamaq lazımdır. Qanunda gördünüz ki, bu işlərin çoxu əsgər işi idi. Bu işlər əsgəri qüvvə ilə düzəlirdi.

Məsələn, dustaqxana, xəzinə və qeyri hökumət müəssisələri əsgəri qüvvə ilə mühafizə olunmalıdır. İndi bunların hamısı polis əlindədir. Layihədə deyirik ki, bunun üçün də qaradavoy artsın. Məlumdur ki, qaradavoy artanda okolodoçni [polis sahə rəisi] və pristav da artır. Ona görə xahiş edirəm ki, layihəyə bu nöqteyi-nəzərdən baxılsın. Dəxi o nöqteyi-nəzərdən baxılmasın ki, administrasiya artırırsınız ki, cinayət yapılsın. Xayır, bunu böylə başa düşməməlidir.

Bir-iki söz də Malxazovun dediyi hürriyyəti-şəxsiyyə, tamamiyyəti-mülkiyyə məsələləri haqqında demək istərdim. Onlar böyük məsələlərdir. Bunun da vaxtı var. O vaxt yetişəndə o məsələ ortaya qoyulanda danışılar. *(Soldan: Nə vaxt?)* Mən sizə dedim ki, böylə işlər başqa yerlərdə, hətta böyük məmləkətlərdə də vardır. Bunlar üçün əlbəttə qanun lazımdır. Hökumət də bilsin, əhali özü də bilsin ki, nə cür rəftar lazımdır, bəlkə də öylə bir zaman gəlsin ki, həman hürriyyəti-şəxsiyyəni, hürriyəti-mətbuatı müdafiə etmək lazım olsun. İndiki halda demək olar ki, çox qanunsuzluqlar olur və qabağı alınmayır. Çünki hürriyyət özgə cür başa düşülmüşdür. Buna görə lazımdır hər bir şeyin hüdudu, qanunu olsun ki, əhali də, [hökumət] məmurları [da] bilsinlər. Mən təklif edərdim ki, layihəni qəbul edəsiniz, çünki gözlənir.

**Sədr** - Söz Qasım bəy Camalbəyovundur.

**Camalbəyov** (Hümmət) - Möhtərəm məbuslar! Qanun layihəsi əleyhində yoldaşımdan sonra özgə bir şey söyləmək istəmirəm. Ancaq demək istəyirəm ki, nazirin verdiyi izahat, hərəkətləri ilə düz deyildir. Bir neçə gün bundan irəli fraksiya tərəfindən Kəbirli kəndliləri məsələsi xüsusunda cənab ministrin hüzuruna getmişdim. Həmin məvaciblərini artırmaq istədiyiniz məmurlar Kəbirli kəndində ispanka [ispan qripi] xəstəliyi tutan kəndliləri Ağa bəy Kəbirlinskinin əmri ilə, [məhkəmədə] uduzmuş mülkündən çıxarıb çölə tökmüşlər. Kəndlilər rica edirlər ki, o mülkü onların ixtiyarında qoysun. Mən neçə gün ayaq döydüm. Fəqət, ispolnitelni list əldə, hökm var. Bu da ki, olanda ayrı söz ola bilməz. Dəxi mirovoy sudan [sülh məhkəməsindən] soruşmaq olmaz ki, doğrudanmı [belə bir hökm] kəsib, ya yox? İki həftə cənab ministrin dəftərxanasında o kansilyariyadan bu kansilyariyaya gedib-gəldim. Orada nələr gördüm, demərəm. Özləri buradadırlar, bilirlər. Dedilər ki, işi göndəririk təhqiqata. Qorxdum ki, sənəd oğurlansın. Min məşəqqətlə axırda işi portfeldən çıxardım. Bundan əlavə Qazax uyezdində Ağtəklə və Qaratəklə camaatının yarım milyonluq qaramalını komissar tutub, bağışlayın komissar dedim, uyezdni naçalnik camaatdan tutub külli pul alıbdır, hələ də vermir və bir cavab da yoxdur. Qazax uyezdində nələr olur? Bu cümhuriyyətdir? Ya Nikolay hökumətidir? Tiflis sərhədini keçəndən sonra fənərlar sönüb, camaat qaranlıq içində gəlir. Oğrular gəlib qonşu vaqondan dəstmal ilə qızıl aparıblar.

**Mərkəzdən** – Neft tuluqda. Qatarı qarət, oğurluq. Milyon... Sizi soymadılar ki?

**Sədr** - Rica edirəm, natiqə mane olmayasınız.

**Camalbəyov** *(davam edir)* - Bunu mən doğru deyirəm. Mənim qəlbim qan ilə doludur. Allah haqqı, and olsun Allaha. *(Ümumi gülüş)* Belə idarə ola bilməz. Mənim bir qəpik verməyə əlim gəlməz. Bu idarə deyil. Bu idarədir ki, otursunlar idarədə, səpmə yatalaq ilə xəstəxanada yatan Parlaman üzvünün dalınca desinlər ki, guya Nərimanov gəlib onunla görüşüb, danışıbdır? Bu idarəmi? Bu cümhuriyyətmi? Yaraşırmı cümhuriyyətə? İnsanların vicdanına toxunan şeylərlə camaatı soyurlar, anasını yandırırlar, atasına da od vururlar. Bu idarədirmi ki, bir nəfər iki günlük ət alıb aparanda qaradovoy tutub deyir ki, bir belə əti nə eyləyirsən? Tutub rüşvət alıb buraxır. Hamısı rüşvət alırlar. Durublar körpülərin ağzında, gəmidən çıxanları rüşvət almamış buraxmırlar. Vağzalda jandarmaya yüz manat rüşvət verməmiş heç bir kəs kassaya gedə bilməz. Bunları mən özüm görmüşəm, ürəyim doludur. Fürsətdir deyirəm, bütün bu təqsirlər sizdədir, hamınız bilirsiniz. Hamınız onlarla əlbirsiniz. Məmləkətdə nə olur, hamısını bilirsiniz.

**Sədr** - Söz Rəhim Vəkilovundur.

**Rəhim Vəkilov** *(Müsavat)* - Bu cürə gurultulu tənqidləri biz bu məqamda heç münasib görməyirik.

**Soldan** - Bəs nə vaxt münasib görürsünüz?!

**Sədr** - Rica edirəm natiqə mane olmayasınız.

**Rəhim Vəkilov** *(davam edir)* - Ona görə firqəmiz tənqidi artıq gördü. Hökumət gedir, yerinə təzəsi gəlir. Ortada layihə var. Onun qəbulu məsələsi müzakirə olunur və sosialistlər onu qeyri-məqbul görürlər. Şimdi mən sual edirəm: sabah Daxiliyyə naziri sosialistlərdən olsa, görək bu layihə münasibdir ya yox?

**Soldan** - Xayır, münasib deyil!

**Rəhim Vəkilov** - Mən burada tənqid görmürəm. Bu narazılığın səbəbi Daxiliyə nazirinin şəxsinə olan xüsusi qərəzdir.

**Soldan** - *(Qarışıq, gurultulu səslər)*

**Sədr** - Rica edirəm, natiqə mane olmayasınız. Yerinizdən danışmayın. Səməd ağa, mən sizi qanuna dəvət edirəm. Əks halda nakaza [nizamnaməyə] görə rəftar etməyə məcbur olacağam.

**Rəhim Vəkilov** *(davam edir)* - Doğrudur, bu narazılığı rədd edə bilmərik. Bəlkə bu tənqidlər hökumət gedəndə gələn nazirlər üçün nəsihət olsun. Yainki heç bir şeyə dəyməz. Məsəl var ki, deyirlər ölənə ya rəhmət oxuyarlar, ya da heç zad deməzlər. *(Ümumi gülüş və soldan alqış)* Ona görə mən deyərdim ki, Daxiliyə Nəzarətinə olan ziddiyyəti bu layihəyə bağlamayaq və bu layihəni rədd etməyək. Qanun layihəsini qəbul etmək lazım gələcəkdir. Çünki məmurlar dolana bilmirlər, maaş artırılmasını gözləyirlər. Maaşın artırılması yaxşı olar. Təklif edərdim ki, bu layihə qəbul olunsun.

## GÜC QIĞILCIMI

*Əmir Teymur nişanlı*
*Məhəmməd Tofiq bəyə xatirə*

Altun yurdum qalmış idi bir zaman
Qan içici düşmənlərin əlində,
Yavruları boyun sunub baxardı
Qoca kimi gücsüz, əli belində.
Azərilər hər bir yanda ağlardı,
Lalə kimi ürəkləri dağlardı.
Çirkin dilək, alçaq məqsədli düşmən
İstərdi ki, Quran-islam yox olsun.
Həm Türklüyün bir şöbəsi Turanda
Solsun da, həm qanlı əllərlə solsun.
Şu zavalın amilləri kamilmi?
Şu məqsədi icra etmək qabilmi?
Haqq ağlayır, batil gülür, sevinir,
Zülm atəşi alovlanır hər yanda.
Böylə solğun, böylə pozğun bir dəmdə,
Böylə düşkün, böylə ölgün bir anda
Ulu Tanrı "Tofiq"ini göndərdi
Gavurluğu İslamlığa döndərdi.

*6 nisan 1919*
*Ə. Müznib*

## TELEQRAF XƏBƏRLƏRİ

Paris - Havas ajansı bildirir ki, Sülh Konfransının işi o qədər irəliləmişdir ki, bütün texniki işlərin yaxın bir zamanda qurtaracağını zənn etmək olar. Amerika heyəti şərəfinə verilən ziyafətdə marşal Foş bir nitq irad edərək [nitq söyləyərək] demişdir ki, Amerikanın müavinəti və müharibəyə iştirakı Müttəfiqlər üçün müharibəni müvəffəqiyyətli etmişdir. Foş ciddi surətdə alqışlanmışdır.

- Avam Kamerasında vikont Kerzona Maknamara cavab verərək demişdir ki, bu vaxta qədər Almaniyanın 51 ədəd sualtı qayığı sayılmışdır. Bunlar isə Müttəfiqlər arasında bölünmüşdür. Ali Şurayi-Hərbiyyə Almaniyanın başqa gəmilərinin müqəddəratını həll etməmişdir.

- Münxendən yazılır ki, hökumət qoşunları spartaklardan Leypsiq şəhərini geri almışlardır.

Paris – Çexslovak nümayəndələri bəyan etmişlər ki, avstriyalılar ilə almaniyalılar yeni Çexslovak hökumətini yıxmağa sui-qəsd hazırlamışlar imiş.

## QƏZETƏLƏRDƏN

**General Tomson və "Müsavat"**

"Naşe vremya" qəzetəsinin verdiyi xəbərə görə, Qafqaziyada Müttəfiqlər ordusunun Baş komandanı general-mayor Tomson bu günlərdə Londona rəsmi bir məktub göndərib, onda yerli ictimai, siyasi firqələrlə milli təşkilatlar haqqında məlumat təqdim etmişdir.

General Rus Milli Komitəsi haqqında bəyan edərək onu təkdir etmiş [pisləmiş] və göstərmişdir ki, həmin komitələr Rusiyada əski üsuli-idarəni iadə etmək [qaytarmaq] və istiqlaliyyət elan etmiş olan millətləri yenidən Rusiyaya mülhəq etmək [birləşdirmək] istəyirlər.

Öz məktubunda general Tomson "Müsavat" firqəsi haqqında ətraflı surətdə məlumat təqdim edərək onu xeyli tərif və fəaliyyətini təqdir etmiş və Zaqafqaziya türk islamlarının böyük bir kütləsinin bu firqə arxasında durduğunu bəyan etmişdir.

**Odessanın müdafiəsi**

Odessa cəbhəsində əhval qorxuludur. Generallardan Franşe D'Esperi, D'Anselm və Şvarts miyanında [arasında] müşavirə olmuşdur. Müşavirə nəticəsində "Odessa Müdafiə Şurası" vücuda gətirilmişdir. Yunan əsgərlərinin Odessaya gələcəkləri gün-gündən gözlənir. Yunan əsgərləri gəldikdən sonra Nikolayev ilə Xersonu təzədən geri qaytarmaqdan ötrü hücum başlanacaqdır. General Franşe D'Esperinin bəyanatına görə, İstanbulda olan fransız əsgərləri müttəfiq məntəqəni müdafiə etməkdən ötrü Odessaya gətiriləcəklərdir.

## DAĞISTAN ƏHVALI

**Könüllülərlə dağıstanlıların müharibəsi**

Çeçen qoşunları komandanının məlumati-rəsmiyyəsi:

Mart ayının 28-də sübhdən Könüllü ordu Aldı qəbiristanı yanında hücuma başlayırlar. Çeçen qoşunları süni manevra ilə könüllüləri sıxışdırıb günorta zamanı böyük tələfatla düşmənləri şəhər tərəfinə püskürdürlər.

29 martda könüllülər bütün cəbhədən rədd edilmişlərdir.

Mart ayının 30-da hava işıqlandığı zaman Alxan-Yurt kəndi yanında Könüllülər ordusu Sunca kəndini keçərək aula yaxınlaşırlar. 4 saat müddətində qayət qızğın müharibə davam edir. Aulda düşmənin top gülləsindən bir neçə evlər yanmışdır. Saat 4-də çeçenlərin intizami qoşunları əks həmlə ilə kazak hissələrini pərişan edib, onları Suncadan o tərəfə püskürdüb, kazakların arxasından çayı keçib, Yermolovsk kəndə girib, düşmənlərin ştab arabalarını, hərbi ləvazimat qənimət alaraq qayıtmışlar və qayıtdıqda nəhir üzərində olan körpünü dağıtmışlardır.

Mart ayının 31 və aprelin 1-də ancaq əhəmiyyətsiz atışmalar vaqe olmaqda idi.

## RÜŞVƏT VƏ MÖHTƏKİRLİYƏ ÇARƏ

Qarabağ general-qubernatoru Xosrov Paşa bəy Sultanov həzrətləri qəzetə mühərririnə Qarabağa dair verdiyi müfəssəl [ətraflı] məlumatında rüşvətxor məmurlar və möhtəkir tacirlər barəsində nə kimi tədbirlər ittixaz etdiyini [tədbirlər gördüyünü] də söyləmişdir. Rüşvətxorluqda müttəhim olmuş beş nəfər pristav o cənabın hökmü ilə xidmətlərindən məzul olunaraq [qovularaq] təhti-mühakiməyə [mühakimə altına] alınmışlardır. O cənabın təsəvvürüncə, kimdən nə miqdarda alınmış rüşvətlər sübut olunarsa, məhkəmənin qətnaməsi ilə həman rüşvətlər məhkum pristavlardan alınaraq sahiblərinə qaytarılasıdır. Verə bilmədikləri halda məhkumların əmvali-mütəhərrikə və qeyri-mütəhərrikələri [daşınan və daşınmaz malları] zəbt olunub satılacaq və bundan hasil məbləğ də sahiblərinə qaytarılacaqdır.

İştə, rüşvətxorluğu əsasından baltalamaq üçün qubernatorun bu tədbiri ən gözəl bir çarədir.

Sabiq rus qubernatorları dövründə rüşvətxorluq adi işlərdən sayıldığı üçün, hər polis məmuru vəzifə başında müəyyən bir rüşvət zoru ilə dayana bilirdi. Pristavlar qəza qaimməqamlarına [qəza rəislərinə], bu[n]lar da qubernatora ildə filan qədər "peşkəş" verərək yerlərini möhkəmləşdirirdilər. Söz yoxdur ki, bu peşkəşlərin müqabilində əvəzi biçarə əhalidən yüz minlərlə alınırdı. Təsadüfən rüşvətçi pristavdan qubernatora bir şikayət verilsəydi öylə "Təhmasib oyunu" təftişlər yapılırdı ki, axırda cəza rüşvət alana deyil, rüşvət verənə olurdu. Odur ki, Rusiyada[n] ac qaçmış pristavlar bir neçə il Qafqazda xidmət edib, evlərinə qayıdarkən ciblərində yüz minlərlə pullar aparmışdır, arabalar dolusu fərşlər [xalça-palaz] daşımışlardır.

Rus rüşvətxorluğu bir dərəcədə kəsbi-şöhrət etmişdir [şöhrət qazanmışdır] ki, bir vaxt almanların məşhur Bismarkı Rusiyadan qayıdarkən demişdir: "Rüşvətxorluq ən mühlik [öldürücü] bir azar kimi Rusiyanı tar-mar edəcəkdir." Filhəqiqə [doğrudan] öylə də oldu. Bəs rüşvətxorluğun əsasına öylə bir zərbə vurmalıdır ki, cavan vətənin ədalətinə və asayişinə heç bir xələl toxunmasın. Qarabağ qubernatorunun zikr etdiyimiz binagüzarlığı [tədbiri] sair hakimlər tərəfindən də qəbul olunarsa, rüşvət məsələsi daha sürətlə tərk olub gedərdi.

Öz tərəfimizdən bunu da əlavə etməliyiz ki, rüşvət alanlardan başqa, rüşvət verənlərin də ə'malına [əməllərinə, işlərinə] diqqət olunsun ki, hangi məqsədin yolunda bu rüşvətlər verilir. Qətl və qarət kimi cinayətləri pərdələmək üçün rüşvət verən ağaları da təhti-mühakiməyə [mühakimə altına] almalıdır və bu surətdə geri alınmış rüşvətlər sahiblərinə qaytarılmayıb, beytülmala [dövlətin xəzinəsinə] təhvil verməlidir zənnindəyəm.

Sultanov həzrətlərinin dəyərli təşəbbüslərindən biri də möhtəkirlərlə başladığı mübarizə təriqidir [yoludur] ki, şayani-diqqətdir [diqqətəlayiqdir]. Şuşa şəhərinin möhtəkir tacirlərindən biri qubernator tərəfindən həbs olunur. Bu şəxs bir qədər həbsdə qaldıqdan sonra camaat namına [adına] alıb-satdığı manufakturdan qazandığı 150 min manat pulu öz riza və xahişi ilə füqəraya paylamaq üçün qubernatora təslim edir. Həman pul Novruz bayramı münasibəti ilə şəhərin 3 min füqərası arasında təqsim edilmişdir [paylanmışdır]. Bugünlərdə Qarabağdan gəlmiş bir nəfərin rəvayətinə görə Şuşa şəhərinin füqərası bu ilki kimi bayramı xoş keçirməmişdir. Hamı müşahidə edirmiş ki, zənginlərlə bərabər miskinlər də bayram şadyanalığına iştirak edirlər. Qubernatorun bu tədbiri günahkarlara cəza və füqəraya şəfa olduğundan, sair yerlərdə də icrası mətlubdur [arzu ediləndir]. Bu vaxta qədər əhali namına bir çox mallar alınıb kənar yerlərdə də satılmışdır. Bunların ə'mal və hərəkatını [işlərini və hərəkətlərini] təftiş və nəzarətsiz buraxmamalıdır. Ələlxüsus camaat vəkillərinin məsuliyyəti daha şədid [şiddətli, böyük] və daha ciddi olmalıdır ki, mənfəətimilliyyə mənfəəti-şəxsiyyəyə qurban kəsilməsin.

Bu iki məsələdən başqa, qubernatorun bir çox sair binagüzarlıqları olmuşdur ki, şayani-təhsindir [alqışlanmağa layiqdir]. Lakin o cənabın qarşısında ən ağır bir məsuliyyət varsa, o da indilik köçəri məsələsidir ki, onun da mahiranə bir surətdə və asan vəchlə [surətlə, yolla] həllini dörd gözlə ümumən azərbaycanlılar və xüsusən Qarabağ əhalisi gözləyir, müvəffəqiyyətinə də inanır!

*Fərhad Ağazadə*

## İRAN FÜQƏRASININ HALINA DAİR

Vətənindən avara düşüb və xaricilərə pənah gətirib ac, çılpaq Bakı küçələrində dilənçilik edən İran balalarının müşkül hallarına dair dəfələrlə qəzetələr səhifəsində yazılmaqdadır. Çox təəssüflər olsun ki, həman yazılanlar səmərəsiz qalmaqdadır. Əlbəttə, konsul cənablarının çalışmağı da möhtərəm tacirlərin müavinətinə [yardımına] bağlıdır. Tacirlərimizdən müavinət olmazsa, konsul cənablarının da çalışmağı faydasız qalar. Əlbəttə, bunu kimsə inkar etməz zənindəyəm. Bəs tacir əfəndilər nə vaxtadək müavinət əlinizi bu zavallı dilənçilərdən uzaq tutacaqsınız? Nə vaxta kimi bu bisahiblər ac, çılpaq küçələr dibində xaricilərə əl açıb "Ağa, sən Allah bizə bir şahı çörək pulu ver" deyəcəklər? Olmazmı ki, milyonlarla qazandığınız paralardan həmin zavallılara sərf edib həmi Allahtaalanı və həmi onları özünüzdən razı eyləyəsiniz və yaxud bir darüleytam [yetimxana] təsis edib zavallıları küçələrdən təmizləyəsiniz. Budurmu sizlərdə millət və vətən hissi, ey milyonlarla para qazanan İran əhli?

Çox təəssüf etməli ki, bu zavallı dilənçilərin sayəsində iranlılar təhqir olunur. Əlbət ki, təhqir olunmağının da səbəbi laqeydsizliyinizdir. Ondan ötrü ki, əgər bir darüleytam təsis eyləsəydiniz, nə bu qədər dilənçi olardı və nə də biz iranlılar təhqir olunardıq. Yaxşı olar ki, keçən ilki kimi konsul cənabları bir iclas təyin edib və ümum iranlıları dəvət edib bir komissiya intixab olunaydı [seçiləydi] və dilənçiləri küçələrdən təmizləmək həman komissiyaya həvalə olunaydı. Vəilla [yoxsa], iş belə gedərsə, həmi bu yazıqlar aclarından məhv olar və həmi də biz İran camaatı təhqir olunarıq.

*Məhəmmədəli Əsədullazadə Tabaqçı*

## MƏTBUAT

Piliqrim rusca "Azərbaycan" qəzetəsində əsrlərdən bəri Rusiya və Avropa cahangirləri [imperialistləri] tərəfindən meydana atılmış olan Şərq məsələsinin şimdi Paris Sülh Konfransı tərəfindən həll ediləcək və bu məsələnin yüzlərcə milyon müsəlman aləmi və ümum-Asiya üçün nə qədər əhəmiyyətli olduğu haqqında bir məqalə yazaraq bu məsələnin nə yerdən əmələ gəlib, nə kimi dövrlər keçirdiyini zikr etdikdən sonra deyir ki:

*"Köhnə Şərq məsələsini Avropa ricali-düvəliyyəsi [dövlət adamları] bu günə bu surətlə gətirib çıxarmışlardır.*

*Bizim əsrimizdə hilalın xaç ilə mübarizəsi, həmçinin bu mübarizənin irqi və milli xüsusiyyət üçün edildiyini iddia etmək gülüncdür. Xüsusən müsəlman millətləri haqqında bunu iddia etmək gülüncdür. Çünki tarixin ağır yükü onları o qədər zəif salmışdır ki, bütün bəşəriyyətin müqəddəratını kəndi əllərinə almış olan Avropa millətlərinin rahat və səadətini xələldar edə [poza] bilməzlər.*

*Əsrimizdə bəşəriyyət maddətən və mənən o qədər dərəceyi-kamala yetişmişdir ki, hər millətin ədalət üzərinə yaşadılması ümumun tələbi və mədəni bəşəriyyət məhkəmeyi-aliyyəsi [ali məhkəməsi] olan Sülh Konfransının ən ümdə vəzifəsi olmuşdur. Müsəlman millətləri üçün öylə şəraiti-həyat təmin edilməlidir ki, mədəniyyət və tərəqqi yolunda irəli gedə bilsinlər. Əgər Sülh Konfransı gələcək ittifaqi-əqvamı [millətlər birliyini] Birinci Aleksandr kimi xristianlıq əsası ilə qurmaq fikrinə düşsə, bəşəriyyət həmişə birayaqlı kimi axsayacaqdır.*

*Ən məzlum və məhkum millətlərdən ibarət olan Şərq millətləri Sülh Konfransından kəndi siyasi, milli və dövləti mənafelərinin müdafiəsini gözləyirlər və şübhəsizdir ki, Parisdən gələn xəbərlər Şərq millətləri ilə Qərb millətlərini mütəqabil [qarşılıqlı] etimad və mədəni fəaliyyət rabitələri ilə mərbut etməsələr [bağlamasalar], Şərq millətlərinin bir əlacı qalacaqdır ki, kəndi nicatları naminə üzlərini "Asiya asiyalılar üçündür" şuarı çıxarmış olan qəvi [güclü] Yaponiya məmləkətinə, yaxud "İlhaq və təzminati-hərbiyyəsiz və millətlərin təyini-müqəddərat hüququnun qəbulu əsası ilə əsaslanmış sülh" şüarı olan bolşeviklərə çevirməli olacaqlardır."*

## BAKI XƏBƏRLƏRİ

**Dəvətnamə**

Bu cümə günü aprel ayının 11-də saat 1-də Sabunçuda ali-ibtidai el [xalq] məktəbində İran füqərayi-kasibəsinin iclası olacaq. Mədəndə olan fəhlələr hər altı adama bir adam seçilmiş adamlardan xahiş olunur ki, yövmi-məzkurda [deyilən gündə] el məktəbinə təşrif gətirsinlər.

Həll olunacaq məsələlər:

1) "Təməddün" məktəbinin barəsində; 2) Məktəbi idarə etməyə heyət seçkisi; 3) və həman gündə məclisdə qalxan məsələr.

*Müvəqqəti Heyəti-idarə tərəfindən*

**Yeni əsərlər**

Əliabbas Müznib əfəndinin 1) "Tofiq bəyin zopası"; 2) "Xorasanın topa tutulması"; 3) "Rusiya qəhrəmanı Rasputin"; 4) "Qazi Ənvər paşa" adlarında 4 mənzum kitabçası təbdən [çapdan] çıxıb satışa qoyulmuşdur. Qayət maraqlı mənzumələrdir.

**Müqəssirləri axtarmaq haqqında**

Bakı Okrujnoy Sud Məhkəməsinin müddəiyi-ümumisi [prokuroru] bütün okrujnoy sud [qəza məhkəmələri] və Bakı Palata (İstinaf) Məhkəməsinə müraciətən məlum etmişdir ki, müqəssir hesab edilib və gizlənmiş olan şəxsləri axtarmaq üçün elan verməк okrujnoy sud məhkəmələrinin deyil, qubernator dəftərxanasının vəzifəsidir. Bundan sonra yuxarıda göstərilən şəxsləri axtarmaq üçün hər binagüzarlıq [sərəncam] fəqət qubernator tərəfindən sadir olmalıdır [verilməlidir].

**Cərimələr**

- Bakı qalabəyisinin [komendantının] binagüzarlığına [əmrinə] görə, Dağıstan mahalı əhli Nurulla Şahnamazov icazəsiz olaraq tapança gəzdirməkdə müqəssir edilərək on gün müddətinə həbsə alınmışdır.

- İran rəiyyəti Məhəmməd Nuri oğlu, Zəngəzur əhli Sarkis Xaçaturoviç Mənuçöhrov icazəsiz olaraq tapança gəzdirməkdə müqəssir edilərək, hər birisi bir həftə müddətinə həbsə alınmışlardır.

- Dağıstan əhli Hüseyn Qulu oğlu icazəsiz olaraq xəncər gəzdirməkdə müqəssir edilərək 25 manat cəriməyə məhkum edilmişdir. Cəriməni verə bilmədiyi halda bir gün həbsə alınacaqdır.

**Xaricə getmək üçün şəhadətnamə**

Daxiliyyə naziri Bakı qubernatoruna məlum edir ki, Azəbaycan Cümhuriyyəti torpağından xaricə getmək istəyənlərə zeyldəki [aşağıdakı] qayda ilə icazə və şəhadətnamə verilməlidir: Xaricə getmək istəyənlər bu barədə Polis Baş İdarəsinə (qalabəyi dəftərxanasına), uyezd və uçastok idarələrinə ərizələr verirlər. Həmin ərizələr lazımi qeyd və işarələrlə qubernator dəftərxanasına göndərilirlər. Dəftərxana tərəfindən ərizə sahiblərindən 10 manat miqdarında şəhadətnamə (zaqraniçni pasport) xərci olaraq pul alınıb və pasport verilir.

**Həbsxana müdiri**

Qubernatorun binagüzarlığına görə, Mərkəzi Həbsxana müdirliyinə İbrahim bəy Abdinov təyin edilmişdir. Müşarüni-leyh [adı çəkilən şəxs] bu gündən etibarən öz vəzifəsini ifaya şüru etmişdir [başlamışdır].

**Məhkəməyə cəlb**

Azərbaycan Palata (İstinaf) Məhkəməsinin müddəiyi-ümumisi (prokuroru) Bakı qubernatoruna məlum edir ki, sabiq Kürdəmir pristavı Mirzəyev öz vəzifəsində bir çox suiistemalda [sui-istifadədə] bulunduğundan təhti-məsuliyyətə [məsuliyyət altına] alınır.

## AZƏRBAYCANDA

**Salyandan**

- Bakı, Azərbaycan Hökuməti tərəfindən Salyana göndərilən Mübayiə Komisyonu [Satınalma Komissiyası], kəndisi ilə bərabər gətirmiş olduğu qənd, çay və mənsucatı (manufakturanı) bugünlərdə hökumət idarələrində xidmət edənlər arasında təqsim etmişdir [paylamışdır]. Böylə ki, məmurlardan tutmuş jandarmalara qədər hər bir nəfərə 50 arşın parça, 3 girvənkə qənd, 1/4 girvənkə çay paylamışdır. Bu əhval Salyan əhalisinin və baxüsus [xüsusilə] füqərayi-kasibənin etirazını mövcib olmuşdur [etirazına səbəb olmuşdur].

- Salyan mötəbəranından Muxtar Axundov cənabları Salyan acları miyanında [arasında] bugünlərdə 250 put un təqsim etmişdir [paylamışdır]. Sənənin şimdiki ağır bir halında füqəranın əhvali-ələm-iştimalını [acınacaqlı halını] nəzəri-etibara alaraq hümmət əlini açan bu kimi zəvatın [şəxslərin] təzayüdünü [artmasını] arzu etməklə bərabər, sair sərvətdarımızın da nəzəri-diqqətlərini bu nöqtəyə cəlb eyləriz.

- Mart ayının 31-də (18-də) zöhr [günorta] vaxtı məhəlli [yerli] hökumət tərəfindən tətil elan edilərək bütün bazar və dükan qapandı. Bu tətil Salyanda yalnız dükanların qapanması ilə nəticələnərək, bu günə dair heç bir mitinq və nümayiş olmamışdır və əksər əhali şu tətilin nədən ibarət olduğunu dəxi anlamamışlardır.

- Kazan şəhəri əhaliyi-islamiyyəsindən Surxay oğlu İmran və Salyan əhalisindən Xəlil oğlu Əlihüseyn bugünlərdə əxzi-əsgər [hərbi çağırış] şöbəsinə gələrək kəndiləri ni könüllü əsgər yazdırmışlardır. Bu qəyur [qeyrətli] gəncləri hüsn-təvəc-cöhlə qəbul edərək maddi və mənəvi təltif etmişlərdir.

- Salyan şəhərində bugünlərdə məhəlli lisanla "əsmə qaramoqqa" xəstəliyi şiddətli surətdə hökmfərmadır [hökm sürməkdədir]. Bundan naşi [bundan ötrü] bir çox ölənlər var.

**Teatro**

Həmin mart ayının 22-də Salyan klubunun salonunda yerli həvəskarların iştirakı ilə rüşdiyyə məktəbi valideyn şurasının nəfinə [xeyrinə] olmaq üzrə [Mirmahmud] Kazımovskinin bir pərdədən ibarət "Daşım-daşım" nam [adlı] komediyası ilə [Sultan Məcid] Qənizadənin iki pərdədə "Axşam səbri xeyir olar" məzhəkəsi mövqeyi-tamaşaya qoyuldu.

O gecə salon tamaşaçılarla məmlu [dolu] idi. Pərdə qalxarkən iştirak edənlər səhnədə bir sıra təşkil edərək Həsənağa Sabit əfəndinin: "Bu vətən əcdadımızın yatacaq bir yeridir" deyə məhzə şimdiki əhvalımıza dair inşad etdiyi [söylədiyi] nəğməni həp bir ağızdan gözəl ahəng və üslubla oxudular və tamaşagəranın [tamaşaçıların] kərrat [dəfələrlə] alqışları ilə qarşılandılar.

Tamaşa ümumiyyətlə gözəl keçmişdir ki, bu da rejissor Həsənağa Sabit əfəndinin yorulmaz çalışmasından irəli gəlmişdir.

Hasilati-ümumiyyə: 9545 manat, məsarifat 2628 manat, xalis varidat 2918 manat olmuşdur ki, valideyn şurası xəzinədarına təslim olunmuşdur.

Bu tamaşanın müvəffəqiyyətlə keçməsi və varidatının Salyana nisbətən bu qədərə varması yolunda ibrazi-hümmət edən [səy göstərən] zatlara və baxüsus [xüsusilə] müdiri-məsul doktor Mirzə Əbdüləziz Mirzəyev, Mehdi Bədəlov, türmə naçalniki Arslan bəy Rüstəmbəyov, pristav müavini Məşhədiağa Nağıyev əfəndilərə ayrıca ərzi-təşəkkür eyləriz.

Salyan mərkəzi posta və teleqraf müdiriyyəti bugünlərdə bütün teleqraf müxabirələrinin [yazışmalarının] türkcə qəbul ediləcəyi xüsusunda bir elani-ümumi buraxmışdır.

*[Rüstəm] İskəndərzadə*

## İZHARİ-TƏŞƏKKÜR

Möhtərəm "Azərbaycan" qəzetəsinin müdirindən bu neçə kəlmə təşəkküratımızı ruznamələrinin [qəzetlərinin] sütunlarında dərc buyurmalarını islamiyyət naminə acizanə istirham [xahiş] edirik.

Biz Quba şəhərində və dəhatlarında [kəndlərində] yaşayan İran camaatı ki, neçə illərdən bəri öz dövləti-mətbumuz [tabe olduğumuz, vətəndaşı olduğumuz dövlət] tərəfindən sərpərəstimiz [xadimlərimiz; xidmət edənlərimiz] olmamaq səbəbincə ənvai [növbənöv] sitəm və cəfalara mübtəla olub və insaniyyətə gəncidə olmayan [insanlığa sığmayan] rəzalət və qəbahətlərə düçar olmaqdan bəəlavə, öz həyatlarımızdan məyus olmuşduq. Bakı şəhərində vaqe möhtərəm İran konsulu Səidülvüzəra həzrətləri rifahiyyəti-halımızı mənzur [vəziyyətimizi yaxşılaşdırmağı arzu etdi] və Hacı Xan cənablarını biz füqəra və müztərr [əziyyət çəkən] camaatdan ötrü sərpərəst və kəfil etməklə [bizə xadim təyin etməklə və bizim məsuliyyətimizi onun boynuna qoymaqla] bizlərə təzə bir həyat mərhəmət və inayət buyurdular [mərhəmət edərək bizə təzə bir həyat bağışladılar]. Necə ki, Hacı Xan cənabları dörd ay müddəti-məmuriyyətlərində bizim cərihədar [yaralı] ürəklərimizi öz maddi və mənəvi lütfləri ilə iltiyam edib [sağaldıb], fövt olan [ölən] İran fəqirlərini öz kiseyi-mərdanəsinin məxarici [şəxsi cibinin xərci] ilə dəfn və həyatda olanlarımızı ənvai təəddiyyatlardan [zülümlərdən, təcavüzlərdən] məhfuz ediblər [qoruyublar]. Binaənileyh [ona görə], öz təşəkkürati-səmimanələrimizi ağayi-Səidülvüzəra həzrətlərinə və Hacı Xan cənablarına təqdim etməyi özümüzə borc bilirik.

*(18 imza)*

**Bakı "Obşestnevnni Sobraniya"sı**
**[Bakı İctimai Yığıncağı]**

"Starşina"ları şurası bununla üzvlərə elan edir ki, aprelin 10-da saat 7-də üzvlərin ikinci ümumi iclası olacaqdır. İclas 1918, 1919 və 1920-ci illərə məxsus "Starşina" və Təftiş Komissiyasına, 1918-1919-cu illərə məxsus üzvlər intixabı üçün dəvət olunubdur.

**Qeyd:** "Sobraniya"nın nizamnaməsinin 66-cı maddəsinə görə, iclasa hər nə qədər üzv gəlmiş olsa qanuni hesab olunacaqdır.

*T-84*

**Doktor**
**Musa bəy Rəfiyev**

Daxili əmraza [xəstəliklərə] düçar olan naxoşları qəbul etməyə başlamışdır. Səhər saat 9-11-ə kimi. Axşam saat 5-7-yə kimi. Ünvan: Armyanski, nömrə 15. Telefon 16-80.

*b-37*

**Doktor**
**Ağahüseyn Kazımov**

Gəlib naxoşları yenə qəbul etməyə başlayıbdır. Əmrazi-daxiliyyə [daxili xəstəliklər]. Qəbul edir səhər saat 10-dan 11-ədək; axşam saat 5-dən 7-yədək. Ünvan: Parapet, Şəfi İbrahimovun evində 3-cü mərtəbə. Telefon: 86-27.

*5780*

***Müvəqqəti müdir:***
***Hacıbəyli Üzeyir***

## TRANSLİTERASİYA İLƏ BAĞLI QEYD VƏ ŞƏRHLƏR

***Azərbaycan Məclisi-Məbusanında***

"Ssilla və Xaribda": qədim yunan mifologiyasında, İtaliyanın cənubunu Siciliya adasından ayıran Messin boğazının iki ucunda yaşayan təhlükəli dəniz canlıları.

***Güc qığılcımı***

"Məhəmməd Tofiq bəyə": Qafqaz İslam Ordusu zabitlərindən Məhəmməd Tofiq bəy nəzərdə tutulur; məlumat üçün "İndeks"də "Bıyıklıoğlu, Mehmed Tevfik" maddəsinə baxın.

"Yavruları boyun sunub baxardı": "sunmaq" burada "uzatmaq" mənasındadır; ehtimal ki, "sunub" yerinə "büküb" olmalı idi.

"Şu zavalın amilləri kamilmi?": "Bu yox oluşun, bu məhv oluşun amilləri (onu şərtləndirən amillər) tamamlandımı; bu yox oluş qaçılmazdırmı?"

"Ulu Tanrı 'Tofiq'ini göndərdi": "tofiq" sözü "kömək" (xüsusən Allahın köməyi) mənasına gəlməklə birgə, burada həm də "Məhəmməd Tofiq"ə işarədir.

***Teleqraf xəbərləri***

"…bütün texniki işlərin yaxın bir zamanda…": qəzetdə "yaxın" yerinə "yaxşı" getmişdir.

"Avam Kamerası": Böyük Britaniya Parlamentinin aşağı palatası olan İcmalar Palatası nəzərdə tutulur.

"Maknamara": Britaniya Parlamentinin İcmalar Palatasının üzvü olan Tomas Maknamara nəzərdə tutulur; qəzetdə bu familiya təhrif edilmişdir.

***Dağıstan əhvalı***

"…Sunca kəndini keçərək…": qəzetdə səhv getmişdir, "Sunca çayını keçərək" olmalıdır. Sunca, Şimali Qafqazda Terek çayının sağ qolu olan çayın adıdır.

***Mətbuat***

"Əgər Sülh Konfransı gələcək ittifaqiəqvamı [millətlər birliyini] Birinci Aleksandr kimi xristianlıq əsası ilə qurmaq fikrinə düşsə…": Rusiya imperatoru I Aleksandrın təşəbbüsü ilə 1815-ci ildə qurulan və bütün xristian dövlətlərin hökmdarlarının qarşılıqlı olaraq bir-birlərinə kömək etmələri prinsipinə əsaslanan "Müqəddəs İttifaq"a işarə edilir.

***Azərbaycanda***

"Mart ayının 31-ində (18-ində)…": 31 Mart 1918-ci il hadisələrinin ildönümü nəzərdə tutulur. Burada tarix həm yeni, həm də köhnə təqvimlə göstərilmişdir; bu iki təqvim arasında 13 gün fərq var idi. Qəzetdə "31" yerinə səhvən "21" getmişdir.

"Kazan şəhəri əhli-islamiyyəsindən…": güman ki, "Kazan" yerinə "Qazax" olmalıdır.

"rüşdiyyə məktəbi": orta məktəb; ibtidai siniflərdən sonrakı mərhələ.

# İŞİMİZ, GÜZƏRANIMIZ

## Azərbaycan sabit genişzolaqlı internetin orta sürətinə görə 4 pillə irəliləyib

**Bu ilin iyul ayında Azərbaycan sabit genişzolaqlı internetin orta sürətinə (40,65 MB/S) görə 162 ölkə arasında 4 pillə irəliləyərək 109-cu yerdə qərarlaşıb.**



AZƏRTAC "Speedtest Global Index"in hesabatına istinadla xəbər verir ki, ötən ilin göstəricisi ilə müqayisədə (29,14 MB/S) Azərbaycanda sabit genişzolaqlı internetin orta sürəti 39,5 faiz artıb.

Sabit genişzolaqlı internetin sürətinə görə ötən ay birinci yeri Birləşmiş Ərəb Əmirlikləri (291,85 MB/S), axırıncı yeri isə Əfqanıstan (3,56 MB/S) tutub.

Azərbaycan iyulda mobil internetin sürətinə görə iyun ayına nisbətən mövqeyini dəyişməyərək 53,98 MB/S sürətlə 111 ölkə arasında 49-cu olub. Mobil internetin sürətinə görə birinci yeri Birləşmiş Ərəb Əmirlikləri (359,85 MB/S), sonuncu yeri isə Yəmən (7,26 MB/S) tutub.

Hesabat ayında Bakı şəhəri sabit genişzolaqlı internetin sürətinə görə əvvəlki aya nisbətən 1 pillə irəliləyərək 207 şəhər arasında 42,13 MB/S sürətlə 134-cü yerdə qərarlaşıb.

Şəhərlərin sabit genişzolaqlı internet üzrə reytinqinə Valparaiso (320,47 MB/S) başçılıq edib. Sonuncu pillədə Hələb (1,95 MB/S) qərarlaşıb.

Azərbaycan paytaxtı iyulda mobil internetin sürətinə görə 68,99 MB/S sürətlə iyuna nisbətən 1 pillə irəliləyərək 162 şəhər arasında 69-cu yerdə qərarlaşıb.

Şəhərlər arasında mobil internetin sürətinə görə birinci yeri Ər-Rayyan (451,02 MB/S), sonuncu yeri Kabil (8,01 MB/S) tutub.

## Əmək müqavilələrinin sayı 1,8 milyonu ötüb

**Bu ilin yanvar-iyul ayları ərzində ölkəmizdə əmək müqavilələrinin sayı 33 min və ya 1,8 faiz artaraq 1 mln. 841 min 479-a çatıb.**

Əməkhaqqı islahatları, əmək müqavilələrinin sayında artım əməkhaqqı fondunda da davamlı artımla nəticələnir.

Cari ilin 7 ayında əməkhaqqı fondunda daha 5,1 faiz artım qeydə alınıb.

# Muğan yenə biri üç edəcək

## Biləsuvarda və Neftçalada günəş-elektrik stansiyaları tikiləcək

**"Yaşıl enerji" layihələri getdikcə inamla bölgələrə doğru da addımlayır. O cümlədən Biləsuvarda və Neftçalada günəş-elektrik stansiyaları tikiləcək.**

Keçən ilin oktyabr ayında "Qaradağ" Günəş-Elektrik Stansiyasının açılış mərasimi çərçivəsində Prezident İlham Əliyevin iştirakı ilə Azərbaycan Hökuməti və Birləşmiş Ərəb Əmirliklərinin "Masdar" şirkəti arasında ümumi gücü 1000 MVt olan "yaşıl enerji" layihələri üzrə üç investisiya müqaviləsi imzalandı. Müqavilələr Biləsuvar rayonunda 445 MVt gücündə, Neftçala rayonunun Bankə qəsəbəsində 315 MVt gücündə günəş-elektrik stansiyaları və Abşeron-Qaradağ rayonunda 240 MVt gücündə külək-elektrik stansiyası layihələrinin icrasını nəzərdə tutur.

İnvestisiya müqavilələri 2022-ci ilin iyun ayında şirkətlə bərpaolunan enerji mənbələri üzrə 4 QVt (4000 MVt) gücündə "Meqa" layihələrin qiymətləndirilməsi, inkişafı və həyata keçirilməsi ilə bağlı imzalanmış icra müqavilələrinin birinci mərhələsini əhatə edir.

Bu ilin aprel ayında isə Nazirlər Kabineti Biləsuvar və Neftçala rayonlarının inzibati ərazilərində dövlət mülkiyyətinə aid torpaq sahələrini bərpaolunan enerji mənbələrinin əraziləri kimi müəyyənləşdirib. Bununla bağlı qərarlar imzalanıb. Qərara görə, Biləsuvar rayonunun inzibati ərazisində dövlət mülkiyyətində olan kənd təsərrüfatı təyinatlı torpaqlar kateqoriyasına aid 1454 hektar torpaq sahəsi qoyuluş gücü 445 MVt olan günəş-elektrik stansiyasının tikintisi məqsədilə bərpaolunan enerji mənbələrinin ərazisi kimi müəyyən edilib.

Neftçala rayonunun inzibati ərazisində Müdafiə Nazirliyinin istifadəsində olan sənaye, nəqliyyat, rabitə, müdafiə və digər təyinatlı torpaqlar kateqoriyasına aid 523 hektar torpaq sahəsi Energetika Nazirliyinin istifadəsinə verilməklə, rayonun Yenikənd bələdiyyəsinin mülkiyyətində olan 400 hektar və Neftçala bələdiyyəsinin mülkiyyətində olan 50 hektar kənd təsərrüfatı təyinatlı torpaq sahələri ilə birlikdə, ümumilikdə 973 hektar torpaq sahəsi qoyuluş gücü 315 MVt olan günəş-elektrik stansiyasının tikintisi məqsədilə bərpaolunan enerji mənbələrinin ərazisi kimi müəyyən olunub.

İyunun 4-də "Bakı Ekspo" Mərkəzində 29-cu Beynəlxalq Xəzər Neft və Qaz Sərgisinin açılışı çərçivəsində Prezident İlham Əliyev və Birləşmiş Ərəb Əmirliklərinin sənaye və qabaqcıl texnologiyalar naziri Sultan Əhməd Əl-Cabir sözügedən üç stansiyanın təməlini qoydular. Təməlqoymadan öncə dövlətimizin başçısı demişdir: "Bir az sonra iştirak edəcəyimiz mərasim haqqında danışarkən qeyd etdim ki, bu, sadəcə, başlanğıcdır. Yeri gəlmişkən, ötən ilin oktyabrında "Masdar" şirkəti 230 meqavat gücündə günəş-elektrik stansiyasını istifadəyə verib. İndi isə daha 1 qiqavat enerji həcmi əlavə edilir... Bu gün həqiqətən də əlamətdar gündür. Bakı Neft və Qaz Sərgisində qaz müqaviləsinin imzalanmasından 28 il sonra, 1 qiqavat həcmində bərpaolunan enerji ilə bağlı artıq



imzaladığımız müqavilələr nəticəsində bu gün təməlqoyma mərasimi baş tutacaqdır. Artıq qeyd etdiyim kimi, bu, sadəcə, başlanğıcdır, çünki potensialımız nəhəngdir. Bizim tərəfdaşlarımız qlobal səviyyədə aparıcı şirkətlərdir və dediyim ki, "Masdar" "yaşıl enerji"yə keçid sahəsində ən öndə gedən şirkətdir".

Enerji tariximizdə ilk xarici sərmayə əsaslı ən böyük günəş-elektrik stansiyasının istifadəyə verilməsi, həmçinin 1000 MVt gücündə günəş və külək enerjisi stansiyalarının təməlinin qoyulması göstərir ki, ölkəmiz "yaşıl enerji" hədəflərinə doğru inamla gedir. Azərbaycan "yaşıl enerji" istehsal və ixrac edən ölkə kimi strateji hədəflərini "Masdar" şirkəti ilə reallaşdırmaqdan məmnunluq duyur və bu layihələr 2030-cu ilədək elektrik enerjisinin istehsal gücündə bərpaolunan enerji mənbələrinin payının 33 faizədək yüksəlməsində mühüm rol oynayacaq.

Qeyd edək ki, "Masdar"ın əsası 2006-cı ildə qoyulub və şirkət 40-dan çox ölkədə ümumi qoyuluş gücü 20 QVt-dan çox olan layihələr icra edib.

Bu arada yeni stansiyaların tikintisi ilə bağlı hazırlıqlar davam edir. Elə bu günlərdə "Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində Neftçalada "Masdar" şirkəti və beynəlxalq maliyyə təşkilatlarının iştirakı ilə hazırlıq görüşü keçirilib.

Beynəlxalq maliyyə təşkilatlarından Asiya İnfrastruktur İnvestisiya Bankının, Avropa Yenidənqurma və İnkişaf Bankının, Asiya İnkişaf Bankının, "WSP"-nin nümayəndələri günəş-elektrik stansiyasının tikintisi layihəsi çərçivəsində onları maraqlandıran fikirlər səsləndiriblər. Layihə ilə bağlı gözləntilər, ətraf mühütə təsir, tikinti işlərinə cəlb olunacaq işçilərin sosial statusu və s. haqqında fikir mübadiləsi aparılıb.

Görüşdən sonra beynəlxalq maliyyə təşkilatlarının nümayəndə heyəti bərpaolunan enerji mənbələrinin inşa ediləcəyi əraziyə baxış keçirib, yerdə mövcud vəziyyətlə tanış olublar.

*Flora SADIQLI,*
*"Azərbaycan"*

## Türkiyənin "İqliməsaslı ağıllı kənd təsərrüfatı" üzrə təcrübəsi öyrənilir

**İslam Əməkdaşlıq Təşkilatının İqtisadi və Ticarət Əməkdaşlığı üzrə Daimi Komitəsinin (COMCEC) layihəsi çərçivəsində Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Kredit və İnkişaf Agentliyi tərəfindən təqdim edilmiş "İqliməsaslı ağıllı kənd təsərrüfatı (CSA)" layihəsi uğurlu hesab edilərək təsdiq olunub.**

Layihə çərçivəsində qlobal iqlim dəyişikliyinin kənd təsərrüfatı məhsuldarlığına, ərzaq təhlükəsizliyinə və kənd əhalisinin yaşam standartlarına mənfi təsirlərinin azaldılması, beynəlxalq təcrübədə istifadə olunan innovativ alətlərin tətbiqi sahəsində müzakirələrin aparılması və müvafiq sahələrə səfərlərin həyata keçirilməsi məqsədilə Azərbaycan və Türkiyənin kənd təsərrüfatı ekspertləri arasında təcrübə mübadiləsi proqramı təşkil edilib.

Proqramla bağlı Kənd Təsərrüfatı Nazirliyinin Torpaqdan istifadəyə nəzarət şöbəsinin müdiri Firidun Tağıyev və həmin şöbənin Kənd təsərrüfatının ekologiyası və iqlim məsələləri sektorunun aparıcı məsləhətçisi Samirə Qurbanlı cari ilin 4-11 avqust tarixlərində Türkiyə Respublikasının Ankara şəhərinə səfər ediblər.

Səfər ərzində Türkiyənin Kənd Təsərrüfatı və Meşəçilik Nazirliyinin Avropa İttifaqı və Xarici Əlaqələr Baş İdarəsinin müdiri Ferhat Çolak və şöbə müdiri Özge İmamoğlu, Aqrar İslahatlar Baş İdarəsinin müdiri Mustafa Gezici, Su Təsərrüfatı Baş İdarəsinin müdiri Afire Sever, Dövlət Su İşləri Xarici Əlaqələr İdarəsinin müdiri Özlem İritaş və rumların təmsilçiləri ilə görüşlər təşkil edilib və müvafiq istiqamətlərdə müzakirələr aparılıb.

Müzakirələrin əsas mövzusu hazırda iqlim dəyişikliyinin Türkiyənin kənd təsərrüfatı sektoru üçün yaratdığı riskləri, bu riskləri azaltmaqla bağlı kənd təsərrüfatı sektorunda iqlim dəyişikliyinə uyğunlaşma (adaptasiya) və təsirlərin yumşaldılması (mitiqasiya) istiqamətində aparılan fəaliyyətlərini öyrənmək və uğurlu fəaliyyətlərin Azərbaycanın kənd təsərrüfatı sektorunda da tətbiqi üçün əməkdaşlıqları gücləndirməkdir.

Türk ekspertləri tərəfindən təqdim edilən layihələr içərisində ən çox maraq doğuran layihələr - Dünya bankı tərəfindən icrası üçün yüksək maliyyə resursları ayrılmış Türkiyə iqlim ağıllı və rəqabət qabiliyyətli kənd təsərrüfatı inkişaf layihəsi olan TUCSAP, su resurslarının səmərəli və düzgün istifadəsi üçün yaradılmış və artıq icra edilməyə başlanılan HİDROTÜRK, suvarma qurğularının məkan məlumat sistemi olan SUTEM, kənd təsərrüfatı fəaliyyətləri nəticəsində suda çirklənmənin monitorinqi tədqiqatlarında istifadə üçün hazırlanmış nitrat məlumat sistemi NIBIS olub. Azərbaycanın kənd təsərrüfatı sektoru üçün yaradılmış elektron kənd təsərrüfatı informasiya sistemi olan EKTİS də türk ekspertləri tərəfindən uğurlu layihə hesab edilib.

Nümayəndə heyəti proqram çərçivəsində daşqın və meşə yanğınlarından mühafizə mərkəzləri, Türkiyənin Kənd Təsərrüfatı və Meşə Təsərrüfatı Nazirliyinin təbii göl və landşaft bitkiləri olan ərazilərini ziyarət edib.

Sonda hər iki ölkə nümayəndələri COMCEC layihəsi vasitəsilə "İqliməsaslı ağıllı kənd təsərrüfatı (CSA)" istiqamətində paylaşılan təcrübə və biliklərin, əməkdaşlıqların Azərbaycan və Türkiyənin iqlim dəyişikliyinə daha dayanıqlı kənd təsərrüfatı sisteminin qurulmasında mühüm rol oynayacağını vurğulayıb və bu kimi layihələrin davam etdirilməsinin zəruri olduğunu bildiriblər.

*"Azərbaycan"*



## İşğaldan azad edilmiş ərazilərdə yaradılan sənaye parklarında bu il bir neçə müəssisə fəaliyyətə başlayacaq



**Qarabağın və Şərqi Zəngəzurun dirçəldilməsi və sənaye potensialının inkişaf etdirilməsi məqsədilə yaradılan Ağdam və "Araz Vadisi İqtisadi Zonası" sənaye parklarında sahibkarlıq fəaliyyətinin inkişafı üçün əlverişli investisiya mühiti formalaşdırılıb ki, bu da iş adamlarının sözügedən sənaye zonalarına marağının artmasına səbəb olur.**

Hazırda Ağdam və "Araz Vadisi İqtisadi Zonası" sənaye parklarında ümumilikdə investisiya kapitalı 330 milyon manatdan çox olan 39 sahibkarlıq subyektinə rezidentlik, 8 sahibkara isə qeyri-rezidentlik statusu verilib. Sahibkarlıq subyektləri tərəfindən sənaye parklarında 2900-dək daimi iş yerinin yaradılması nəzərdə tutulur. Artıq bu günədək rezidentlər tərəfindən sənaye parklarına 89 milyon manatdan çox investisiya yatırılıb, 330-dan artıq daimi iş yeri yaradılıb.

## Yeni yerüstü piyada keçidinin inşası sürətlənir

**Dövlət başçısının vətəndaşların avtomobil yollarını rahat və təhlükəsiz şəkildə keçməsini təmin etmək istiqamətində verdiyi tapşırıqlara əsasən, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi tərəfindən kompleks tədbirlər həyata keçirilir.**

Agentlik tərəfindən piyadaların avtomobil yolunu keçməsində problem yaşanan ərazidə, Hava Limanı-Mərdəkan-Zuğulba avtomobil yolunun 3-cü km-də yeni piyada keçidinin inşası davam etdirilir.

Layihə üzrə keçidin ümumi uzunluğu 51 metr, daxili eni 3.50, pilləkənlərin eni 3 metrdir. Yol səviyyəsindən hündürlüyü 5.8 metr olan keçid orta dayaqdan ibarət, metal konstruksiyalıdır.

Artıq keçiddə özül svaylarının vurulması və keçidin metal dayaq hissələrinin quraşdırılması işləri aparılıb. İki giriş-çıxışdan ibarət olması nəzərdə tutulan keçiddə müasir lift sistemləri quraşdırılacaq.



Layihə çərçivəsində yolun hər iki tərəfində yeni avtobus cibləri, avtobus dayanacağının, təhlükəsizlik kameralarının quraşdırılması, keçidin istismarına nəzarət edən işçilər üçün nəzarət otağının tikintisi, piyada keçidinin ətrafında abadlaşdırılma işlərinin görülməsi nəzərdə tutulub.

Beynəlxalq standartlara cavab verəcək müasir texnologiyalar əsasında və keyfiyyətli materiallardan istifadə edilərək inşa edilən yerüstü piyada keçidi piyadaların avtomobil yolunu rahat və təhlükəsiz şəraitdə keçməsini təmin edəcək.

Tədbirlər planına uyğun olaraq növbəti illərdə zəruri olan digər ərazilərdə də piyada keçidlərinin inşası aparılacaq.

## 7 ayda Azərbaycana 1,5 milyon turist gəlib

**Cari ilin yanvar-iyul aylarında Azərbaycana 182 ölkədən 1 milyon 502,7 min və ya əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 31,4 faiz çox əcnəbi və vətəndaşlığı olmayan şəxs gəlib.**

Dövlət Statistika Komitəsinin məlumatına görə, gələnlərin 29,2 faizi Rusiya Federasiyası, 16,5 faizi Türkiyə, 9,3 faizi Hindistan, 8,3 faizi İran, 4,2 faizi Səudiyyə Ərəbistanı, 4,0 faizi Gürcüstan, 3,2 faizi Qazaxıstan, 2,7 faizi Pakistan, hər birindən 1,7 faiz olmaqla Özbəkistan və Birləşmiş Ərəb Əmirlikləri, 1,5 faizi Çin, hər birindən 1,3 faiz olmaqla Ukrayna və Küveyt, 1,2 faizi Türkmənistan, hər birindən 1,1 faiz olmaqla İsrail və Oman, 1,0 faizi Belarus, 10,7 faizi digər ölkələrin vətəndaşları olmuşdur.

Ötən ilin eyni dövrü ilə müqayisədə Hindistandan gələnlərin sayı 2,5, Cənubi Koreyadan 2,3, Çindən 2,1, İspaniyadan 1,8, Qazaxıstandan 1,8, Qırğızıstandan 1,7, Filippindən 1,6, Pakistandan 1,5 dəfə artmışdır.

2023-cü ilin yanvar-iyul aylarına nisbətən körfəz ölkələrindən gələnlərin sayı 39,6 faiz artaraq 258,8, Avropa İttifaqına üzv ölkələrdən gələnlərin sayı 28,0 faiz artaraq 57,1 min nəfər, MDB ölkələrindən gələnlərin sayı 20,5 faiz artaraq 576,1 min nəfər olmuşdur.

**ŞƏHİDLƏR ölməz, VƏTƏN bölünməz!**

# Birinci Qarabağ savaşı şəhidləri torpağa tapşırılıb

Abşeron rayonu Mehdiabad qəsəbə qəbiristanlığında Birinci Qarabağ müharibəsi zamanı şəhid olmuş 4 hərbçimizin nəşi dəfn olunub.



Qeyd edək ki, bu il aparılan araşdırmalar nəticəsində kimliyi məlum olan şəxslərdən 4 nəfərin şəhid Elman Hüseyn oğlu Camalovun (23.06.1970-26.01.1992), şəhid Əbülfəz Əbülfət oğlu Əbilovun (12.02.1961-19.01.1994), şəhid Tahir Şirin oğlu Şirinovun (23.08.1959-23.10.1993) və şəhid Cavanşir Ərşad oğlu Hüseynovun (15.07.1960-23.10.1993) olduğu müəyyənləşib.

Şəhidlərin dəfn mərasimində Abşeron, Cəbrayıl, Binəqədi və Nəsimi rayon icra hakimiyyətlərinin məsul əməkdaşları, hüquq-mühafizə orqanlarının və idarə-təşkilat rəhbərləri, şəhid ailələri, müharibə iştirakçıları və rayon ictimaiyyətinin nümayəndələri iştirtak ediblər. Mərasimdə hərbi orkestrin müşayiəti ilə Dövlət himni səslənib, yaylım atəşi açılıb, dualar oxunub. Sonra şəhidlərin ruhuna ehsan süfrəsi açılıb.

Mərasimdə şəhid ailələri vurğulayıblar ki, hər zaman əzizlərinin məzarlarının və ziyarət yerlərinin olmasını arzulamışlar. Bu gün onların arzuları çin olub.

*Akif ƏLİYEV,*
*"Azərbaycan"*


**OXUCULARIN VƏ MƏTBUATYAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!**

**"AZƏRBAYCAN"** *qəzetinə*

***2024-cü il üçün abunə yazılışı davam edir!***

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**
**1 aylıq - 15,60** (on beş manat altmış qəpik) **manat**


AZƏRBAYCAN
SƏRHƏDLƏRİN KEŞİYİNDƏYİK!
Davamlı zəfərlər ölkəmizin nüfuzunu yüksəldir
"Yaşıl dünya" "yaşıl təfəkkür"dən başlayır
Dmitri SAVELYEV: "Rusiya-Azərbaycan iqtisadi əlaqələri sürətlə inkişaf edir"

**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya* ***(Tel.: (012) 539-59-33)*** *zəng vura bilərsiniz.*


# "Yay Fest"in başlıca məqsədi gənclərə müxtəlif sahələrdə geniş imkanlar yaratmaqdır

Azərbaycan gənclərini bir araya toplayan "Yay Fest" uğurla davam edir. Əyləncəli, öyrədici və dinamik atmosferdə yenidən başlayan festivalın 5-ci düşərgəsi artıq yekunlaşır.







Bu il "Yay Fest" Gənclər Fondunun dəstəyi, "IDEA" İctimai Birliyi, COP29 Sədrliyi, Azərbaycan Tələbə Gənclər Təşkilatları İttifaqı, Azərbaycan Könüllü Təşkilatları İttifaqı, "CAVAN" Gənclər Hərəkatı İctimai Birliyi və "Gənc Könüllülər" İctimai Birliyinin birgə təşkilatçılığı ilə həyata keçirilir.

Gənclər Fondundan AZƏRTAC-a verilən məlumata görə, çadır tipli düşərgə formatında təşkil edilən "Yay Fest"in başlıca məqsədi dövlət gənclər siyasətinə uyğun olaraq, gənclərə müxtəlif sahələrdə geniş imkanlar yaratmaq və onların inkişafına kömək etməkdir. Bununla yanaşı, gənclərin asudə vaxtlarını səmərəli və maraqlı keçirmələrini təmin etmək, müxtəlif bölgələrdən gələn gənclərin şəbəkələşməsinə dəstək olmaqdır.

Prezident İlham Əliyevin sərəncamına əsasən, 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan olunmasının və COP29 kimi mötəbər tədbirə ölkəmizin evsahibliyi etməsinin vacibliyini nəzərə alaraq, builki düşərgədə seçilən mövzular ekologiya və ətraf mühitin mühafizəsinə həsr olunub.

İyulun 15-dən başlayan "Yay Fest"in 5-ci düşərgəsi gənclər üçün unudulmaz, əyləncəli, yaddaqalan və öyrədici olub. Beynəlxalq Gənclər Günündə özünü əhatə edən düşərgə proqramında gənclərin vətənpərvər ruhda tərbiyə olunması və onların inkişafına dəstək verən fəaliyyətlər xüsusi əhəmiyyət daşıyıb. Həmçinin "Yay Fest"in 5-ci düşərgəsində qardaş Türkiyədən olan gənclər də iştirak ediblər. Düşərgə çərçivəsində "IDEA" İctimai Birliyi tərəfindən keçirilən təlimlər və interaktiv fəaliyyətlər gənclərin ekoloji maarifləndirilməsi ilə yanaşı, onların ekoloji təhlükəsizliyə məsuliyyətli yanaşmasını təşviq edib. Açıq havada təşkil olunan ekoloji oyunlar, komanda işləri, hayking və əyləncəli fəaliyyətlər gənclərə həm maraqlı, həm də öyrədici təcrübə yaşadıb. Gənclər üçün hər axşam konsert və əyləncə proqramları təşkil edilib. Həmçinin düşərgə iştirakçıları qardaş Türkiyənin gəncləri, müxtəlif bölgələrdən olan yaşıdları ilə tanış olub, yeni dostluqlar quraraq şəbəkələşmənin vacibliyini bir daha anlayıblar. Gənclər üçün hazırlanmış maraqlı və əyləncəli proqram, onların həm asudə vaxtlarını səmərəli keçirməsinə, həm də şəxsi və peşəkar inkişafına töhfə verib.

Gəncliyin enerji dolu atmosferi olan "Yay Fest" əyləncə və dinamik bir mühit yaratmaq üçün öyrənmə imkanları ilə də zəngindir. 2019-cu ildən bəri təşkil olunan festival iki ay ərzində davam edəcək və müxtəlif mövzuları əhatə edən silsilə düşərgələrdən ibarət olacaq. Ötən illərdə olduğu kimi, bu il də tematik mövzulara uyğun 8 ardıcıl düşərgənin keçirilməsi planlaşdırılır. Festivalda ümumilikdə 2 mindən çox gəncin iştirakı nəzərdə tutulub və düşərgə iştirakçıları üçün bütün zəruri şərait təşkilatçılar tərəfindən yaradılıb.

"Yay Fest"in bütün yeniliklərindən xəbərdar olmaq və maraqlı, dinamik proqramlarla zəngin olan bu möhtəşəm tədbirdə iştirak şansı əldə etmək üçün "Yay Fest"in "İnstaqram" səhifəsini izləmək lazımdır. Festivalın unudulmaz anlarını yaşamaq və növbəti düşərgələrin bir parçası olmaq üçün "Yay Fest"ə qoşulun və əyləncəli yay təcrübəsindən yararlanın.

# 31 il əvvəl itkin düşmüş Kəlbəcər sakini Bərdədə dəfn edilib

31 il əvvəl itkin düşmüş hesab edilən və şəxsiyyəti dəqiqləşdirilmiş mülki şəhid Təranə Davud qızı Zeynalovanın nəşinin qalıqları Bərdə rayonunda dəfn olunub.



AZƏRTAC xəbər verir ki, Bərdə şəhər qəbiristanlığında keçirilən vida mərasimində rayon sakinləri, Bərdə və Kəlbəcər Rayon İcra Hakimiyyətinin, hüquq-mühafizə orqanlarının rəhbərləri və əməkdaşları, ictimaiyyət nümayəndələri iştirak ediblər. Vida mərasimindən sonra Təranə Zeynalovanın nəşi torpağa tapşırılıb.

Qeyd edək ki, Təranə Davud qızı Zeynalova 1970-ci ildə Kəlbəcər rayonunun Çobangərəkməz kəndində anadan olub. 1993-cü il martın 31-də Kəlbəcər rayonunun Qamışlı kəndi ərazisində "Tunel" adlanan yerdə üç qardaşı ilə birlikdə itkin düşüb. Onun nəşinin qalıqları Laçın rayonunun Malıbəyli kəndi ərazisində aşkar edilib.

# "YAŞAT" Fondunun "Ənənə" yay düşərgəsi davam edir








Göygöl rayonunun Milli Yaylaq Festivalı ərazisində şəhid övladları üçün avqustun 13-dən təşkil olunan "Ənənə" yay düşərgəsi davam edir.

Düşərgə "YAŞAT" Fondunun təşkilatçılığı, Göygöl Rayon İcra Hakimiyyətinin, "Cavad xan" Tarix və Mədəniyyət Fondunun tərəfdaşlığı, "Bakcell"in baş sponsorluğu, "ALPHA FLY Academy" və Daxili İşlər Nazirliyinin "Dinamo" İdman Cəmiyyətinin dəstəyi ilə keçirilir.

Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin İctimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, 18-22 yaş aralığında 50 nəfərədək şəhid övladının iştirak etdiyi düşərgə hərbi vətənpərvərlik və milli ənənələr mövzusunda təşkil olunur.

Düşərgənin ikinci günü Azərbaycan Milli İdman Növləri Assosiasiyası tərəfindən iştirakçılar üçün müxtəlif idman oyunlarının nümayişi və təlimi, "Dinamo" tərəfindən "Airsoft praktiki atəş" təlimi, atıcılıq üzrə yarış və straykbol oyunu, həmçinin oxatma təlimi və turniri keçirilib. Atıcılıqda yüksək nəticə göstərən iştirakçılar "Dinamo" tərəfindən mükafatlandırılıblar.

Düşərgədə "Bakcell" tərəfindən keçirilən "Müasir bacarıqlar və innovasiya" adlı təlimdə iştirakçılara gələcəyin peşələri, ən çox tələb olunan bacarıqlar və bu bacarıqların əldə edilməsi üçün texnologiya, eləcə də innovasiyanın rolu izah edilib. Ardınca "ALPHA FLY Academy" tərəfindən paradlinq praktiki təlimi keçirilib. Növbəti təlim isə dağçılıqla bağlı olub. İştirakçıların Cavad Xan zirvəsinə yürüşü təşkil olunub.

Avqustun 18-dək davam edəcək düşərgənin əsas məqsədi vətənpərvərlik hissi və milli-mənəvi dəyərlərin aşılanmasıdır.

Xatırladaq ki, "YAŞAT" Fondunun təşkilatçılığı ilə şəhid övladları üçün bundan əvvəl Londonda yay məktəbi, Antalyada isə yay düşərgəsi təşkil edilib. Fond tərəfindən şəhid övladları üçün mütəmadi olaraq düşərgələr, müxtəlif kurslar, layihələr və təlimlər təşkil edilir, onların yüksəksəviyyəli təhsilinə dəstək göstərilir.

# Avqustun 17-18-də ölkə ərazisində hava şəraitinin nisbətən sabitləşəcəyi gözlənilir

Avqustun 17-18-də ölkə ərazisində hava şəraitinin nisbətən sabitləşəcəyi, temperaturun tədricən 3-4° yüksələcəyi gözlənilir.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında hava şəraiti əsasən yağmursuz keçəcək. Avqustun 17-si gündüz saatlarında havanın qısa müddətə tutulacağı ehtimal olunur. Cənub-şərq küləyi üstünlük təşkil edəcək. Havanın temperaturu gecə 20-25°, gündüz 28-33° isti olacaq.

Bölgələrdə də müşahidə olunun yağıntılı hava şəraitinin avqustun 17-si gündüz saatlarınadək davam edəcəyi, 18-də əksər rayonlarda əsasən yağmursuz keçəcəyi gözlənilir. Şərq küləyi əsəcək. Havanın temperaturu gecə 20-25°, gündüz 30-35° isti olacaq.

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Baş Prokurorluğunun rəhbərliyi və kollektivi prokurorluğun veteranı Rasim Hacıyevə atası

**AKİF MÜƏLLİMİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikasının maliyyə naziri Samir Şərifov və nazirliyin kollektivi nazirliyin sabiq əməkdaşı

**ƏBDÜL XALIQ OĞLU DADAŞOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

TuranBank ASC-nin rəhbərliyi və kollektivi Bankın Risklərin İdarə Edilməsi Departamentinin direktoru Asif Əzizova atası

**ƏLİFƏRMAN ƏZİZOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


**BAŞ REDAKTOR**
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

contact@azerbaijan-news.az
az.reklam@mail.ru



www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

**Gündəlik rəsmi dövlət qəzeti**

Tiraj 3959
Sifariş 1813

Qiyməti 60 qəpik